# Namaz və oruc risaləsi



## Ayətullah Seyid Əli Xamenei

بسم الله الرحمن الرحيم

**Kitabın adı:..............................Namaz və oruc risaləsi**
**Tərcümə edən:.........................................İbrahim Əlili**
**Çap tarixi:..............................................................2022**
**Çap növbəsi:......................................................Birinci**
**Tiraj:.....................................................................1000**

«Издательство Полипресс»
Тверь, Комсомольский проспект, дом 19.
Тел.: (4822) 58-19-78, 500-250,

ISBN 46-41-024519-45

# NAMAZ

Namaz ən önəmli ibadətdir, düzgün şəkildə və diqqətlə yerinə yetirilsə, insanın ruhunu təmizləyər, qəlbini işıqlandırar, onu xoşagəlməz xarakterlərdən uzaq durmağa qadir edər. Namaz fərdi və cəmiyyəti tədricən bütün çirkablardan təmizləyə bilər. Yaxşı olar ki, namaz ilk vaxtında, (Allahla ünsiyyətə) diqqətlə və riyasız qılınsın, namazqılan hər sözündə Allah-taala ilə danışdığını xatırlasın və nə dediyini bilsin.

# Vacib namazlar

**Məsələ 1:** Vacib namazlar aşağıdakılardan ibarətdir:

1. Gündəlik namazlar;
2. Vacib Kəbə təvafından sonra qılınan təvaf namazı;
3. Günəş və ya ay tutulanda, zəlzələ olanda və buna bənzər digər hallarda qılınan ayat namazı;
4. Dünyadan köçmüş insana qılınan meyit namazı;
5. Atanın və vacib ehtiyata əsasən, ananın böyük oğula vacib olan qəza namazı;
6. Əhd, nəzir, and və ya icarə vasitəsilə vacib olan namaz.[1]

# Gündəlik namazlar

**Məsələ 2:** Gündəlik namazlar İslam şəriətinin çox mühüm vacib əməllərindən, hətta dinin sütunudur və heç bir halda tərk olunmamalıdır.

**Məsələ 3:** Gündəlik vacib namazlar 17 rükətdir:

Sübh namazı (iki rükət)

Zöhr namazı (dörd rükət)

Əsr namazı (dörd rükət)

Şam namazı (üç rükət)

---

[1] Bu zaman müstəhəb namaz vacibə çevrilmir, əslində, vacib olan nəzir, and, əhd və icarəyə əməl etməkdir.

İşa namazı (dörd rükət)

## Sübh namazının vaxtı

**Məsələ 4:** Sübh namazının vaxtı fəcrin (doğruçu fəcrin[1]) doğuşundan günəş çıxana qədərdir.

**Məsələ 5:** Fəcrin doğuşu, yəni sübh namazının ilk vaxtı üçün aylı gecələrlə aysız gecələr arasında fərq yoxdur; hərçənd, aylı gecələrdə sübh namazını sübhün işığı ay işığını üstələyəndən sonra qılmaq daha yaxşıdır.

## Zöhr və əsr namazlarının vaxtı

**Məsələ 6:** Zöhr namazının vaxtı günortanın əvvəlindən, günəş zaval edəndən[2] günəşin

---

[1] Doğruçu və yalançı fəcrlər vardır. Yalançı fəcr doğruçu fəcrdən bir qədər öncə səmada yaranan, üfüqə yayılmayıb şaquli şəkildə yuxarıya doğru əks olunan işıqdır. Üfüqə birləşmiş ağ işıq zəif işıqla doğub üfüqə yayılmağa başlayanda isə doğruçu fəcr doğmuş sayılır. Zaman ötdükcə onun işığı da artır.
Doğruçu fəcr zəif olduğuna görə onu görmək üçün şərqdə tam açıq və qaranlıq bir üfüqə ehtiyac var, şəhər içindən onu görmək çox çətindir. Bunu dəqiq müəyyən etməyin çətinliyini nəzərə alaraq, ehtiyat məqsədilə sübh namazı radio və televiziyada azan başlayandan təxminən 10 dəqiqə sonra qılınsın.

[2] Günəş şərqdən doğanda əşyaların kölgəsi qərbə doğru uzanmış olur, günəş yuxarı qalxdıqca kölgələr də qısalır.

batmasına yalnız əsr namazını qılmaq qədər vaxt qalana kimidir.

**Məsələ 7:** Əsr namazının vaxtı günortanın əvvəlindən zöhr namazını qılmaq qədər vaxt keçəndən sonra başlayır, günəş batanda bitir.

**Məsələ 8:** Zöhr və əsr namazlarının hər birinin xüsusi və müştərək vaxtları vardır. Zöhr namazının xüsusi vaxtı günortanın əvvəlindən zöhr namazını qılmaq həddində zaman kəsiyidir. Əsr namazının xüsusi vaxtı da günəşin batmasına əsr namazı qılmaq qədər qalan müddətdir. Zöhr və əsr namazlarının xüsusi vaxtları arasındakı zaman isə bu namazların müştərək vaxtı sayılır.

**Məsələ 9:** İnsan əsr namazının xüsusi vaxtına qədər zöhr namazını qılmasa, zöhr namazı qəzaya getmiş olur və həmin vaxtda əsr namazını qılmalıdır.

---

Nəhayət, günəş səmanın ortasına çatıb şaquli vəziyyətdə düz yuxarıdan saçanda kölgələr itir; bir qədər maili şəkildə saçanda isə şimal və ya cənub tərəfdə qısa kölgə qalır. Günəş qərbə doğru getməyə başlayanda yoxa çıxmış kölgələr şərqə doğru uzanmağa başlayır; ya da kölgə qalmışdısa, şərq tərəfdən artmağa başlayır. Bu zaman zöhr namazının vaxtıdır. Həmçinin, günəşin doğuşu ilə batışı arasındakı müddətin tən ortası zöhr namazının vaxtı sayılır.

# Şam və işa namazlarının vaxtı

**Məsələ 10:** Şam namazının vaxtı (günəş batandan sonra şərqdən qalxaraq) səmada yaranmış qırmızılığın itdiyi andan gecənin yarısına yalnız işa namazı qılacaq qədər vaxt qalana kimidir.

**Məsələ 11:** İşa namazının vaxtı şam namazının vaxtından şam namazı qılmaq həddində vaxt keçəndən gecənin yarısına qədərdir.

**Məsələ 12:** (Şam və işa namazları üçün) gecənin yarısı günəş batandan doğruçu fəcr doğana qədər müddətin tən ortasıdır.

**Məsələ 13:** Şam və işa namazlarının hər birinin xüsusi və müştərək vaxtları vardır. Şam namazının xüsusi vaxtı şam namazının vaxtı girəndən etibarən üç rükət namaz qılmaq həddində müddətdir. İşa namazının xüsusi vaxtı isə gecənin yarısına yalnız işa namazını qılmaq həddində qalan vaxtdır. Şam və işa namazlarının xüsusi vaxtları arasındakı müddət isə bu namazların müştərək vaxtı sayılır.

**Məsələ 14:** İnsan işa namazının xüsusi vaxtına qədər şam namazını qılmasa, əvvəlcə işa, sonra şam namazını qılmalıdır.

**Məsələ 15:** İnsan üzrlü və ya üzrsüz səbəbdən gecənin yarısına qədər şam və ya işa namazını qılmasa, vacib ehtiyata əsasən, sübh azanına qədər əda və qəza niyyəti etmədən qılmalıdır.

# Namaz vaxtlarının hökmləri

**Məsələ 16:** Müstəhəbdir ki, insan namazını ilk vaxtda qılsın. İslam mətnlərində bu barədə təkidli tövsiyələr vardır. Əgər ilk vaxtda qılmaq mümkün olmasa, ona nə qədər yaxın qılınsa, bir o qədər yaxşıdır. Lakin bəzən namazı təxirə salmaq daha yaxşı ola bilər; məsələn, camaat namazı qılmaq üçün.

**Məsələ 17:** İnsan gündəlik namazlarının vaxtını müəyyən etmək üçün (hətta qütbə yaxın bölgələrdə də) yaşadığı yerin üfüqünü nəzərə almalıdır.

**Məsələ 18:** İnsan namaz qılmaq üçün vaxtın daxil olduğuna əmin və ya xatircəm olmalı, yaxud bunu iki ədalətli kişi xəbər verməli və ya namaz vaxtlarını bilən etibarlı müəzzin azan verməlidir.

**Məsələ 19:** İnsan namaz vaxtının olduğuna əmin olub namaza başlasa və namaz əsnasında vaxtın olub-olmadığına şəkk etsə, namazı batildir. Lakin namazda vaxtın daxil olduğuna əmin olsa, ancaq o vaxta qədər qıldığının vaxt daxilində olub-olmadığına şəkk etsə, namazı düzgündür.

**Məsələ 20:** İnsan (şəri vaxtları elan edən) kütləvi informasiya vasitələri və digər bu kimi yollarla namaz vaxtının olduğuna xatircəm olsa, namazını qıla bilər.

**Məsələ 21:** Azan başlayanda insan namaz vaxtının olduğuna xatircəm olsa, namazını qıla bilər, azanın bitməsini gözləmək lazım deyil.[1]

**Məsələ 22:** Namaz vaxtı borc sahibi öz borcunu istəsə və insan onu verə bilsə, gərək əvvəlcə borcunu verib, sonra namazını qılsın. Başqa bir təcili vacib iş qarşıya çıxdıqda da belədir. Əlbəttə, namazın vaxtı dar olsa, gərək birinci namazı qılsın.

**Məsələ 23:** Namazın vaxtı çox dar olsa, belə ki, bəzi müstəhəb əməlləri yerinə yetirəcəyi təqdirdə namazın bir hissəsi vaxtdan sonra qılınacaqsa, həmin müstəhəb əməlləri yerinə yetirməməlidir. Misal üçün, əgər qünut tutsa, namazın bir hissəsi namaz vaxtı bitəndən sonra qılınacaqsa, qünut tutmamalıdır.

**Məsələ 24:** Namazın bir rükətini qılmaq qədər vaxt qalıbsa, insan namazı əda niyyəti ilə qılmalıdır. Lakin bilərəkdən namazı o vaxta qədər təxirə salmaq olmaz.

**Məsələ 25:** Əgər günəşin batmasına beş rükət namaz qılmaq qədər vaxt qalsa, gərək zöhr və əsr namazlarını qılsın. Lakin vaxt bundan az olsa, yalnız əsr namazını qılmalı, sonra zöhr namazını qəza etməlidir. Əgər gecənin yarısına beş rükət namaz qılmaq qədər vaxt qalsa, gərək şam və işa

---

[1] Əlbəttə, qeyd olunduğu kimi, sübh namazı, ehtiyat məqsədilə, azan başlayandan təxminən on dəqiqə sonra qılınsın.

namazlarını qılsın. Əgər vaxt bundan az olsa, yalnız işa namazını qılmalı, sonra şam namazını, vacib ehtiyata əsasən, əda və qəza niyyəti etmədən, "ədadırsa əda, qəzadırsa qəza" niyyəti ilə qılmalıdır.

**Məsələ 26:** Səfərdə olan şəxsin günəş batana qədər üç rükət namaz qılmaq həddində vaxtı olsa, zöhr və əsr namazlarını qılmalıdır. Əgər vaxtı bundan az olsa, təkcə əsr namazını qılıb, zöhr namazının qəzasını etməlidir. Habelə, gecənin yarısına qədər dörd rükət namaz qılmaq qədər vaxt olsa, şam və işa namazının hər ikisini qılmalıdır; amma vaxtı bundan az olsa, işa namazını qılmalı, sonra şam namazını, vacib ehtiyata əsasən, əda və qəza niyyəti etmədən qılmalıdır. İşa namazını qıldıqdan sonra gecənin yarısına bir rükət və ya daha artıq namaz qılmaq qədər vaxt qaldığı məlum olarsa, dərhal şam namazını əda niyyəti ilə qılmalıdır.

## Namazlar arasında ardıcıllıq

**Məsələ 27:** Əsr namazı zöhrdən, işa namazı isə şamdan sonra qılınmalıdır. İnsan qəsdən bu ardıcıllığı pozsa, namaz batildir.

**Məsələ 28:** İnsan səhvən və ya diqqətsizlikdən əsr namazını zöhrdən və ya işa namazını şamdan qabaq qılsa və namazı bitirəndən sonra yadına düşsə, namazı düzgündür.

**Məsələ 29:** İnsan zöhr namazını qıldığını zənn edib əsr namazının niyyəti ilə namaza başlasa və namaz əsnasında zöhrü qılmadığını bilsə, əgər zöhr və əsr namazlarının müştərək vaxtındadırsa, dərhal niyyətini zöhr namazına çevirib namazı bitirməli, ondan sonra əsr namazını qılmalıdır. Lakin əgər zöhr namazının xüsusi vaxtında olsa, vacib ehtiyata əsasən, gərək niyyətini zöhr namazına dəyişsin, namazı qılıb bitirsin və sonra hər iki namazı – zöhr və əsr namazlarını ardıcıllıqla qılsın.

**Məsələ 30:** İnsan şam namazını qıldığını zənn edib işa namazına başlasa və namaz əsnasında səhv etdiyini bilsə, əgər şam və işa namazlarının müştərək vaxtındadırsa və dördüncü rükətin rükusuna getməyibsə, niyyətini şam namazına dəyişdirməli, namazı qılıb bitirməli və sonra işa namazını qılmalıdır. Lakin dördüncü rükətin rükusuna getmiş olsa, ehtiyata əsasən, namazı bitirməli, sonra şam və işa namazlarını ardıcıllıqla qılmalıdır. Habelə şam namazının xüsusi vaxtında olsa və dördüncü rükətin rüku əməlinə başlamayıbsa, vacib ehtiyat odur ki, niyyəti şam namazına dəyişsin, namazı qılıb bitirsin, sonra hər iki namazı ardıcıllıqla qılsın.

**Məsələ 31:** Əgər zöhr niyyəti ilə namaza başlasa, namaz əsnasında zöhrü qıldığını xatırlasa, niyyətini əsr namazına dəyişə bilməz; gərək bu namazı pozub əsr namazını qılsın. Habelə şam namazını qıldığı yerdə şamı qıldığını xatırlasa, hökm belədir.

# Müstəhəb namazlar

**Məsələ 32:** Müstəhəb (nafilə) namazlar çoxdur. Onların arasında gündəlik nafilələr, xüsusən də gecə namazı çox tövsiyə olunmuşdur.

**Məsələ 33:** Gündəlik nafilələr sutka ərzində qılınan müstəhəb namazlardır. Bu nafilələri qılmaq çox əhəmiyyətlidir və çoxlu savaba malikdir. Gecənin yarısından sonra qılınan gecə nafiləsinin isə bütün müstəhəb namazlar arasında özünəməxsus yeri var. Bu namazın çoxlu mənəvi faydaları var və yaxşı olar ki, müsəlmanlar onu qılmağa əhəmiyyətli yanaşsınlar.

**Məsələ 34:** Gündəlik nafilələr aşağıdakılardan ibarətdir:

1. Zöhr nafiləsi – səkkiz rükətdir (dörd ikirükətli namaz) və zöhr namazından qabaq qılınır;
2. Əsr nafiləsi – səkkiz rükətdir (dörd ikirükətli namaz) və əsr namazından qabaq qılınır;
3. Şam nafiləsi – dörd rükətdir (iki ikirükətli namaz) və şam namazından sonra qılınır;
4. İşa nafiləsi – iki rükətdir və işa namazından sonra (oturan halda) qılınır;[1]

---

[1] İşanın iki rükət nafiləsi oturan halda qılındığına görə bir rükət sayılır və gündəlik nafilələr ümumilikdə otuz dörd rükət olur (vacib namazlardan iki dəfə çox).

5. Sübh nafiləsi – iki rükətdir və sübh namazından öncə qılınır;

6. Gecə nafiləsi – on bir rükətdir və gecənin yarısından sübh azanına qədər qılınır (yaxşı olar ki, gecənin son üçdə birində qılınsın; sübhə nə qədər yaxın qılınsa, fəziləti bir o qədər çoxdur).

**Məsələ 35:** Cümə günü zöhr və əsrin nafiləsi iyirmi rükətdir; yəni zöhr və əsr nafilələrinə ümumilikdə dörd rükət əlavə olunur və yaxşı olar ki, bütün iyirmi rükət zöhr namazının vaxtı girməzdən qabaq qılınsın. Zöhrün vaxtı girəndən günbatana qədər qılınsa da, eybi yoxdur.

**Məsələ 36:** Əgər zöhr və əsrin nafiləsi nafilə vaxtında,[1] amma zöhr və əsr namazlarından sonra qılınsa, vacib ehtiyata əsasən, əda və qəza niyyəti etmədən qılınmalıdır.

**Məsələ 37:** Gecə namazı qılarkən əvvəlcə gecə namazı niyyəti ilə sübh namazı kimi dörd ikirükətli namaz qılınır. Ondan sonra şəf namazı niyyəti ilə ikirükətli, vitr namazı niyyəti ilə də birrükətli bir namaz qılınır. Vitr namazının qünutunda dua kitablarında göstərilmiş ardıcıllıqla Allahdan əfv

---

[1] Zöhr nafiləsinin vaxtı günortanın əvvəlindən başlayaraq kölgə əşyanın yeddidə iki ölçüsünə çatana qədərdir. Misal üçün, əşyanın uzunluğu yeddi qarışdırsa, günortadan etibarən başlayan kölgə iki qarışa çatanda zöhr nafiləsinin vaxtının sonudur. Əsr nafiləsinin vaxtı da günortadan başlayan kölgənin əşyanın yeddidə dördünə çatana qədərdir.

diləmək, möminlər üçün dua etmək və diləklər istəmək müstəhəbdir.

**Məsələ 38:** Gecə namazını vaxtında qılmağa çətinlik çəkən müsafir və gənc, habelə qocalıq və ya xəstəlik kimi üzrü olan adam onu gecənin yarısından qabaq da qıla bilər.

**Məsələ 39:** Nafilə namazlarında surə oxumaq vacib deyil, hər rükətdə Həmd surəsinin oxunması kifayətdir; hərçənd, surə oxumaq da müstəhəbdir.

**Məsələ 40:** (Birrükətli vitr namazını çıxmaq şərtilə) nafilələr iki rükətdir. Onları oturan halda da qılmaq olar, amma ayaq üstə qılmaq daha yaxşıdır. Oturan halda qıldıqda müstəhəbdir ki, hər iki rükət bir rükət hesab olunsun. (İşa nafiləsi) olan vüteyrə namazı isə bu qaydadan istisnadır. Onu ehtiyat olaraq oturan halda qılmaq lazımdır, ayaq üstə yox.

## Qiblə

**Məsələ 41:** İnsan namazı üzü Kəbəyə sarı qılmalıdır. Buna görə ona “qiblə” deyirlər. Kəbədən uzaq olanlar və həqiqi mənada onunla üz-üzə dayanıb namaz qıla bilməyənlər "qibləyə doğru namaz qılır" deyiləcək həddə qılsalar, kifayətdir.

**Məsələ 42:** Müstəhəb namazları yol yeriyə-yeriyə və ya nəqliyyat vasitəsində də qılmaq olar və bu zaman üzü qibləyə sarı dayanmaq lazım deyil.

**Məsələ 43:** Ehtiyat namazı, unudulmuş səcdə və təşəhhüdün qəzası da üzü qibləyə baş tutmalıdır. Səhv səcdəsində də müstəhəb ehtiyat üzü qibləyə olmaqdır.

**Məsələ 44:** Namazqılanın qiblənin istiqamətinə əminliyi və ya xatircəmliyi olmalıdır; istər düzgün və etibarlı qiblənüma vasitəsilə olsun, ya günəşin saçması[1] və ulduzlar vasitəsilə (əgər onlardan istifadə yollarını bilirsə) və ya digər yollardan. Əgər xatircəm ola bilməsə, hansı tərəfə daha çox ehtimal versə, ora doğru qılmalıdır; məsələn, məscidin mehrabının istiqamətindən yaranan ehtimal kimi.

**Məsələ 45:** Qibləni müəyyən etməyə heç bir yolu olmayan və gümanı heç bir səmtə getməyən şəxs, vacib ehtiyata əsasən, dörd tərəfə namaz qılmalıdır. Əgər dörd namaza vaxt olmasa, namazı vaxtın imkan verdiyi qədər təkrarlamalıdır.

**Məsələ 46:** İnsan araşdırdıqdan sonra qibləni səhv müəyyən etsə, əgər qiblədən yayınma qiblənin sağ və ya solundan (təxminən 90 dərəcədən) az olsa,

---

[1] Deyilir ki, 28 may və 16 iyul günlərində Məkkə üfüqü ilə zöhr namazı vaxtında günəş düz Kəbənin üstündən ona saçır. Biz həmin gün hamar yerə şaquli vəziyyətdə düz taxta parçası və ya mil basdırsaq, Məkkə üfüqü ilə günorta azanı zamanı əşyanın kölgəsi hansı istiqamətə gedərsə, ora qiblənin əks tərəfidir (yəni qiblə istiqaməti əşyanın kölgə olmayan tərəfindədir). Əgər bu məsələ qiblənin istiqamətinə dair xatircəmlik yaratsa, ona uyğun əməl etmək olan.

namazı düzgündür. Əgər namaz əsnasında səhvini bilsə, gərək namazın qalanını üzü qibləyə davam etdirsin. Vaxtın geniş olub-olmamasının da fərqi yoxdur.

**Məsələ 47:** Qiblənin istiqamətinə əminliyi olmayan şəxs üzü qibləyə baş tutması vacib olan digər işlərdə, məsələn, heyvan kəsimində öz ehtimalına uyğun əməl etməlidir. Əgər heç bir səmtə ehtimal verməsə və hər tərəf onun üçün eyni olsa, hansı tərəfə üzünü tutsa, doğrudur.

## Namazda örtünmə

**Məsələ 48:** Vacib və onun kimi namazlarda, məsələn, ehtiyat namazında, unudulmuş hissələrin qəzasında və vacib ehtiyata əsasən, səhv səcdələrində bədən örtülməlidir.

**Məsələ 49:** Namazda örtünmə naməhrəm olan yerlərə məxsus deyil; əgər heç kim olmasa da, örtünmə namazın vacib şərtidir.

**Məsələ 50:** Kişi namaz qılarkən, heç kim görməsə belə, cinsi orqanını və anal (arxa) dəliyini örtməlidir. Yaxşı olar ki, göbəkdən dizə qədər örtünsün.

**Məsələ 51:** Qadın namaz qılarkən bütün bədənini və saçını örtməlidir. Lakin üzü dəstəmazda vacib olan həddə, habelə əlləri və topuğa qədər ayaqları örtmək lazım deyil. Əlbəttə, naməhrəm olsa, gərək ayaqların topuğa qədər olan hissəsi də örtülsün.

**Məsələ 52:** Çənə üzün bir hissəsidir, namaz vaxtı qadının onu örtməsi vacib deyil. Lakin çənənin altı üzdən deyil və onu örtmək vacibdir.

**Məsələ 53:** Meyit namazında örtünmə vacib deyil, ehtiyata görə, müstəhəbdir.

**Məsələ 54:** Vacib namazlar kimi müstəhəb namazlarda da örtünmə vacib şərtdir.

**Məsələ 55:** İnsan namaz əsnasında lazımi həddə örtünmədiyini bilsə, ehtiyat odur ki, namazı bitirib yenidən qılsın. Əlbəttə, dərhal örtünsə, namazının düzgünlüyü gözlənilməz deyil. Habelə namazdan sonra vacib həddə örtünmədiyini bilsə, namazı düzgündür.

**Məsələ 56:** Namazqılanın paltarının şərtləri

Namazqılanın paltarı aşağıdakı şərtlərə malik olmalıdır:

**1.** Pak olsun;

**2.** Halal olsun;

**3.** Ölü heyvandan olmasın;

**4.** Əti haram olan heyvandan olmasın;

**5.** Kişinin paltarı qızıldan olmasın;

**6.** Kişinin paltarı xalis ipəkdən olmasın.

**1. Pak olsun**

**Məsələ 57:** Namazqılanın paltarı və bədəni pak olmalıdır.

**Məsələ 58:** Murdar bədən və paltarla qılınan namazın batil olduğunu bilməyən adam bu şəkildə

namaz qılsa, namazı batildir. Qüsurlu cahil[1] olduqda, murdar paltarla qılınan namazın batil olacağına ehtimal belə vermədikdə isə batil deyil.

**Məsələ 59:** İnsan bədəninin və ya paltarının murdar olduğunu bilməsə və namazdan sonra bilsə, namazı düzgündür. Lakin öncədən bilirdisə və yadından çıxarıb onunla namaz qılıbsa, namazı batildir.

**Məsələ 60:** Əgər insan paltarının murdarlanıb-murdarlanmadığına şəkk etsə, onu pak saymalıdır, onunla qılınan namaz da düzgündür. Lakin öncədən murdar olubsa və paklanıb-paklanmadığına şəkk edirsə, onunla namaz qıla bilməz.

**Məsələ 61:** Bədəninin və ya paltarının pak, yoxsa murdar olduğunu bilməyən şəxs namaz qılsa, namazdan sonra murdar olduğunu bilsə, namazı düzgündür.

**Məsələ 62:** Əgər namaz əsnasında bədəninin və ya paltarının murdar olduğunu və murdarlığın əvvəldən olduğunu bilsə, vaxtı geniş olduğu təqdirdə namazı batildir, paklayandan sonra namazını qılmalıdır. Əgər vaxt dar olsa, bədənini və ya paltarını suya çəkməsi, paltarını dəyişdirməsi və ya çıxarması namaz halını pozmursa, namaz əsnasında belə etməli və namazını davam

---

[1] Ya ümumiyyətlə, bilmədiyini bilmir, ya da bilirsə də, öyrənmək üçün heç bir yolu yoxdur.

etdirməlidir. Əgər bu işləri görərkən namaz halı pozulacaqsa, gərək həmin vəziyyətdə namazı davam etdirsin və namazı düzgündür.

**Məsələ 63:** İnsan murdar paltarını suya çəkib pak olduğuna əmin olsa, onunla namaz qılsa və namazdan sonra paklanmadığını bilsə, namazı düzgündür, amma sonrakı namazlar üçün paltarı paklamalıdır.

## Namazqılanın bədəninin və ya paltarının pak olması gərəkməyən yerlər

**Məsələ 64:** Dörd halda namazqılanın bədəni və ya paltarı murdar olsa, namaz düzgündür:

***1. Yara, zədə və çiban qanı***

**Məsələ 65:** Namazqılanın bədənində və ya paltarında yara, zədə və ya çiban qanı olsa, onu suya çəkmək və ya paltarı dəyişdirmək əksər adamlara, yaxud onun özünə çox çətin və məşəqqətli olsa, yara, zədə və ya çiban sağalana qədər o qanla namaz qıla bilər. Qanla gələn çirkin, yaranın üstünə qoyularaq murdarlanan dərmanın hökmü də belədir.

**Məsələ 66:** Bu hökm tezliklə sağalan və yuyulması asan olan kəsik və yaraların qanına aid deyil və bunlarla qılınan namaz batildir.

**Məsələ 67:** Əgər bədənin və ya paltarın adətən yaranın rütubətinə bulaşan miqdarı bu rütubətlə murdar olsa, onunla namaz qılmağın eybi yoxdur. Lakin bədənin və ya paltarın yaradan aralı yeri yaranın rütubəti ilə murdarlansa və onunla namaz qılınsa, batildir.

**Məsələ 68:** Əgər bədəndə bir neçə yara bir-birinə elə yaxın olsa ki, bir yara sayılsa, hamısı sağalmayınca onların qanı ilə namaz qılmağın eybi yoxdur. Lakin bir-birindən o qədər uzaq olsalar ki, hərəsi bir yara sayılsa, hansı yaxşılaşsa, bədənin və ya paltarın həmin hissəsi namaz qılmaq üçün paklanmalıdır.

**Məsələ 69:** İnsan bədənində və ya paltarında olan qanın namaza xələl gətirməyən qan, məsələn, yara, zədə və ya çiban qanı olduğuna əmin olsa, ancaq namazdan sonra namazı batil edən qan olduğunu anlasa, namazı düzgündür.

### *2. İşarə barmağının bir bəndindən az olan qan*

**Məsələ 70:** Əgər namazqılanın bədəni və ya paltarı birinci şərtdə deyiləndən başqa bir qana[1] bulaşmış olsa və o, işarə barmağının bir bəndindən az olsa, (deyiləcək şərtlərlə) onunla namaz qılmağın eybi yoxdur. Lakin işarə barmağının bir bəndi qədər

---

[1] Yəni paklamağı məşəqqətli olan yara, zədə və çiban yarasından başqa bir qan.

və ya ondan çox olsa, onunla namaz qılmaq problemlidir (işkallıdır).

**Məsələ 71:** İşarə barmağının bir bəndindən az qanla namaz qılmağın bir neçə şərti var:

**1.** Heyz qanı olmasın; əgər namazqılanın bədənində və ya paltarında azacıq heyz qanı da olsa, namaz batildir. Vacib ehtiyata əsasən, nifas və istihazə qanları da belədir.

**2.** Özü (növ olaraq) murdar olan heyvanın (it və donuzun), habelə əti haram olan və ya ölmüş heyvanın və kafir insanın qanı olmasın;

**3.** O qana kənardan rütubət toxunmasın; toxunsa da qanla qarışıb onda itəcək həddə olsun və onlar birlikdə icazə verilmiş miqdardan çox olmasınlar. Bu zaman onunla namaz qılmaq olar. Əks təqdirdə, vacib ehtiyata əsasən, onunla qılınan namaz düzgün deyil.

**Məsələ 72:** Əgər bədənə və ya paltara qan dəyməsə, amma qana toxunduğuna görə murdarlanmış (mütənəccis) olsa; məsələn, namazqılanın yaş əli və ya paltarı qurumuş qana toxunub murdarlanmış olsa, qanın özü ələ və ya paltara keçməsə, bu zaman murdar olmuş hissə bir barmaq bəndindən az olsa da, onunla namaz qılmaq olmaz.

**Məsələ 73:** Bədəndən və ya paltardan qanın özü təmizlənsə, amma yeri paklanmasa, əgər icazə

verilmiş miqdardan çox olmasa, onunla namaz qıla bilər.

**Məsələ 74:** Qan paltara tökülüb astarına keçsə, ya da astarına tökülüb paltarın üstünə çıxsa, paltar və astar üzərindəki ümumi qanın miqdarı bir barmaq bəndindən az olsa, onunla namaz qılmaq olar; çox olsa, namaz batildir.

### *3. Kiçik paltarların murdarlanmış olması*

**Məsələ 75:** Əgər namazqılanın corab, əlcək və araqçın kimi cinsi orqanı örtə bilməyən kiçik paltarları, habelə üzüyü, bilərziyi və bu kimi əşyaları murdara toxunub murdar olsa, onlarla qılınan namaz düzgündür.

**Məsələ 76:** Namazda insanın üstündə murdar dəsmal, açar və bıçaq kimi əşyalar olsa, namaz düzgündür.

### *4. Çarəsizlikdən murdar paltar geymək*

**Məsələ 77:** Əgər insan soyuğa, suyun olmamasına və bu kimi məsələlərə görə, çarəsiz qalıb murdar bədən və ya paltarla namaz qılsa, namazı düzgündür.

### 2. Halal olsun

**Məsələ 78:** Namazqılanın paltarı halal olmalı, yəni qəsb edilmiş olmamalıdır.

**Məsələ 79:** İnsan qəsb edilmiş paltarı geyməyin haram olduğunu bilməsə, namazı düzgündür; əgər bilsə, amma namazı batil etdiyini bilməsə və qəsdən belə paltarla namaz qılsa, həmin namazı qəsb edilməmiş paltarla yenidən qılmalıdır.

**Məsələ 80:** İnsan paltarının qəsb edildiyini bilməyib və ya unudub onunla namaz qılsa, namazı düzgündür.

**Məsələ 81:** Əgər sapı, düyməsi və ya başqa bir şeyi qəsb edilmiş bir paltarla qəsdən namaz qılsa, namazı batildir.

### 3. Ölmüş heyvandan olmasın

**Məsələ 82:** Namazqılanın paltarı atıcı qanı olan və vacib ehtiyata əsasən, hətta atıcı qanı olmayan ölmüş heyvan (leş) hissələrindən olmamalıdır.

**Məsələ 83:** Namazqılanın üstündə ölmüş heyvanın bədən üzvlərindən bir şey olsa, vacib ehtiyata əsasən, namazı batildir. Lakin əti halal olan heyvanın tük, yun, buynuz və sümük kimi ruhsuz bədən üzvləri olsa, namazı batil deyil.

**Məsələ 84:** Qeyri-müsəlman ölkələrindən gətirilən və təzkiyəsi[1] şübhəli olan halal ətli heyvanın dərisi

---

[1] Təzkiyə İslamda heyvanların ətini pak və ya halal etmək üçün müəyyən edilmiş şərtlərə deyilir. Əti halal heyvanın təzkiyəsi onun bədən üzvlərini paklamaqdan və ətinin yeyilməsini halal etməkdən, əti haram olan heyvanda isə bədən üzvlərini

paklıq baxımından ölü heyvan hökmündə deyil, pakdır, amma onunla namaz qılmaq olmaz. Əlbəttə, insanın hökmü bilmədiyinə görə öncədən belə paltarla qıldığı namazlar düzgündür. Əgər o dərini idxal edən müsəlmandırsa və onun təzkiyəsi ilə bağlı araşdırma apardığı ehtimal olunursa, onunla namaz qılmağın eybi yoxdur.

**4. Əti haram olan heyvandan olmasın**

**Məsələ 85:** Namazqılanın paltarı əti haram olan heyvanın bədən üzvlərindən olmamalıdır. Namazqılanın paltarında və ya bədənində belə heyvanın bir tükü də olsa, namazı batildir.

**Məsələ 86:** Əgər namazqılanın bədənində və ya paltarında pişik kimi əti haram olan bir heyvanın ağız və burnunun suyu kimi pak rütubəti olsa, namaz batildir; həmin rütubət quruyub yox olandan sonra isə qılmaq olar. Həmçinin, namazqılanın bədənində və ya paltarında əti haram olan quşların ifrazatı olsa, namaz batildir. Lakin quruduqdan sonra paltardan və ya bədəndən itsə, namaz qılmaq olar.

---

paklamaqdan ibarətdir. Təzkiyə növləri bunlardır: dəvəni nəhr eləmək, dəvədən başqa heyvanları zibh eləmək və vəhşi heyvanları ovlamaq.

**Məsələ 87:** Namazqılanın paltarında və ya bədənində insan tükü, təri, ağız suyu, habelə mum, bal, mirvari və sədəf olsa, namazın eybi yoxdur.

**Məsələ 88:** Əti halal, yoxsa haram heyvanın bədən üzvlərindən olduğuna şəkk edilən paltarla qılınan namaz düzgündür.

**5. Kişinin paltarı qızıldan olmasın**

**Məsələ 89:** Kişilərə qızıldan toxunmuş və ya qızıl işlənmiş paltar geymək haramdır, onunla qıldığı namaz da batildir. Lakin qadınlar üçün hər halda (namazda və digər hallarda) eybi yoxdur.

**Məsələ 90:** Kişilərə, hətta (nişan anı kimi) qısa müddətə olsa da, qızıl üzük və boyunbağı, habelə qızıl qol saatı taxmaq haramdır; hərçənd, zinət niyyəti ilə olmasa və digərlərindən gizlədilsə də. Vacib ehtiyata əsasən, onunla qılınan namaz da batildir.

**Məsələ 91:** Sümük əməliyyatında və ya diş düzəltmədə kişilərin qızıldan istifadə etməsinin eybi yoxdur və namazı batil etmir.

**Məsələ 92:** Ağ qızıl adlanan metal sarı qızıl olub sintez nəticəsində ağardılmış olsa, sarı qızıl hökmündədir. Lakin onda qızıl elementi çox az olsa və el arasında ona qızıl deməsələr, kişinin istifadə etməsinin eybi yoxdur. Habelə platindən istifadənin də eybi yoxdur.

**Məsələ 93:** Kişi üzüyünün və ya paltarının qızıldan olduğunu bilməyib və ya unudub namaz qılsa, namazı düzgündür.

**6. Kişinin paltarı xalis ipəkdən olmasın**

**Məsələ 94:** Kişi namazqılanın paltarı (hətta araqçın, corab və bu kimi cinsi orqanı örtməyən geyimləri də) xalis ipəkdən olsa, onunla qılınan namaz batildir. Namazdan digər vaxtlarda da onu geymək kişiyə haramdır. Lakin namazqılanın üstündə, məsələn, cibində ipək dəsmal və bu kimi şeylər olsa, eybi yoxdur və namazı batil etmir.

**Məsələ 95:** Paltarın astarı, hətta onun bir hissəsi də xalis ipəkdən olsa, kişinin geyməsi haram və onunla qılınan namaz batildir.

**Məsələ 96:** Xalis ipəkdən və ya başqa bir şeydən olduğu bilinməyən bir paltarı geyməyin eybi yoxdur və onunla qılınan namaz düzgündür.

**Məsələ 97:** Namazda və digər hallarda qadının ipək paltar geyməsinin eybi yoxdur.

# Namazqılanın paltarının müstəhəb və məkruh halları

**Məsələ 98:** Namazqılanın paltarına dair bəzi müstəhəb hallar aşağıdakılardan ibarətdir:

Paltar ağ olsun, ən təmiz paltar olsun, pambıq və ya kətandan olsun, xoş ətir istifadə olunsun və əqiq üzük taxılsın.

**Məsələ 99:** Namazqılanın paltarına dair bəzi məkruh hallar aşağıdakılardan ibarətdir:

Qara, çirkli və dar paltar geymək, şərab içən və ya murdardan çəkinməyən adamın paltarını geymək, alt paltar olsa belə, üz şəkli olan paltar geymək, paltarın düymələrinin açıq olması və üz şəkli olan üzük taxmaq.

# Namaz qılınan yerin şərtləri

Namazı müəyyən şərtlərə malik bir yerdə qılmaq olar. O şərtlər aşağıdakılardan ibarətdir:

**1. Halal olsun**

**Məsələ 100:** Namazın qılındığı yer qəsb edilmiş olmamalıdır.

**Məsələ 101:** Qəsb edilmiş döşənəcək və ya taxt üzərində qılınan namaz, torpağı halal olsa belə, batildir. Habelə halal döşənəcəyi qəsb edilmiş bir

yerə sərsələr, onun üzərində qılınan namaz da batildir.

**Məsələ 102:** İnsan qəsb edildiyini bilmədiyi və ya unutduğu bir yerdə namaz qılsa, namazı düzgündür.

**Məsələ 103:** İnsan yerin qəsb edildiyini bilsə, amma qəsb edilmiş yerdə qılınan namazın batil olduğunu bilməsə, orada qıldığı namaz batildir.

**Məsələ 104:** İnsan bir mülkdə başqasıyla şərik olsa və hər birinin hissəsi o birinkindən ayrı olmasa, şərikinin razılığı olmadan o mülkdə namaz qıla bilməz.

**Məsələ 105:** Mənafeyi başqasına aid olan bir mülkdə onun icazəsi olmadan qılınan namaz batildir; məsələn, evin sahibi və ya başqa bir şəxs kirayəyə verilmiş evdə kirayəçinin icazəsi olmadan namaz qılsa, namazı batildir.

### 2. Hərəkətsiz olsun

**Məsələ 106:** Namaz qılınan yer hərəkətsiz olmalı, yəni namazqılan tərpənmədən, sabit halda namaz qıla bilməlidir. Bu baxımdan, bədənin ixtiyarsız olaraq tərpəndiyi yerlərdə, məsələn, hərəkət halında olan avtomobildə, qatarda, yaxud bəzi yaylı çarpayılarda qılınan namaz düzgün deyil. Lakin insan vaxt azlığı və digər bu kimi səbəblərdən belə yerdə namaz qılmağa məcbur olsa, eybi yoxdur.

**Məsələ 107:** Ümumi nəqliyyat vasitələrində səfərə çıxan yolçuların, namazın qəzaya getmə qorxusu

olarsa, sürücüdən dayanmasını istəmələri, sürücünün də bu istəyə əməl etməsi vacibdir. Əgər hər hansı səbəbdən dayanmasa, yolçular namazlarını hərəkət halında qılmalı, qibləyə, qiyama, rüku və səcdəyə imkan daxilində əməl etməlidirlər.

**3. Dayanmaq haram olmasın**

**Məsələ 108:** Namaz qılınan yer dayanması haram sayılan yerlərdən olmamalıdır; misal üçün, insanın həyatının ciddi təhlükə altında olduğu, həmçinin üzərində dayanmaq və ya oturmaq haram olan yerdə - məsələn, səccadəyə və ya xalçaya Allahın adı və ya Quran ayələri elə yazılıb ki, üzərində dayanmaq hörmətsizlik sayılırsa - olmaz.

**4. Peyğəmbərin (s) və imamın (ə) qəbrindən öndə olmasın**

**Məsələ 109:** İnsan namaz qılarkən Peyğəmbərin (s) və ya imamın (ə) qəbrindən öndə dayanmamalıdır. Qəbirlə bərabər dayanmağın isə eybi yoxdur.

**Məsələ 110:** Əgər namazqılanla müqəddəs məzar arasında divar kimi bir maneə olsa və qəbirdən öndə dayanmaq hörmətsizlik sayılmasa, orada namaz qılmağın eybi yoxdur. Lakin şərafətli məzar üzərindəki qutu, zərih və ya üstünə sərilən parça maneə olaraq kifayət etmir.

**5. Səcdə yeri pak olsun**

**Məsələ 111:** Namazqılanın səcdə yeri pak olmalıdır. Əgər alın qoyulan yerdən başqa, namazın qılındığı digər yerlər murdar olsa və onun murdarlığı bədənə və ya paltara keçməsə, eybi yoxdur və namaz düzgündür.

**6. Qadınla kişi arasında məsafə olsun**

**Məsələ 112:** Vacib ehtiyata əsasən, (Məscidül-həramdan başqa) yerlərdə namaz qılarkən qadınla kişi arasında ən azı bir qarış məsafə olmalıdır. Bu olduqda, qadınla kişi bərabər dayansalar, yaxud qadın kişidən öndə dayansa da, hər ikisinin namazı düzgündür, məhrəm və ya naməhrəm olmalarının da fərqi yoxdur.

**7. Yer düz olsun**

**Məsələ 113:** Namazqılanın alnını qoyduğu yerin dizlərinin və ayaq barmaqlarının yerindən dörd bağlı barmaqdan artıq hündür və ya alçaq olmaması lazımdır.

# Namaz qılınması müstəhəb olan yerlər

**Məsələ 114:** Namaz qılınması müstəhəb olan yerlər aşağıdakılardan ibarətdir:

**1.** Məscid (ən fəzilətli məscid Məscidül-həram, ondan sonra Peyğəmbər (s) məscidi, sonra Kufə məscidi, Əqsa məscidi və sonra hər bir şəhərin came məscididir);

**2.** İmamların (ə) məqbərəsi (şərafətli məqbərələrdə namaz qılmaq məscidlərdən də fəzilətlidir);

**3.** Peyğəmbərlərin (ə) müqəddəs məqbərələri, övliyaların, salehlərin və din alimlərinin məqamları.

# Məscid hökmləri

**Məsələ 115:** Məscidin yerini, tavanını, divarını və damını murdarlamaq haramdır; murdar olsa, onu cəld paklamaq vacibdir.

**Məsələ 116:** Məscidi paklamaq kifayi vacibdir,[1] məscidi murdarlamış və ya murdar olmasına səbəb

---

[1] Eyni vacibdən fərqli olaraq, kifayi vacib əvvəldə hamıya vacib olur, ancaq biri və ya biriləri tərəfindən əməl olunduqda digərlərinin üzərindən götürülür. Lakin heç kim onu yerinə yetirməsə, hamı günahkardır; məsələn, məscidi paklamaq, ölüyə qüsl vermək, onu dəfn etmək. Eyni vacibi isə hamı yerinə yetirməlidir; məsələn, gündəlik namazları qılmaq, xums və zəkat vermək.

olmuş şəxsə məxsus deyil, paklaya bilən hər kəsə vacibdir.

**Məsələ 117:** İmamların (ə) məqbərəsini murdarlamaq haramdır, murdarlandıqda isə, murdar qalması hörmətsizlik sayılsa, paklamaq vacibdir; hörmətsizlik sayılmasa, paklamaq gözəl əməldir.

**Məsələ 118:** Məscidi qızılla bəzəmək israf hesab olunsa, haram, olunmasa, məkruhdur.

**Məsələ 119:** Məscidin hörmətini saxlamaq, məqam və mövqeyinə zidd işlərdən çəkinmək vacibdir.

**Məsələ 120:** Məscidin məqamı ilə ziddiyyət təşkil etməsə, camaat namazına və namazqılanlara maneçilik yaratmasa, məsciddə dərslər təşkil etməyin eybi yoxdur.

**Məsələ 121:** Məscidi və ya onun bir hissəsini uçurmaq olmaz. Yalnız əhəmiyyətsiz və diqqətsiz yanaşmağın mümkün olmadığı bir məsləhətə görə bunu etmək olar.

**Məsələ 122:** Qəsb edilmiş və ya uçurulmuş, yerində başqa bir bina tikilmiş, yaxud tərk edildiyinə görə məscid əlamətləri məhv olmuş, yenidən bərpasına da ümid olmayan məscidi murdarlamağın haram olması məlum deyil; hərçənd, müstəhəb ehtiyat odur ki, onu murdarlamasınlar.

**Məsələ 123:** Əgər bir məscid şəhərin memarlığı ilə bağlı bir prospektə düşübsə, bir hissəsi çarəsizlikdən

uçurulubsa və yenidən əvvəlki halına qaytarılması ehtimal edilmirsə, şəriət baxımından məscid hökmündə deyil.

**Məsələ 124:** Məscidin şəbistanının bir hissəsində muzey, kitabxana və ya bu kimi bir şey yaratmaq, şəbistanın vəqf niyyətinə zidd olsa və ya məscidin tikilisinin dəyişməsinə səbəb olsa, icazəli deyil.

**Məsələ 125:** Əgər hərəkətli və qeyri-sabit bir yer, məsələn, bir nəqliyyat vasitəsi məscid olaraq vəqf olunsa, vacib ehtiyata əsasən, şəriət baxımından məscid hökmləri ona şamil olur.

**Məsələ 126:** Məscidi təmizləmək, abadlaşdırmaq müstəhəbdir. Müstəhəbdir ki, məscidə gedən adam özünə ətir vursun, təmiz və gözəl geyinsin, ayağının və ayaqqabısının murdara və ya çirkaba bulaşmamasına çalışsın; məscidə hamıdan tez girib, digərlərindən sonra oradan çıxsın; məscidə girəndə və çıxanda dili zikr desin, ürəyində Allaha təzim olsun; məscidə girəndən sonra məscidə salam (təhiyyət) niyyəti ilə iki rükət namaz qılsın; əlbəttə, əgər başqa bir vacib və ya müstəhəb namaz da qılsa, kifayət edir.

**Məsələ 127:** Məsciddə yatmaq məkruhdur.

**Məsələ 128:** Təkyə və hüseyniyyələr məscid hökmündə deyil.

# Azan və iqamə

**Məsələ 129:** Müstəhəbdir ki, gündəlik vacib namazlardan qabaq azan və iqamə deyilsin. Bu, xüsusən sübh və şam namazları, özəlliklə, camaat namazı barədə təkidlə tövsiyə olunmuşdur. Ayat namazı kimi digər vacib namazlarda isə azan və iqamə yoxdur.

**Məsələ 130:** Azan aşağıdakı on səkkiz cümlədən ibarətdir, aşağıdakı ardıcıllıqla deyilir:

"Allahu əkbər" - dörd dəfə

"Əşhədu əlla ilahə illəllah" - iki dəfə

"Əşhədu ənnə Muhəmmmədər-rəsulullah" - iki dəfə

"Həyyə \`ələs-səlah" - iki dəfə

"Həyyə \`ələl-fəlah" - iki dəfə

"Həyyə \`əla xəyril-\`əməl" - iki dəfə

"Allahu əkbər" - iki dəfə

"La ilahə illəllah" - iki dəfə

İqamə də azan kimidir, bu fərqlə ki, əvvəlində "Allahu əkbər" iki dəfə deyilir, "Həyyə əla xəyril-əməl"dən sonra da iki dəfə "Qəd qamətis-səlah" deyilir və axırında bir "La ilahə illəllah" var.

**Məsələ 131:** "Əşhədu ənnə \`Əliyyən vəliyyullah" demək şiəlik şüarı olaraq, yaxşı və önəmlidir, amma azan və iqamənin tərkib hissəsi deyil, ümumi qürbət qəsdi ilə deyilməlidir.

**Məsələ 132:** (Namaz vaxtının çatdığını bildirən) elan azanı və onun eşidənlər tərəfindən təkrar olunması təkidlə tövsiyə olunmuş müstəhəb əməllərdəndir.

**Məsələ 133:** Namaz vaxtının daxil olduğunu bildirmək üçün məscidlərin və digər yerlərin səsucaldanından normal şəkildə azan səsinin yayılmasının eybi yoxdur. Lakin Quran, dua və digər bu kimi səslərin yayılması, qonşuların narahatlığına səbəb olsa, icazəli deyil.

**Məsələ 134:** Camaat namazı üçün azan və iqamə deyilibsə, o camaatla namaz qılan şəxs öz namazından ötrü azan və iqamə deməməlidir.

**Məsələ 135:** Müstəhəbdir ki, insan azan deyəndə üzü qibləyə dayansın, dəstəmazlı və ya qüsl vermiş olsun, əllərini qulaqlarının yanına aparıb səsini ucaltsın və uzatsın, cümlələr arasında bir qədər dayansın və onların arasında danışmasın.

**Məsələ 136:** Müstəhəbdir ki, iqamə deyərkən insanın bədəni sabit olsun, onu azana nisbətən astadan desin, cümlələri bir-birinə yapışdırmasın, lakin azan cümlələri arasındakı qədər fasilə də verməsin.

**Məsələ 137:** Müstəhəbdir ki, insan azanla iqamə arasında bir qədər otursun, yaxud səcdə etsin, yaxud zikr desin, yaxud bir qədər sakit qalsın, yaxud bir söz desin və ya iki rükət namaz qılsın.

# Namazın vacib əməlləri

**Məsələ 138:** Namazın vacib əməlləri on birdir:

**1.** Niyyət; **2.** Qiyam; **3.** Ehram təkbiri; **4.** Qiraət; **5.** Rüku; **6.** Səcdə; **7.** Zikr; **8.** Təşəhhüd; **9.** Salam; 1**0.** Ardıcıllıq; **11.** Fasiləsizlik.

Bu vaciblər və onların hökmləri barədə geniş məlumatlar sonrakı məsələlərdə bəyan olunacaq.

**Məsələ 139:** Namazın bəzi vacibləri rükn sayılır; yəni namazda baş tutmasa, yaxud vacib qədərindən artıq yerinə yetirilsə, hətta səhvən və unutqanlıqdan olsa belə, namaz batil olur. Bəzi vaciblər isə rükn deyil; yəni qəsdən azaldılıb-artırılsa, namaz batil olar, səhvən az və ya çox yerinə yetirilməsi isə namazı batil etməz.

**Məsələ 140:** Namazın rüknləri bunlardır:

**1.** Niyyət; **2.** Ehram təkbiri; **3.** Ehram təkbirini deyərkən, habelə rükudan öncə (rükuya bitişik) qiyam; **4.** Rüku; **5.** İki səcdə.

**1. Niyyət**

**Məsələ 141:** (Rükn sayılan vaciblərdən olan) niyyət - namazı Allahın əmrini yerinə yetirmək üçün qılmaq qəsdidir.

**Məsələ 142:** İnsanın niyyəti dili ilə söyləməsi, məsələn, "dörd rükət zöhr namazı qılıram, qürbətən iləllah" deməsi lazım deyil. Onu beynindən və ya

ürəyindən keçirmək də lazım deyil, əməli İlahi əmrə tabe olmaqdan ötrü yerinə yetirməsi kifayətdir.

**Məsələ 143:** Namazqılan hansı namazı qıldığını bilməlidir. Bu baxımdan, dörd rükət namaz niyyəti etsə, amma zöhr və ya əsr namazını qıldığını müəyyən etməsə, namazı batildir.

**Məsələ 144:** İnsan namazı yalnız kainatın Rəbbinin əmrinə itaət qəsdi ilə qılmalıdır. Bu baxımdan, namazı riya üçün, yəni özünü dindar göstərmək və bu kimi digər məqsədlərlə yerinə yetirsə, haramdır və namazı batil edər.

**Məsələ 145:** Əgər namazın bəzi hissələrində riya olsa, vacib ehtiyata əsasən, namazı yenidən qılmalıdır.

**Məsələ 146:** İnsan riyaya qarşı mübarizə üçün namazın müstəhəb bir hissəsini yerinə yetirməsə, onun bu işi riya sayılmır və namazı düzgündür.

**Məsələ 147:** Namaz əsnasında niyyəti başqa bir namaza dəyişmək olmaz. Bu, yalnız bəzisi vacib, bəzisi icazəli olan xüsusi hallarda mümkündür.[1]

**Məsələ 148:** Niyyəti bir namazdan digər namaza dəyişməyin vacib olduğu yerlər bunlardır:

**1.** Əsr namazından zöhr namazına; əsr namazının xüsusi vaxtından qabaq, əsr namazı əsnasında zöhr namazını qılmadığını bildikdə.

---

[1] Namazda niyyəti dəyişməyin icazəli olduğu yerlər geniş fiqh kitablarında bəyan olunmuşdur.

**2.** İşa namazından şam namazına; işanın xüsusi vaxtından qabaq, işa namazı əsnasında, dördüncü rükətin rükusundan öncə şam namazını qılmadığını bildikdə.

**3.** Aralarında ardıcıllığın lazım olduğu bir qəza namazından o biri qəza namazına; məsələn, bir günün zöhr və əsr namazlarının qəzası zamanı unutqanlıq üzündən birinci namazın qəzasından qabaq ikinci namazın qəzasını qılmağa başladıqda.

**2. Qiyam**

**Məsələ 149:** Ehram təkbiri zamanı, habelə rükuya getməzdən öncə ayaq üstə dayanmaq rükndür; yəni səhvən və ya unutqanlıqdan da tərk olunsa, namaz batil olar.

**Məsələ 150:** Qiraət və təsbihat zamanı, həmçinin rükudan sonrakı qiyam rükn sayılmayan vacib əməldir; yəni qəsdən tərk olunsa, namaz batil olar, səhvən tərk olunduqda isə batil olmaz.

**Məsələ 151:** Namazı ayaq üstə qıla bilən, üzrü olmayan adam namaz başlayandan rükuya gedənə qədər ayaq üstə düz dayanmalıdır. Həmçinin rükudan sonra və səcdəyə getməzdən qabaq da belə dayanması vacibdir.

**Məsələ 152:** İnsan Həmd və surədən sonra rükunu yaddan çıxarıb yerə otursa və bu zaman rüku etmədiyini xatırlasa, qalxıb düz ayaq üstə dayanmalı və oradan rükuya getməlidir. Əgər tam

ayağa qalxmadan, elə oturduğu yerdən rükuya qayıtsa, namazı batildir.

**Məsələ 153:** Namazqılan qiyam halında bədənini tərpətməməli, aşkar şəkildə hər hansı tərəfə əyilməməli, heç bir yerə söykənməməlidir. Çarəsizlikdən, səhvən və ya unutqanlıqdan olduqda isə, eybi yoxdur.

**Məsələ 154:** Həmd və surə qiraəti və ya üçüncü və dördüncü rükətlərdə təsbihat zamanı namazqılanın bədəni sabit olmalıdır. Əgər bir qədər irəli və ya geri getmək istəsə, yaxud bədəni azca sağa və ya sola tərpətsə, hərəkət zamanı zikri dayandırmalıdır.

**Məsələ 155:** Qiyam zamanı bədəni düz saxlamaq, çiyinləri aşağı salmaq, əlləri budların üstünə qoymaq, barmaqları bir-birinə yapışdırmaq, səcdə yerinə baxmaq, bədənin ağırlığını hər iki ayağa bərabər şəkildə salmaq, təzim halında olmaq, ayaqları irəli-geri qoymamaq müstəhəbdir.

**Məsələ 156:** Ayaq üstə dayana bilməyən şəxs namazı oturduğu yerdə qılmalıdır. Lakin bir şeyə söykənib ayaq üstə dayana bilirsə, vəzifəsi ayaq üstə qılmaqdır.

**Məsələ 157:** Oturduğu halda namaz qılan şəxs zəhmət və məşəqqətsiz mümkün olduğu qədər ayaq üstə namaz qılmalıdır. Bu baxımdan, bütün namazda deyil, onun bəzi rükətlərində, bəzi hissələrində ayaq üstə dayana bilən şəxs vacibdir ki, bacardığı qədər

ayaq üstə qılsın, dayana bilmədikdə oturan halda qılsın, yenə qalxa bildikdə ayaq üstə davam etdirsin.

**Məsələ 158:** Ayaq üstə dayana bilməyən şəxs ehram təkbirini demək qədərincə dayana bilsə, onu ayaq üstə deməli, namazın qalanını oturduğu halda davam etdirməlidir; həmçinin, Həmd və surə oxuyandan sonra ayağa qalxa bilsə, qalxıb oradan rükuya getməlidir.

**Məsələ 159:** Ayaq üstə namaz qıla bilən şəxs ayaq üstə qaldığına görə xəstələnəcəyindən və ya başqa bir zərərin toxunacağından qorxsa, oturduğu halda qıla bilər; əgər oturduğu halda da həmin qorxu olsa, uzandığı yerdə qıla bilər.

**Məsələ 160:** Oturduğu halda namaz qılmağı bacarmayan şəxs uzandığı yerdə qılmalıdır. Vacib ehtiyata əsasən, əgər sağ tərəfi üstə uzana bilirsə, elə uzanmalı, üzü və bədəni qibləyə doğru olmalıdır. Bu, mümkün olmasa, həmin formada sol tərəfi üstə üzü qibləyə uzanmalıdır. Əgər bu da mümkün olmasa, arxası üstə uzanmalı, ayaqlarının altı qibləyə doğru olmalıdır.

**Məsələ 161:** Uzandığı yerdə namaz qılan şəxs namaz əsnasında məşəqqətsiz və zərərsiz otura və ya ayaq üstə dura bilirsə, namazın bacardığı qədərini elə qılmalıdır.

**Məsələ 162:** Hər hansı üzrə görə ayaq üstə dayana bilməyən, amma namazın axır vaxtlarında namazını ayaq üstə qıla biləcəyini ehtimal edən şəxs, vacib

ehtiyata əsasən, o vaxta qədər gözləməlidir. Lakin ilk vaxtda üzrünə görə namazı oturduğu yerdə qılsa və vaxtın sonuna qədər üzrü aradan qalxmasa, qıldığı namazı düzgündür və yeniləmək lazım deyil.

**Məsələ 163:** İnsanın namazı ilk vaxtında ayaq üstə qılmağa imkanı olmasa və vaxtın sonlarına qədər də olmayacağına əmin olsa, namazı ilk vaxtda oturduğu yerdə qıla bilər. Lakin vaxt bitməzdən öncə ayaq üstə qıla bilsə, gərək ayaq üstə yenidən qılsın.

**3. Ehram təkbiri**

**Məsələ 164:** Namazda ehram təkbiri demək vacibdir. Bu, namazın əvvəlində "Allahu əkbər" deməkdən ibarətdir.

**Məsələ 165:** Namazın əvvəlində ehram təkbirini deməmək, qəsdən və ya səhvən olmasından asılı olmayaraq, namazı batil edər. Həmçinin, namazın əvvəlində onu düzgün şəkildə deyəndən sonra (fasiləsizliyi pozmayacaq həddə) fasilə ilə və ya fasiləsiz olaraq növbəti dəfə həmin niyyətlə "Allahu əkbər" desə, namaz batildir. Bu təkrarın da qəsdən və ya səhvən olmasının fərqi yoxdur.

**Məsələ 166:** Ehram təkbirini elə demək lazımdır ki, tələffüz sayılsın. Bunun tərzi odur ki, insanın qulağı ağır eşitməsə və səs-küy olmasa, onu eşidə bilsin.

**Məsələ 167:** Ehram təkbirini ərəbcə düzgün söyləmək lazımdır. Onun farsca tərcüməsini və ya

ərəbcə yanlış formada desə, (məsələn, "Allah" sözündəki “h” hərfi tələffüz olunmasa) düzgün deyil.

**Məsələ 168:** Ehram təkbirini deyən zaman bədən sabit və hərəkətsiz olmalıdır. Bu baxımdan, ehram təkbirini bilərəkdən və ixtiyari şəkildə bədənin hərəkət halında desə, namazı batildir.

**Məsələ 169:** Ehram təkbirinin düzgün tələffüz formasını bilməyən şəxsin onu öyrənməsi vacibdir.

**Məsələ 170:** İnsan ehram təkbirini deyib-deməməkdə şəkk etsə, əgər qiraət və zikrlərə başlamayıbsa, təkbiri deməlidir. Lakin Həmd surəsini oxuyarkən, yaxud hətta "ə`uzu billahi minəş-şəytanir-rəcim" deyərkən şəkk etsə, şəkkinə etina etməməli və namazını davam etdirməlidir.

**Məsələ 171:** Ehram təkbirini deyəndən sonra onu düzgün deyib-demədiyinə dair şəkk edən şəxs öz şəkkinə etina etməməlidir.

### 4. Qiraət

**Məsələ 172:** Gündəlik vacib namazların birinci və ikinci rükətlərində əvvəlcə Həmd surəsi, ondan sonra da, vacib ehtiyata əsasən, tam bir surə oxunmalıdır.

**Məsələ 173:** Qiraət rükn olmayan vacib əməldir; yəni onu qəsdən tərk etmək namazı batil edər, amma diqqətsizlikdən və ya səhvən olsa, namaz batil olmaz.

**Məsələ 174:** Namazın vaxtı az olsa, surə oxunmamalıdır.

**Məsələ 175:** Əgər səhvən surəni Həmddən qabaq oxusa və rükuya getməzdən qabaq yadına düşsə, gərək Həmddən sonra yenə bir surə oxusun. Əgər surəni oxuduğu yerdə bilsə, surəni saxlasın və Həmddən sonra əvvəldən oxusun.

**Məsələ 176:** Əgər Həmdlə surəni, yaxud onlardan birini yaddan çıxarsa və rükuya gedəndən sonra yadına düşsə, namazı düzgündür.

**Məsələ 177:** Əgər rükuya getməzdən qabaq Həmd və surəni, yaxud yalnız surəni oxumadığını bilsə, onu oxumalı, sonra rükuya getməlidir. Əgər yalnız Həmdi oxumadığını bilsə, Həmdi, ondan sonra surəni oxumalıdır. Həmçinin, əgər əyilsə, amma rüku həddinə çatmazdan qabaq Həmdi, surəni və ya hər ikisini oxumadığını bilsə, düz dayanıb həmin göstərişə əməl etməlidir.

**Məsələ 178:** Vacib namazda vacib səcdə ayəsi olan surələri oxumaq olmaz. İnsan bilərəkdən və ya səhvən o surələrdən birini oxuyub səcdə ayəsinə çatsa, vacib ehtiyata əsasən, tilavət səcdəsini edib qalxmalıdır. Əgər surə bitməyibsə, onu bitirməli, namazı sona çatdırmalı, sonra namazı yenidən qılmalıdır. Əgər səcdə ayəsinə çatmazdan öncə bilsə, vacib ehtiyat odur ki, həmin surəni saxlayıb başqa bir surə oxusun və namazdan sonra onu yenidən qılsın.

**Məsələ 179:** İnsan namaz qılarkən səcdə ayəsinə qulaq assa, namazı düzgündür və səcdə ayəsini eşidəndən sonra səcdə etmək yerinə işarə ilə səcdə etməli, sonra namazı davam etdirməlidir.

**Məsələ 180:** Əgər Həmddən sonra "Qul huvallahu əhəd" və ya "Qul ya əyyuhəl-kafirun" surəsinə başlasa, yarımçıq qoyub başqa bir surə oxuya bilməz. Lakin cümə namazında yadından çıxarıb Cümə və Münafiqun surəsinin yerinə bu iki surədən birini oxumağa başlasa, yarımçıq qoyub Cümə və Münafiqun surəsini oxuya bilər.

**Məsələ 181:** İnsan namazda "Qul huvallahu əhəd" və ya " Qul ya əyyuhəl-kafirun" surələrindən başqa bir surə oxusa, yarıdan çoxunu oxumayıbsa, yarımçıq qoyub başqa bir surə oxuya bilər.

**Məsələ 182:** Əgər oxuduğu surənin müəyyən hissəsini unutsa və ya vaxt azlığından, yaxud başqa bir səbəbdən tamamlaya bilməsə, saxlayıb başqa bir surə oxumalıdır. Bu zaman birinci surənin yarısını oxuyub-oxumadığının, yaxud birinci surənin "Qul huvallahu əhəd" və ya "Qul ya əyyuhəl-kafirun" olub-olmadığının fərqi yoxdur.

**Məsələ 183:** Müstəhəb namazlarda surə oxumaq lazım deyil, hətta nəzir vasitəsilə vacib olmuş namaz olsa da. Lakin bəzi müstəhəb namazların özünəməxsus surəsi vardır. Misal üçün, valideyndən ötrü qılınan namaz belədir. İnsan o namazı qılmaq istəsə, göstərişində deyilmiş surəni də oxumalıdır.

**Məsələ 184:** Namazın üçüncü və dördüncü rükətlərində "subhanallahi vəl-həmdu lillahi və la ilahə illəllahu vallahu əkbər" zikrlərini bir dəfə demək kifayətdir; hərçənd, müstəhəb ehtiyata görə, üç dəfə deyilməlidir. Əlbəttə, (təsbihat adlanan) bu zikrlərin yerinə Həmd surəsini də oxuya bilər.

**Məsələ 185:** Təsbihatı oxuduğunu bilən, ancaq neçə dəfə oxuduğunu bilməyən şəxsə heç nə vacib deyil. Ancaq nə qədər ki rükuya getməyib, ən az neçə dəfə dediyini bilirsə, həmin hesabla təkrarlaya və üç dəfə dediyinə əmin ola bilər.

**Məsələ 186:** Üçüncü və dördüncü rükətlərdə təsbihatı deməyə adət etmiş bir adam Həmd surəsini oxumaq qərarına gəlsə, amma bu qərarını yaddan çıxarıb adəti üzrə təsbihatı söyləsə, namazı düzgündür. Həmçinin, əgər Həmd surəsini oxumağa adət etmiş adam təsbihatı söyləmək qərarına gəlsə və diqqətsizlikdən Həmdi oxusa, düzgündür.

**Məsələ 187:** İnsan üçüncü və ya dördüncü rükətdə diqqətsizlikdən, yaxud birinci və ya ikinci rükətdə olduğunu sanaraq Həmd və surə oxusa, rükuda və ya ondan sonra yadına düşsə, namazı düzgündür.

**Məsələ 188:** Ayaq üstə durduğu halda Həmdi və ya təsbihatı oxuyub-oxumadığına şəkk eləsə, Həmdi və ya təsbihatı oxumalıdır. Lakin rükudan qabaq müstəhəb olan "əstəğfirullahə rəbbi və ətubu iləyh"

zikrini deyəndə təsbihatı söyləyib-söyləmədiyinə şəkk eləsə, yenidən söyləməsi lazım deyil.

**Məsələ 189:** Əgər üçüncü və dördüncü rükətin rükusunda Həmdi və ya təsbihatı oxuyub-oxumadığına dair şəkk eləsə, gərək şəkkinə fikir verməsin. Lakin rükuya getdiyi yerdə, hələ rüku həddinə çatmadan şəkk eləsə, vacib ehtiyata əsasən, qayıdıb Həmdi və ya təsbihatı oxumalıdır.

**Məsələ 190:** Kişiyə vacibdir ki, sübh, şam və işa namazlarının ilk iki rükətində Həmd və surəni ucadan oxusun. Zöhr və əsr namazlarındakı Həmd və surəni isə həm kişi, həm qadının astadan oxuması vacibdir.

**Məsələ 191:** Qadın sübh, şam və işa namazlarının Həmd və surəsini ucadan və ya astadan oxuya bilər. Lakin naməhrəm onun səsini eşidəcəksə, yaxşı olar ki, astadan oxusun.

**Məsələ 192:** Üçüncü və dördüncü rükətlərdə təsbihat və ya Həmd astadan oxunmalıdır. Həmdi oxuyursa, ehtiyata əsasən, onun Bismillahını da astadan deməlidir.

**Məsələ 193:** Namazların birinci və ikinci rükətlərində astadan və ya ucadan oxumağın vacibliyi Həmd və surənin qiraətinə, üçüncü və dördüncü rükətlərdə astadan oxumağın vacibliyi də Həmd və ya təsbihatın qiraətinə aiddir. Gündəlik namazların rüku, səcdə, təşəhhüd, salam və digər

yerlərində isə namazqılan astadan və ya ucadan oxumaqda ixtiyar sahibidir.

**Məsələ 194:** Gündəlik vacib namazlarda astadan və ya ucadan oxumağın vacibliyində əda və qəza namazları arasında fərq yoxdur, qəza namazı ehtiyat üzündən qılınanda da hökm belədir.

**Məsələ 195:** Ucadan qılmağın meyarı səs tonunu aşkara çıxarmaq, astadan qılmaq isə aşkara çıxarmamaqdır, namazqılanın yanındakı adam onun səsini eşitsə belə.

**Məsələ 196:** İnsan Həmd və surəni oxuyarkən səsini həddən artıq ucaltsa, məsələn, qışqıraraq qılsa, namazı batildir.

**Məsələ 197:** İnsan namazı ucadan qılmalı yerdə bilərəkdən astadan qılsa, yaxud astadan qılmalı yerdə bilərəkdən ucadan qılsa, namazı batildir. Lakin yaddan çıxarsa və ya hökmü bilmədiyinə görə belə etsə, namazı düzgündür. Əgər Həmd və surəni və ya təsbihatı oxuyarkən yadına düşsə, səhvən ucadan və ya astadan oxuduğu hissələri yenidən oxuması lazım deyil.

**Məsələ 198:** Qiraətdə sözlərin tələffüz olunması vacibdir; belə ki, ona qiraət (oxumaq) sözü şamil olmalıdır. Bu baxımdan, sözləri tələffüz etmədən ürəyindən keçirmək kifayət etmir. Qiraət o zaman həyata keçir ki, namazqılanın eşitmə problemi olmasa, yaxud yer səs-küylü olmasa, oxuduğunu, dilinə gətirdiyini eşitsin.

**Məsələ 199:** Danışmağı bacarmayan lal insan namazı işarə ilə qılsa, düzgündür.

**Məsələ 200:** İnsan namazı düzgün şəkildə, səhvsiz qılmalıdır. Onu heç bir yolla düzgün öyrənə bilməyən şəxs isə hansı formada bacarırsa, qılmalı, müstəhəb ehtiyata əsasən, camaatla qılmalıdır.

**Məsələ 201:** Namazın Həmd və surəsini və ya başqa hissələrini tam bilməyən, amma öyrənə bilən adam, namaz vaxtı geniş olduqda onu öyrənməlidir, dar olduqda isə imkan olduğu təqdirdə, vacib ehtiyata əsasən, namazını camaatla qılmalıdır.

**Məsələ 202:** Qiraətin düzgünlüyünün meyarı hərflərin hərəkə və sükunlarına əməl etmək, onları öz məxrəclərindən tələffüz etməkdir; belə ki, ərəblər onu (başqa bir hərf deyil) məhz həmin hərf kimi başa düşsünlər. Təcvid incəliklərinə əməl etmək isə lazım deyil.

**Məsələ 203:** İnsan Həmd və surənin sözlərindən birini bilməsə, yaxud qəsdən söyləməsə, yaxud qəsdən bir hərfin yerinə başqa bir hərf söyləsə, misal üçün, "zad" hərfinin yerinə "za" hərfini tələffüz etsə, "i" və "ə" səslərinin yerini dəyişsə və ya təşdidi (yanaşı iki eyni hərfdən birini) tələffüz etməsə, namazı batildir.

**Məsələ 204:** Namazın qiraətini və ya zikrlərini səhv tələffüz etmiş, məsələn, "yuləd" sözünü "yulid"

kimi demiş şəxs təqsirli cahil[1] olmuşsa, vacib ehtiyata əsasən, namazı batildir. Lakin əgər qüsurlu cahil[2] olmuşsa və düzgün sanaraq bu şəkildə tələffüz etmişsə, namazı düzgündür.

**Məsələ 205:** İnsan namazın qiraətində bir ayəni başqa bir ayəyə birləşdirsə, birinci ayənin son hərəkəsini tələffüz etməsi lazım deyil; məsələn, "Maliki yəumiddin" ayəsinin sonuncu "n" hərfini (göstərildiyi kimi) sakin halda tələffüz edib dərhal "İyyakə nəbudu və iyyakə nəstəin" desə, eybi yoxdur. Buna "sükunla birləşdirmə" deyirlər. Həmçinin ayənin təşkil olunduğu sözlərin axırında da belədir; hərçənd, bu məsələdə müstəhəb ehtiyat odur ki, sükunla birləşdirməsin.

**Məsələ 206:** Bir ayənin sözləri arasında dayanmaq və fasilə vermək cümlənin vəhdətinə zərər yetirmədiyi təqdirdə problemsizdir. Misal üçün, "vələzzallin" sözü "ğəyril-məğzubi \`ələyhim" sözlərindən azca sonra da oxuna bilər.

**Məsələ 207:** İnsan bir ayəni oxumağa başlayandan sonra öncəki ayəni düzgün oxuyub-oxumamasına şəkk eləsə, şəkkinə fikir verməməlidir. Həmçinin, bir cümləyə başlayandan sonra əvvəlki cümlənin

---

[1] Bilmədiyini bilən, öyrənməyin yollarını da bilən, amma hökmləri öyrənməkdə səhlənkarlıq edən şəxs.

[2] Bilmədiyini bilməyən, ya da bilsə də, öyrənməyə imkanı olmayan şəxs.

düzgünlüyündə şəkk eləsə, misal üçün, "iyyakə nəstəin" deyərkən "iyyakə nəbudu" sözlərini düzgün tələffüz edib-etmədiyinə dair şəkk eləsə, şəkkinə əhəmiyyət verməməlidir. Əlbəttə, düzgün tələffüzlə bağlı şəkk etdiyi sözləri ehtiyat məqsədi ilə yenidən desə, eybi yoxdur.

**Məsələ 208:** Qiraət zamanı bədən sabit və hərəkətsiz olmalı, azca irəli və ya geri getmək, bədəni azacıq sağa və ya sola tərpətmək istəyəndə də hərəkət zamanı zikr deməyi dayandırmalıdır.

**Məsələ 209:** Namazın birinci rükətində Həmd surəsini oxumazdan əvvəl "Ə`uzu billahi minəş-şəytanir-rəcim" söyləmək, zöhr və əsr namazlarının birinci və ikinci rükətlərində "Bismillahir-rəhmanir-rəhim" ayəsini ucadan oxumaq, Həmd və surəni tələsmədən oxumaq, hər ayədən sonra dayanmaq, yəni sonrakı ayəyə birləşdirməmək, Həmd və surə oxuyarkən ayələrin mənasına diqqət yetirmək, Həmd surəsini oxuyandan sonra, fərdi, yoxsa camaat namazında olmasından, imam, yoxsa məmum olmasından asılı olmayaraq, "Əlhəmdu lillahi rəbbil-`aləmin" demək, "Qul huvallahu əhəd" surəsindən sonra bir, iki və ya üç dəfə "Kəzalikəllahu rəbbi" söyləmək, Həmdin, habelə surənin qiraətindən sonra bir qədər pauza verib, sonra namazı davam etdirmək müstəhəbdir.

**Məsələ 210:** Müstəhəbdir ki, namazqılan üçüncü və dördüncü rükətlərdə təsbihatdan sonra

bağışlanmaq istəsin, məsələn, "Əstəğfirullahə rəbbi və ətubu iləyh", yaxud "Allahumməğfirli" desin.

**Məsələ 211:** Sutka ərzində qılınan namazların heç birində "Qul huvallahu əhəd" surəsini oxumamaq məkruhdur. Həmçinin, bir namazın iki rükətində eyni surəni təkrarlamaq da məkruhdur; "Qul huvallahu əhəd" surəsi isə istisnadır.

**Məsələ 212:** Müstəhəbdir ki, bütün namazlarda birinci rükətdə "İnna ənzəlnah" surəsi, ikinci rükətdə də "Qul huvallahu əhəd" surəsi oxunsun.

## 5. Rüku

**Məsələ 213:** Hər rükətdə qiraətdən sonra rüku etmək, yəni əli dizə qoya biləcək qədər əyilmək lazımdır; əgər barmaqların başı da dizə çatsa, kifayətdir.

**Məsələ 214:** Vacib ehtiyata əsasən, rüku zamanı əlləri dizlərə qoymaq lazımdır.

**Məsələ 215:** Rüku rükn vaciblərindəndir, onu qəsdən və səhvən artırıb-azaltmaq namazı batil edir. Bu baxımdan, insan rüku həddinə çatandan və bədən sabit qalandan sonra qalxıb yenidən rüku niyyəti ilə əyilsə, yaxud rükunu yaddan çıxarıb ikinci səcdədə və ya ondan sonra xatırlasa, namazı batildir.

**Məsələ 216:** (Camaat namazının hökmlərində deyiləcək şərtlərlə) imama tabe olmaq üçün rükunu

artırmaq namazı batil etmir. Həmçinin, müstəhəb namazda səhvən rüku artırılsa, namaz düzgündür.

**Məsələ 217:** Əyilmək rüku niyyəti ilə olmalıdır. Buna əsasən, əgər başqa bir iş məqsədilə, məsələn, bir şey götürmək üçün əyilsə, onu rüku hesab edə bilməz; düz dayanmalı, yenidən rüku üçün əyilməlidir. Bu zaman rükn artıq olmur və namazı batil etmir.

**Məsələ 218:** Rüku üçün əyilə bilməyən şəxs bir şeyə söykənərək əyilə bilsə, o şəkildə rüku etməlidir. Əgər söykənməklə də rüku edə bilməsə, bacardığı qədər əyilməlidir. Bu iki hal mümkün olduğu qədərincə rükunu oturduğu yerdə etməməlidir, hətta oturduğu yerdə rüku həddində əyilə bilsə də. Lakin ayaq üstə heç bir halda rüku üçün əyilə bilməsə, rükunu oturan halda etməlidir. Ehtiyat odur ki, başqa bir namaz da qılıb onda rükunu ayaq üstə işarə ilə etsin. Əgər rükunu hətta oturan halda da edə bilməsə, ayaq üstə başının işarəsi ilə rüku etməlidir. Başı ilə işarə edə bilməsə, rüku üçün gözlərini bağlamalı, qalxmaq əlaməti olaraq da açmalıdır.

**Məsələ 219:** Oturan halda rüku edən şəxs üzü dizlərinin qarşısına çatacaq qədər əyilsə, kifayətdir və əlləri dizlərə qoymaq lazım deyil.

**Məsələ 220:** Oturan halda və ya işarə ilə edilən rükunu qəsdən və ya səhvən artırıb-azaltmaq namazı batil edir.

**Məsələ 221:** Rükuda zikr deyilməlidir. Onun vacib zikri bir dəfə "Subhanə rəbbiyəl-`əzimi və bihəmdih", yaxud üç dəfə "Subhanallah" zikridir. Əgər onun yerinə eyni miqdarda "Əlhəmdu lillah", "Allahu əkbər" və ya (səcdəyə məxsus zikrdən başqa) hər hansı zikr deyilsə, kifayətdir.

**Məsələ 222:** Vaxt azlığında, yaxud çarəsiz durumda bir dəfə "Subhanallah" demək kifayət edir.

**Məsələ 223:** Rükuda vacib zikri deyərkən bədən sabit olmalıdır. Vacib ehtiyata əsasən, hətta müstəhəb niyyəti ilə deyilən zikrlərdə də, məsələn, "Subhanə rəbbiyəl-`əzimi və bihəmdih" zikrinin təkrarında da bədəni sabit saxlamalıdır.

**Məsələ 224:** İnsan azca irəli-geri getmək istəsə, yaxud bədənini azca sağa-sola tərpətmək istəsə, hərəkət zamanı zikri dayandırmalıdır. Lakin zikri namaz zikri niyyəti ilə deyil, ümumi zikr niyyəti ilə deyirsə, hərəkət halında da desə, eybi yoxdur.

**Məsələ 225:** Rüku zikrini deyərkən bədənin, barmaqların və ya başqa bir bədən üzvünün azca hərəkətinin eybi yoxdur.

**Məsələ 226:** Rükunun vacib zikrini deyərkən bədən qeyri-ixtiyari olaraq tərpənsə, belə ki, vacib sabitlik pozulsa, bədən sabitləşəndən sonra vacib zikri təkrar etmək lazımdır.

**Məsələ 227:** Rüku zikri zamanı sabitliyin vacib olduğunu bilən şəxs rüku həddinə çatmazdan və

bədən sabitləşməzdən öncə qəsdən rükunun zikrinə başlasa, namazı batildir.

**Məsələ 228:** İnsan rüku həddinə çatmazdan və bədən sabitləşməzdən öncə səhvən zikri desə, gərək rükuya çatandan sonra onu təkrarlasın.

**Məsələ 229:** Rükunun zikri zamanı sabit dayanmağın vacib olduğunu bilən şəxs vacib zikr bitməzdən qabaq bilərəkdən rükudan qalxsa, namazı batildir. Əgər səhvən belə etsə, rüku həddindən çıxmazdan öncə zikri tamamlamadığını bilsə, o halda sabit dayanıb zikri deməlidir; rüku halından çıxandan sonra bilsə, namazı düzgündür.

**Məsələ 230:** Xəstəlikdən və ya başqa bir səbəbdən rükuda üç dəfə "Subhanallah" deyəcək qədər qala bilməyən şəxs bu zikri bir dəfə desə, kifayət edər. Yalnız bir anlığa rüku halında qala bilən şəxs də, vacib ehtiyata əsasən, zikri o anda başlasın və qalxa-qalxa tamamlasın.

**Məsələ 231:** Namazqılan rükunun zikri qurtarandan sonra qalxmalı, bədən sabit dayanandan sonra səcdəyə getməlidir. Əgər qalxmazdan, yaxud bədən sabitləşməzdən öncə bilərəkdən səcdəyə getsə, namazı batildir.

**Məsələ 232:** Əgər rükunu yaddan çıxarsa və səcdəyə çatmazdan qabaq yadına düşsə, ayağa qalxmalı, düz dayanandan sonra rükuya getməlidir. Əgər əyilmiş vəziyyətdə səcdədən rükuya qayıtsa,

kifayət etmir və bu rüku ilə kifayətlənsə, namazı batildir.

**Məsələ 233:** İnsan birinci səcdədə, ya da ondan sonra, amma ikinci səcdəyə getməzdən qabaq rüku etmədiyini xatırlasa, ayağa qalxmalı, düz dayanandan sonra rükuya getməli, sonra iki səcdəni yerinə yetirməli, namazı qurtarandan sonra, müstəhəb ehtiyata əsasən, artıq səcdə üçün iki səhv səcdəsi etməlidir.

**Məsələ 234:** Müstəhəbdir ki, namazqılan rükuya getməzdən qabaq ayaq üstə təkbir desin, kişidirsə, rüku zamanı dizləri arxaya versin, başını aşağı salmasın, kürəyi ilə bərabər saxlasın, əllərin içini dizlərə söykəsin, ayaqlarının arasına baxsın, rükunun zikrindən qabaq və ya sonra salavat desin, rüku zikrini təkrarlasın, onu tək rəqəmlə bitirsin, rükudan qalxıb düz dayanandan sonra bədəni sabit halda ikən "Səmi`əllahu limən həmidəh" desin.

**Məsələ 235:** Müstəhəbdir ki, qadın rükuda əllərini dizlərindən yuxarı hissəyə qoysun, dizlərini arxaya verməsin.

### 6. Səcdə

**Məsələ 236:** Vacib və müstəhəb namazların hər rükətində rükudan sonra iki səcdə etmək, yəni alını Allahın hüzurunda təzimlə yerə qoymaq lazımdır.

**Məsələ 237:** Səcdədə alından əlavə, iki əlin içi, iki diz və ayaqların baş barmaqlarının baş hissəsi də yerə dəyməlidir.

**Məsələ 238:** Bir rükətin iki səcdəsi birlikdə rükn sayılır. Bu baxımdan, əgər səhvən və ya unutqanlıqdan hər ikisi tərk olunsa və ya əlavə iki səcdə artırılsa, namaz batil olur.

**Məsələ 239:** Bir səcdəni qəsdən azaldıb-artırmaq namazı batil edir.

**Məsələ 240:** Əgər unutqanlıqdan və ya səhvən bir səcdəni azaldıb və ya artırsa, namaz batil deyil, amma xüsusi hökmləri vardır ki, deyiləcəkdir.

**Məsələ 241:** İnsan alını qəsdən və səhvən yerə qoymasa, səcdə baş tutmamışdır, baxmayaraq ki, digər altı üzvü (iki əlin içi, iki diz və ayaqların iki baş barmağının başı) yerə dəymiş olsun. Əgər alını yerə qoysa, amma digər üzvləri səhvən yerə çatdırmasa və ya səhvən zikr deməsə, səcdə düzgündür.

**Məsələ 242:** Səcdə zamanı ayaqların baş barmaqlarının başından əlavə, digər barmaqların da yerə qoyulması icazəlidir.

**Məsələ 243:** Səcdənin vacib zikri bir dəfə "Subhanə rəbbiyəl-ə`la və bihəmdih", yaxud üç dəfə "Subhanallah" zikrindən ibarətdir. Əgər bunun yerinə eyni miqdarda "Əlhəmdu lillah", "Allahu əkbər" və ya (rükuya məxsus zikrdən başqa) hər hansı zikr deyilsə, kifayətdir.

**Məsələ 244:** Əgər rüku və səcdənin zikrlərini səhvən bir-birinin yerinə desə, eybi yoxdur. Həmçinin, əgər qəsdən və Allah-taalanın ümumi zikri niyyəti ilə desə də, eybi yoxdur, amma xüsusi zikrlərini də deməlidir.

**Məsələ 245:** Əgər rüku və səcdədən sonra zikrləri səhv dediyini bilsə, namazı düzgündür.

**Məsələ 246:** Səcdənin vacib zikrini deyərkən bədən sabit olmalıdır. Həmçinin, vacib ehtiyata əsasən, müstəhəb niyyəti ilə deyilən zikr zamanı, məsələn, "Subhanə rəbbiyəl-ə`la və bihəmdih" zikrinin təkrarı zamanı da bədən sabit olmalıdır.

**Məsələ 247:** Səcdə zikrini deyərkən bədənin sabit qalmasının vacib olduğunu bilən şəxs alnı yerə çatmazdan və bədən sabitləşməzdən qabaq bilərəkdən zikri desə, yaxud zikr bitmədən bilərəkdən səcdədən qalxsa, namazı batildir.

**Məsələ 248:** Əgər alın yerə çatmazdan və bədən sabitləşməzdən qabaq səhvən səcdənin zikrini desə və səcdə halında bunu bilsə, bədənin sabit olduğu halda zikri yenidən deməlidir.

**Məsələ 249:** Əgər başını səcdədən qaldırandan sonra, zikri səcdəyə çatmazdan və ya bədən sabitləşməzdən qabaq dediyini xatırlasa, namazı düzgündür.

**Məsələ 250:** Əgər (əvvəldə bədənin hərəkət etdiyi, sonra sabit qaldığı) döşək və bu kimi bir şeyin

üzərində səcdə edilsə, zikr bədən sabit ikən deyilsə, namaz düzgündür.

**Məsələ 251:** İnsan səcdənin vacib zikrini deyərkən yeddi bədən üzvündən birini qəsdən yerdən qaldırsa, namaz batil olar. Lakin zikr deməyən halda alından başqa hər hansı üzvü yerdən qaldırıb yenə qoysa, eybi yoxdur.

**Məsələ 252:** İnsan səcdənin zikri bitmədən səhvən alnını yerdən qaldırsa, yenə yerə qoya bilməz və onu bir səcdə hesab etməlidir. Lakin digər üzvləri səhvən yerdən qaldırsa, gərək yenə yerə qoyub zikri desin.

**Məsələ 253:** Səcdə zamanı alın səcdə yerinə dəysə və ixtiyarsız olaraq oradan ayrılsa, alını yenə yerə qoyub səcdənin zikrini deməli və bunları ümumilikdə bir səcdə hesab etməlidir.

**Məsələ 254:** Səcdədə əllərin içi yerə qoyulmalıdır. Çarəsiz hallarda əlin arxasını da qoymaq olar. Əgər arxası mümkün olmasa, gərək biləyin ələ yaxın hissəsini yerə qoysun. Bunu da bacarmasa, dirsəyə qədər haranı qoya bilsə, qoysun. Əgər bu da mümkün olmasa, bazunu yerə qoymaq kifayətdir.

**Məsələ 255:** Namazqılan birinci səcdənin zikri qurtarandan sonra oturmalı, bədən sabit qalandan sonra yenə səcdəyə getməlidir.

**Məsələ 256:** Xəstəlikdən və ya başqa bir səbəbdən səcdədə üç dəfə "Subhanallah" deyəcək qədər qala bilməyən şəxs bu zikri bir dəfə desə, kifayət edər. Yalnız bir anlığa səcdə halında qala bilən şəxs də,

vacib ehtiyata əsasən, zikri o anda başlasın və qalxa-qalxa tamamlasın.

**Məsələ 257:** Alnını yerə çatdıra bilməyən şəxs bacardığı qədər əyilməli, möhrü və ya səcdə etməyin düzgün olduğu başqa bir şeyi hündür bir şeyin üstünə qoymalı, alnını ona elə dayamalıdır ki, səcdə etdiyi deyilsin. Əllərin içini, dizləri və ayaqların baş barmaqlarının başını isə, mümkün olsa, adi şəkildə yerə qoysun. Əgər möhrün altına qoymağa bir şey olmasa, əllə qaldırmalı, alnını ona qoymalıdır. Əgər əsla əyilə bilmirsə, səcdə etmək yerinə başı ilə işarə etməlidir; bunu da bacarmasa, gözüylə işarə etsin.

**Məsələ 258:** Səcdə zamanı alının yeri dizlərin və ayaqların baş barmaqlarının yerindən dörd bağlı barmaq qədərindən hündür və ya alçaq olmamalıdır.

**Məsələ 259:** Möhür və ya üzərinə səcdə edilən hər hansı bir şey pak olmalıdır. Möhrü murdar bir döşənəcəyin üstünə qoymaq isə, murdarlıq bədənə və ya paltara keçməsə, yaxud möhrün alın qoyulmayan tərəfi murdar olsa, eybi yoxdur.

**Məsələ 260:** Alınla səcdə olunan şey arasında saç, papaq və ya başqa bir maneə olmamalıdır.

**Məsələ 261:** Alınla möhür arasında maneə olsa, namaz batildir. Lakin möhrün yalnız rəngi dəyişmişdirsə, eybi yoxdur.

**Məsələ 262:** İnsan səcdə zamanı alının, məsələn, çadra kimi bir maneəyə görə möhrə toxunmadığını bilsə, vacibdir ki, başını yerdən qaldırmadan alnını

sürüşdürsün, yaxud maneəni alnının altından çəksin və ən azı alının barmaq ucu qədər hissəsi möhür üzərində qalsın. Əgər başını qaldırsa və maneəni uzaqlaşdırandan sonra yenə möhrə qoysa, bu iş bilməzlikdən və ya unutqanlıqdan olmuşsa və yalnız bir rükətdəki iki səcdənin birində baş tutmuşsa, namazı düzgündür. Lakin bunu bilə-bilə və qəsdən etsə, yaxud bir rükətin hər iki səcdəsində etsə, namazı batildir.

**Məsələ 263:** Bütün namazların birinci rükətində, habelə dördrükətli namazların üçüncü rükətində, vacib ehtiyata əsasən, ikinci səcdədən sonra oturmalı, sonra növbəti rükətə qalxmalıdır. Əlbəttə, bir qədər oturmadan növbəti rükətə qalxsa da, namaz batil deyil.

## Üzərinə səcdə ediləsi şeylər

**Məsələ 264:** Səcdə zamanı alını səcdənin düzgün olduğu bir şeyin üzərinə qoymaq lazımdır.

**Məsələ 265:** Namaz səcdəsində alını yerə və ya yerdən bitən, yeyiləsi və geyiləsi olmayan bitkilərə qoymaq lazımdır; məsələn, daşa, torpağa, çubuğa, ağac yarpağına və s. Yerdən cücərsə də, yeyiləsi və ya geyiləsi olan şeylər, məsələn, buğda, pambıq, habelə yeri təşkil edən elementlərdən sayılmayan mədən məhsulları, məsələn, metallar və şüşə üzərinə səcdə etmək düzgün deyil.

**Məsələ 266:** Mərmər, binaları tikmək və ya bəzəmək üçün istifadə olunan digər daşlar, habelə əqiq, firuzə, mirvari və bu kimi daşlar üzərinə səcdə etmək olar; hərçənd, müstəhəb ehtiyata əsasən, sonuncu qrupa səcdə edilməməlidir.

**Məsələ 267:** Kərpic, saxsı, gəc, əhəng və sement üzərinə səcdə etmək olar.

**Məsələ 268:** Yerdən bitən, yalnız heyvanlar tərəfindən yeyilən ot və saman kimi şeylər üzərinə səcdə etmək olar.

**Məsələ 269:** Yaşıl çay yarpağına səcdə, vacib ehtiyata əsasən, düzgün deyil. Lakin qəhvə ağacının yeyilib-içilməyən yarpağı üzərinə səcdə etmək olar.

**Məsələ 270:** Yeyilməyən çiçəklər, habelə yerdən bitən və yalnız müalicə üçün istifadə olunan bitki dərmanları, məsələn, gülxətmi və bənövşə gülü üzərinə səcdə etmək olar. Lakin tibbi xüsusiyyətlərinə görə müalicə məqsədi olmadan da qəbul edilən şüvərən kimi bitkilər üzərinə səcdə etmək düzgün deyil.

**Məsələ 271:** Bəzi bölgələrdə, yaxud əhalinin bəzisi tərəfindən yeyiləsi sayılan, amma digərlərinin yemədiyi bitkilər yeməli hesab olunur və onlar üzərinə səcdə etmək düzgün deyil.

**Məsələ 272:** Ağacdan, habelə (kətan və pambıqdan başqa) bir bitkidən əldə edilən kağız üzərinə səcdə etmək olar.

**Məsələ 273:** Səcdə edilməsi düzgün olan bir şey tapılmasa, yaxud insan soyuq, isti və ya başqa bir səbəbdən ona səcdə edə bilməsə, pambıq və ya kətandan olan paltarına və ya bu materiallardan başqa bir şeyə səcdə etməlidir. Vacib ehtiyata əsasən, pambıq və kətandan paltar üzərinə səcdə etmək mümkün olduğu qədərincə, (bu materiallardan olmayan) paltar üzərinə səcdə etməsin. Əgər belə şeylər də tapmasa, vacib ehtiyata əsasən, öz əlinin üstünə səcdə etsin.

**Məsələ 274:** Əgər namaz əsnasında səcdə etdiyi şey itsə və yanında səcdənin düzgün olduğu bir şey olmasa, namazın vaxtı genişdirsə, namazı pozmalı, vaxt dar olsa, qabaqkı məsələdə deyilən ardıcıllığa əməl etməlidir.

**Məsələ 275:** İnsan təqiyyə etməli olduğu yerdə xalçaya və bu kimi şeylərə səcdə edə bilər, namaz üçün başqa bir yerə getməsi lazım deyil. Lakin orada əziyyətsiz şəkildə həsirə, daşa və bu kimi bir şeyə səcdə edə bilsə, vacib ehtiyata əsasən, bu əşyalar üzərinə səcdə etməlidir.

**Məsələ 276:** Əgər birinci səcdədə möhür alnına yapışsa, ikinci səcdə üçün onu alnından ayırmalıdır. Əgər möhrü alnından ayırmayıb həmin vəziyyətdə ikinci səcdəyə getsə, problemlidir (işkallıdır).

**Məsələ 277:** Ən yaxşı səcdə torpağa və yer üzərinə səcdədir. Bu, Allah qarşısında kiçiklik və təzim

əlamətidir. Və səcdə üçün heç bir torpaq İmam Hüseynin (ə) müqəddəs türbəti qədər fəzilətli deyil.

**Məsələ 278:** Səcdənin bəzi müstəhəb əməlləri aşağıdakılardan ibarətdir:

1. Səcdədən qabaq və sonra bədən sabit halda ikən təkbir demək;
2. İki səcdə arasında bədən sabit ikən "Əstəğfirullahə rəbbi və ətubu iləyh" demək;
3. Səcdəni uzadıb zikr demək, dünya və axirət istəkləri üçün dua etmək və salavat demək;
4. Səcdə zikrini təkrarlamaq və tək rəqəmlə bitirmək;
5. Səcdədən sonra sol budu üzərində oturmaq, sağ ayağın üstünü sol ayağın altına qoymaq;
6. Növbəti rükətə qalxa-qalxa "Bihəulillahi və quvvətihi əqumu və əq`ud" zikrini demək.

**Məsələ 279:** Səcdə zamanı Quran oxumaq məkruhdur.

**Məsələ 280:** Allah-taaladan başqası üçün səcdə etmək haramdır. Bəzi insanların imamların (ə) məqbərələrinin girişində alınlarını yerə qoyması Allah-taalaya şükür səcdəsi niyyəti ilə olsa, problemsiz, əks-təqdirdə, haramdır.

## Quranın vacib səcdəsi

**Məsələ 281:** Quranın dörd surəsinin – Səcdə, Fussilət, Nəcm və Ələq surələrinin hər birində bir vacib səcdə ayəsi var. İnsan bu ayəni oxusa və ya dinləsə, ayə bitəndən dərhal sonra səcdə etməlidir. Əgər yaddan çıxartsa, nə vaxt xatırlasa, onda səcdə etməlidir.[1]

**Məsələ 282:** Səcdəni vacib edən səbəb ayənin hamısıdır. Onun bir hissəsini oxumaqla və ya dinləməklə səcdə vacib olmur.

**Məsələ 283:** Sözügedən ayələrin tərcüməsini oxumaq və ya dinləməklə səcdə vacib olmur.

**Məsələ 284:** Radio və ya televiziyadan yayımlanan, yaxud maqnitofondan və bu kimi şeylərdən oxudulan səcdə ayəsini dinləməklə səcdə vacib olur.

**Məsələ 285:** İnsan vacib səcdə ayəsini oxuyarkən onu başqa bir şəxsdən və ya səsyazan aparatdan və bu kimi şeydən də dinləsə, gərək iki səcdə etsin.

**Məsələ 286:** Quranın vacib səcdəsi üçün namaz səcdəsində icazə verilmiş şeylər üzərinə səcdə edilməlidir. Lakin namaz səcdəsinin digər şərtləri, o cümlədən, qibləyə doğru olmaq və dəstəmaz almaq lazım deyil.

---

[1] Səcdə ayələri bunlardır: 1. Səcdə (32), 15; 2. Fussilət (41), 37; 3. Nəcm (53), 62; 4. Ələq (96), 19.

**Məsələ 287:** Quranın vacib səcdəsində alını səcdə üçün yerə qoymaq kifayətdir, zikr demək lazım deyil. Hərçənd, müstəhəb və yaxşıdır ki, belə deyilsin: "La ilahə illəllahu həqqən həqqa. La ilahə illəllahu imanən və təsdiqa. La ilahə illəllahu `ubudiyyətən və riqqa. Səcədtu ləkə ya rəbbi tə`əbbudən və riqqa. La mustənkifən və la mustəkbira. Bəl ənə `əbdun zəlilun zəifun xaifun mustəcir".

**7. Təşəhhüd**

**Məsələ 288:** Namazqılan bütün namazların ikinci və axırıncı rükətlərində ikinci səcdədən sonra oturmalı, bədən sabitləşəndən sonra təşəhhüd zikri olan bəzi cümlələri dilinə gətirməlidir. Bu əməl təşəhhüd adlanır.

**Məsələ 289:** Təşəhhüddə vacib zikr bundan ibarətdir: "Əşhədu əlla ilahə illəllah. Vəhdəhu, la şərikə ləh. Və əşhədu ənnə Muhəmmədən `əbduhu və rəsuluh. Allahummə səlli `əla Muhəmmədin və ali-Muhəmməd".

**Məsələ 290:** Təşəhhüdün vacib zikrindən qabaq "Əlhəmdu lillah" və ya "Bismillahi və billahi vəl-həmdu lillah. Və xəyrul-əsmai lillah" söyləmək müstəhəbdir. Həmçinin, salavatdan sonra "Və təqəbbəl şəfa`ətəhu vərfə` dərəcətəh" demək müstəhəbdir.

**Məsələ 291:** Təşəhhüd rükn olmayan vacib əməldir. Bu baxımdan, qəsdən artırılıb-azaldılsa, namaz batil olar, səhvən artırılıb-azaldıqda isə namazı batil etməz.

**Məsələ 292:** İnsan təşəhhüdü unudub üçüncü rükətə qalxsa və rükuya getməzdən qabaq yadına düşsə, gərək oturub təşəhhüdü desin, sonra yenə ayağa qalxıb üçüncü rükətin təsbihatını söyləsin, namazı bitirəndən sonra yersiz yerə ayağa qalxdığına görə, müstəhəb ehtiyata əsasən, iki səhv səcdəsi etsin.

**Məsələ 293:** Namazqılan təşəhhüdü unutsa, üçüncü rükətin rükusunda və ya ondan sonra yadına düşsə, gərək namazı bitirsin və salamdan sonra unutduğu təşəhhüd üçün iki səhv səcdəsi etsin. Vacib ehtiyat odur ki, səhv səcdəsindən qabaq unutduğu təşəhhüdün qəzasını etsin.

**8. Salam**

**Məsələ 294:** Salam namazın son hissəsidir, onu deyəndən sonra namaz bitir. Namazın vacib salamı "Əssəlamu `ələykum" deməkdən ibarətdir. Yaxşı olar ki, buna "və rəhmətullahi və bərəkatuh" sözləri də artırılsın, yaxud belə deyilsin: "Əssəlamu `ələyna və `əla `ibadillahis-salihin".

**Məsələ 295:** Müstəhəbdir ki, yuxarıdakı iki salamdan qabaq belə deyilsin: "Əssəlamu `ələykə əyyuhən-nəbiyyu və rəhmətullahi və bərəkatuh".

**Məsələ 296:** Salam rükn sayılmayan vaciblərdəndir. Bu baxımdan, əgər səhvən artırılsa və ya tərk olunsa, namaz batil olmaz.

**Məsələ 297:** Əgər insan namazın salamını unutsa və namaz formasını pozmadan, qəsdən və ya səhvən edilməsi namazı batil edən bir iş görmədən, məsələn, qibləyə arxa çevirmədən yadına düşsə, gərək salamı desin və namazı düzgündür.

**9. Ardıcıllıq**

**Məsələ 298:** İnsan namazı deyilən ardıcıllıqla qılmalı, onun hissələrindən hər birini öz yerində yerinə yetirməlidir. Əgər qəsdən bu ardıcıllığa riayət etməsə, məsələn, surəni Həmddən qabaq oxusa, yaxud səcdəni rükudan qabaq etsə, namazı batildir.

**Məsələ 299:** Əgər rükn sayılan bir vacibi unudub növbəti rükndə xatırlasa, məsələn, iki səcdəni yaddan çıxarsa və növbəti rükətin rükusunda yadına düşsə, namazı batildir.

**Məsələ 300:** İnsan rükn olan bir vacibi unutsa, rükn olmayan növbəti əməli yerinə yetirsə və sonrakı rüknə başlamadan yadına düşsə, gərək yaddan çıxardığı rüknü yerinə yetirsin, sonra da səhvən ondan öncə etdiyi əməli yenidən etsin; misal üçün, təşəhhüddən sonra iki səcdəni unutduğunu xatırlasa, gərək iki səcdə etsin, sonra yenə təşəhhüdü yerinə yetirsin.

**Məsələ 301:** İnsan rükn olmayan bir hissəni yadından çıxarsa və növbəti rükndə xatırlasa, məsələn, Həmdi yadından çıxarsa və rükuda yadına düşsə, namazı düzgündür, qayıdıb Həmdi oxuya bilməz.

**Məsələ 302:** Əgər rükn olmayan bir əməli yadından çıxarsa, rükn olmayan növbəti əməli yerinə yetirsə və növbəti ruknə başlamadan yadına düşsə, məsələn, Həmdi yadından çıxarıb surəni oxusa və rükuya getməzdən qabaq yadına düşsə, gərək əvvəlcə yaddan çıxardığını, yəni Həmdi oxusun, ondan sonra səhvən birinci oxuduğunu, yəni surəni yenidən oxusun.

**10: Fasiləsizlik**

**Məsələ 303:** Namazqılan namazın rüku, səcdə, təşəhhüd və digər hissələrini bir-birinin ardınca yerinə yetirməli, onların arasında uzun və qeyri-adi fasilə verməməlidir. Bu məsələyə muvalat - fasiləsizlik deyilir. Bu baxımdan, əgər namazın hissələri arasında o qədər fasilə yaransa ki, kənardan baxan insan onun namaz halından çıxdığını zənn etsə, namaz batildir.

**Məsələ 304:** Əgər sözlər və ya bir sözün hərfləri arasında səhvən qeyri-adi fasilə salsa, amma bu, namazın formasını pozacaq həddə olmasa və ondan sonrakı ruknə daxil olduqda başa düşsə, namaz düzgündür, həmin söz və cümləri təkrarlamaq

lazım deyil. Lakin rüknə başlamadan yadına düşsə, gərək qayıdıb onları yenidən oxusun.

**Məsələ 305:** Rüku və səcdə zikrlərini uzatmaq, yaxud uzun surələr oxumaq namazın fasiləsizliyini pozmur.

**Qünut**

**Məsələ 306:** Müstəhəbdir ki, namazqılan bütün vacib və müstəhəb namazların ikinci rükətində Həmd və surədən sonra və rükudan qabaq əllərini qaldırıb dua etsin. Bu əməl qünut adlanır.

**Məsələ 307:** Cümə namazının hər rükətində bir qünut var; birinci rükətdə rükudan qabaq, ikinci rükətdə isə rükudan sonra tutulur.

**Məsələ 308:** Fitr və qurban bayramı namazında birinci rükətdə beş, ikinci rükətdə dörd qünut var.

**Məsələ 309:** Qünutda hər hansı zikri, duanı və ya Quran ayəsini oxumaq olar; hətta bir salavatla, bir "Subhanallah", yaxud "Bismillah", yaxud "Bismillahir-rəhmanir-rəhim" zikri ilə də kifayətlənmək mümkündür. Lakin Quranda qeyd olunmuş duaları, misal üçün, bu duanı oxumaq daha yaxşıdır: "Rəbbəna atina fid-dunya həsənəh, və fil-axirəti həsənəh, və qina `əzabənnar". Yaxud məsumlardan (ə) nəql olunmuş zikr və duaları da oxumaq olar. Onların biri budur: "La ilahə illəllahul-həlimul-kərim. La ilahə illəllahul-`əliyyul-`əzim. Subhanallahi rəbbis-səmavatis-səb`i və rəbbil-

ərəzinəs-səb`i və ma fihinnə və ma bəynəhunnə və rəbbil-`ərşil-`əzim. Vəlhəmdu lillahi rəbbil-`aləmin".

**Məsələ 310:** Qünutda hər hansı dildə dua etmək, bağışlanmaq və dilək istəmək icazəlidir.

**Məsələ 311:** Qünutu ucadan oxumaq müstəhəbdir. Lakin camaat namazında imam iqtida edənin səsini eşidəcəksə, müstəhəb deyil.

## Namazdan sonrakı əməllər

**Məsələ 312:** Namaz qurtarandan sonra dua etmək, zikr və ya Quran oxumaq müstəhəbdir. Bu əmələ namazın təqibatı deyilir. Yaxşı olar ki, insan təqibatı üzü qibləyə oturduğu yerdə, dəstəmazlı, yaxud qüsl vermiş və ya təyəmmüm etmiş halda yerinə yetirsin.

**Məsələ 313:** Namazdan sonrakı duaların ərəbcə deyilməsi lazım deyil, lakin yaxşı olar ki, məsumlardan (ə) nəql olunmuş dua və zikrlər oxunsun. Onların ən yaxşılarından biri həzrət Zəhra (ə) təsbihi kimi məşhurlaşmış zikrlərdir. Bu təsbih 34 dəfə "Allahu əkbər", 33 dəfə "Əlhəmdu lillah" və 33 dəfə "Subhanallah" zikrlərindən ibarətdir. Dua kitablarında məsumlardan (ə) yüksək məzmunlu və gözəl ibarəli dualar qeyd olunmuşdur.

**Məsələ 314:** Namazqılanın namazdan sonra şükür səcdəsi etməsi müstəhəbdir: bütün nemətlərin və namaz qıla bilmək nemətinin şükrü niyyəti ilə alnını

yerə qoysun və yaxşı olar ki, üç dəfə və ya daha çox belə desin: "Şukrən lillah".

# Namazın tərcüməsi

**Məsələ 315:** Yaxşı olar ki, namazqılan namazın söz və zikrlərini, mənasına diqqət yetirərək, mənəvi təzim halında dilə gətirsin ki, namaz imkanından ruhu paklamaq, böyük və mehriban Allaha mənəvi yaxınlaşmaq üçün istifadə etsin.

**Məsələ 316:** Həmd surəsinin tərcüməsi belədir:

"Bismillahir-rəhmanir-rəhim" – Sonsuz lütf və mərhəməti dünyada bütün insanlara, əbədi mərhəmət və əfvi isə yalnız möminlərə aid olan Allahın adı ilə.

"Əlhəmdu lillahi rəbbil-`aləmin" – Həmd və səna bütün yaranmışların Rəbbi olan Allaha məxsusdur.

"Ərrəhmanir-rəhim" – Hansı ki, Rəhmandır (lütf və mərhəməti dünyada bütün insanlara aiddir) və Rəhimdir (əbədi mərhəmət və əfvi yalnız möminlərə xasdır).

"Maliki yəumiddin" – Cəza (qiyamət) gününün maliki və ixtiyar sahibidir.

"İyyakə nə`budu və iyyakə nəstə`in" – Yalnız Sənə ibadət edir və yalnız Səndən kömək istəyirik.

"İhdinəs-siratəl-mustəqim" – Bizi doğru yola hidayət et.

"Siratəlləzinə ən`əmtə `ələyhim" – Nemət verdiyin (mərifət nurunu qəlblərinə saçdığın) kəslərin yoluna.

“Ğəyril-məğzubi `ələyhim, vələzzallin” – (Bəxş etdiyin böyük nemətdən sonra qədirbilməzlik və asilik etməyərək) Sənin qəzəbinə gəlməyənlərin və azğınlığa düçar olmayanların yoluna.

**Məsələ 317:** Tövhid surəsinin tərcüməsi belədir:

“Bismillahir-rəhmanir-rəhim. Qul huvallahu əhəd” – De ki, odur bir Allah.

“Allahus-səməd” – Allah ehtiyacsızdır və hamının ona ehtiyacı var.

“Ləm yəlid və ləm yuləd” – Övladı yoxdur və heç kəsin övladı deyil.

“Və ləm yəkul-ləhu kufuvən əhəd” – Heç kəs Ona tay deyil.

**Məsələ 318:** Rüku və səcdə zikrlərinin və bəzi müstəhəb zikrlərin tərcüməsi belədir:

“Subhanallah” – Pak və qüsursuzdur Allah.

“Subhanə rəbbiyəl-`əzimi və bihəmdih” – Mənim böyük Allahım pak və qüsursuzdur və Ona sitayiş edirəm.

“Subhanə rəbbiyəl-ə`la və bihəmdih” – Mənim ən üstün Allahım pak və qüsursuzdur və Ona sitayiş edirəm.

“Səmi`əllahu limən həmidəh” – Allah lütf eləsin Ona həmd-səna edənə.

“Əstəğfirullahə rəbbi və ətubu iləyh” – Rəbbim olan Allahdan bağışlanmaq istəyir və Ona doğru qaydıram.

“Bihəulillahi və quvvətihi əqumu və əq`ud” – Allahın iradə və qüvvəsi ilə qalxır və otururam.

**Məsələ 319:** Qünut zikrlərinin tərcüməsi belədir:

“Rəbbəna atina fid-dunya həsənəh, və fil-axirəti həsənəh” – Pərvərdigara, bizə dünyada yaxşılıq və axirətdə yaxşılıq əta elə.

“Və qina `əzabən-nar” – Və bizi od əzabından uzaq saxla.

“La ilahə illəllahul-həlimul-kərim” – Həlim və bağışlayan Allahdan başqa bir məbud yoxdur.

“La ilahə illəllahul-`əliyyul-`əzim” – Uca və böyük Allahdan başqa bir məbud yoxdur.

“Subhanallahi rəbbis-səmavatis-səb`” – Yeddi səmanın rəbbi olan Allah pak və qüsursuzdur.

“Və rəbbil-ərəzinəs-səb`” - Və yeddi yerin Rəbbi olan.

“Və ma fihinnə və ma bəynəhunnə” – Onlarda və onların arasında olan hər şeyin Rəbbi olan.

“Və Rəbbil-`ərşil-`əzim” – Və böyük ərşin Rəbbi olan Allah.

“Vəlhəmdu lillahi rəbbil-`aləmin” – Və həmd-səna bütün yaranmışların Rəbbi olan Allaha məxsusdur.

**Məsələ 320:** Təsbihat zikrinin tərcüməsi belədir:

“Subhanallahi” – Pak və qüsursuzdur Allah.

“Vəlhəmdu lillahi” – Və həmd-səna Allaha məxsusdur.

“Və la ilahə illəllahu” – Və Allahdan başqa heç bir məbud yoxdur.

“Vallahu əkbər” – Və Allah daha böyükdür.

**Məsələ 321:** Təşəhhüd və salamın tərcüməsi belədir:

“Əlhəmdu lillah” – Həmd-səna Allaha məxsusdur.

“Əşhədu əlla ilahə illəllah” – Şəhadət verirəm ki, Allahdan başqa heç bir məbud yoxdur.

“Vəhdəhu, la şərikə ləh” – Təkdir və şəriksizdir.

“Və əşhədu ənnə Muhəmmədən `əbduhu və rəsuluh” – Şəhadət verirəm ki, Məhəmməd Allahın qulu və elçisidir.

“Allahummə səlli `əla Muhəmmədin və ali-Muhəmməd” – Ey Xudavənd! Salam və rəhmət göndər Məhəmmədə və ali-Məhəmmədə.

“Və təqəbbəl şəfa`ətəhu vərfə` dərəcətəh” – Onun şəfaətini qəbul elə və dərəcəsini ucalt.

“Əssəlamu `ələykə əyyuhən-nəbiyyu və rəhmətullahi və bərəkatuh” – Allahın salamı, rəhməti və bərəkətləri olsun sənə, ey Peyğəmbər!

“Əssəlamu `ələyna və `əla `ibadillahis-salihin” – Salam olsun bizə və Allahın saleh bəndələrinə!

“Əssəlamu `ələykum və rəhmətullahi və bərəkatuh” – Allahın salamı, rəhməti və bərəkətləri olsun siz (möminlərə - mələklərə).

# Namazı batil edənlər

**Məsələ 322:** Namazı batil edənlər aşağıdakılardan ibarətdir:

1. Namazın vacib şərtlərdən birinin sıradan çıxması;
2. Dəstəmaz və ya qüslün batil olması;
3. Qiblədən üz döndərmək;
4. Danışmaq;
5. Gülmək;
6. Ağlamaq;
7. Namaz formasının pozulması;
8. Yemək və içmək;
9. Namazı batil edən şəklər;[1]
10. Namazın rüknlərini artırmaq və ya azaltmaq;
11. Həmddən sonra "amin" söyləmək;
12. Əlləri bədənin önündə bir-birinin üstünə qoymaq.

**Məsələ 323:** Əgər namaz əsnasında namazda riayət olunması vacib şərtlərdən biri sıradan çıxsa, məsələn, namaz əsnasında yerin qəsb edilmiş olduğu bilinsə, namaz batildir.

**Məsələ 324:** Əgər namaz əsnasında dəstəmazı, qüslü və ya təyəmmümü batil edən hallardan biri qarşıya çıxsa, məsələn, namaz əsnasında insanı yuxu tutsa, yaxud ondan sidik ifraz olsa, namaz batildir.

---

[1] Şəklər bölməsində bu barədə ətraflı məlumat veriləcək.

**Məsələ 325:** İnsan üzünü və ya bədənini qəsdən qiblədən çevirsə, belə ki, sağ və ya sol tərəfini asanlıqla görə bilsə, namazı batildir. Əgər bunu səhvən etsə də, vacib ehtiyata əsasən, namaz batildir. Lakin üzü azca sağa və ya sola çevirmək namazı batil etmir.

**Məsələ 326:** İnsan namazda qəsdən danışsa, hətta bir söz də söyləsə, namazı batildir.

**Məsələ 327:** Asqırmaq, öskürmək və boğazı arıtlamaq nəticəsində çıxan səs, hətta hərf tələffüzü kimi çıxsa da, namazı batil etmir.

**Məsələ 328:** İnsan zikr məqsədi ilə bir söz desə, məsələn, "Allahu əkbər" desə və onu deyərkən səsini qaldırıb kiməsə nəsə başa salmağa çalışsa, eybi yoxdur. Lakin kiməsə nəsə başa salmaq niyyəti ilə zikr desə, əgər zikr niyyəti də olmuş olsa, namaz batil olar.

**Məsələ 329:** İnsan namaz qılarkən digərinə salam verməməlidir, lakin kimsə ona salam versə, cavabını verməsi vacibdir. Cavab verərkən "salam" sözünü önə keçirməli, məsələn, "salaməleyküm", yaxud "əssəlamu əleykum" deməlidir, "əleykuməssalam" demək olmaz.

**Məsələ 330:** Bir nəfər bir qrupa salam verib "əssəlamu əleykum cəmiən" desə və onların biri namaz halında olsa, kimsə onun salamına cavab verdiyi təqdirdə namazqılan cavab verməməlidir.

**Məsələ 331:** Böyüklər kimi, yaxşı-pisi ayıra bilən uşağın salamına cavab vermək də vacibdir.

**Məsələ 332:** Salamın cavabını vermək təcili vacibdir. Əgər insan hər hansı səbəbdən cavabı o qədər təxirə salsa ki, artıq versə də, o salamın cavabı sayılmayacaqsa, namaz halında olsa, salama cavab verməməlidir; bu zaman namazdan digər hallarda da cavab vermək vacib deyil. Təxirin müddətində şəkk yarandığı zaman da hökm belədir. Salamın cavabını qəsdən gecikdirmək isə günahdır.

**Məsələ 333:** Namazqılana "salam əleykum" yerinə, yalnız "salam" deyilsə və bu, el arasında salam vermək sayılsa, cavabını vermək vacibdir və ehtiyata əsasən, deyilən formalarda cavab verilməlidir.

**Məsələ 334:** Bilərəkdən və qəhqəhə ilə gülmək namazı batil edir, amma səhvən, yaxud səssiz gülmək batil etmir.

**Məsələ 335:** Namazqılan gülüşünün qarşısını ala bilməsə və səssiz gülüşünün şiddətindən üzü qızarsa və bədəni titrəsə, namazın forması pozulmadığı təqdirdə düzgündür.

**Məsələ 336:** Dünya işlərindən ötrü səsli və qəsdən ağlamaq namazı batil edir. Lakin Allah qorxusundan və axirət işləri üçün ağlamağın eybi yoxdur, hətta ən yaxşı əməllərdəndir.

**Məsələ 337:** Namazın formasını pozan işlər, məsələn, əl çalmaq, atılıb-düşmək, qəsdən və ya

səhvən olmasından asılı olmayaraq, namazı batil edir.

**Məsələ 338:** İnsan namaz əsnasında kiməsə bir şeyi başa salmaq və ya sualına cavab vermək üçün əlini, gözünü və ya qaşını bir qədər tərpətsə, belə ki, sabitliklə və namazın forması ilə ziddiyyət təşkil etməsə, namaz batil olmaz.

**Məsələ 339:** Namazda gözləri yummağın eybi yoxdur və namazı batil etmir; baxmayaraq ki, bu, rükudan digər yerlərdə məkruhdur.

**Məsələ 340:** Qünutdan sonra əlləri üzə çəkmək məkruhdur, amma namazı batil etmir.

**Məsələ 341:** Namaz əsnasında yemək, içmək namazı batil edir; istər az olsun, istər çox. Lakin ağızda qalmış xörək qırıntılarını udmaq və ya az bir hissəsi ağızda qalmış qənd və şəkərin şirinliyini sormaq namazı batil etmir. Habelə, səhvən və ya unudaraq bir şey yesə və ya içsə, namazqılan şəklindən çıxmaması şərtilə namazı batil olmaz.

**Məsələ 342:** Namazqılan qəsdən və ya səhvən namazın bir rüknünü azaldıb və ya artırsa, yaxud qəsdən rükn olmayan vaciblərin birini azaldıb və ya artırsa, namazı batil olar.

**Məsələ 343:** Həmd surəsinin qiraətindən sonra "amin" demək olmaz və bu, namazı batil edər. Lakin təqiyyə məqsədilə olsa, eybi yoxdur. Həmçinin namaz halında əllər sinədə dayanmaq (əlləri bədənin önündə bir-birinin üstünə qoymaq), bu əməli

namazın bir hissəsi bilmək niyyətilə olsa, namazı batil edər; vacib ehtiyata əsasən, bu niyyət olmadan da edilməsin.

**Məsələ 344:** Vacib namazı üzrsüz pozmaq olmaz.

**Məsələ 345:** Əgər qorunması vacib olan canı və ya malı qorumaq namazı kəsmədən mümkün olmasa, gərək namazı kəssin. Ümumi olaraq, can, habelə namazqılanın əhəmiyyətli yanaşdığı mal təhlükəsinin qarşısını almaq üçün namazı pozmaq icazəlidir.

# Namazda şəkkin hökmləri

**Məsələ 346:** Namazda şəkk[1] üç qisimdir:

a) Namazın özündə şəkk; b) Namazın hissələrində şəkk; c) Namazın rükətlərində şəkk.

**a) Namazın özündə şəkk**

**Məsələ 347:** İnsan namazın vaxtı keçəndən sonra onu qılıb-qılmadığına dair şəkk eləsə, yaxud qılmadığını zənn eləsə, onu yenidən qılması lazım deyil. Lakin namazın vaxtı keçməzdən qabaq qılıb-qılmadığına şəkk eləsə, gərək namazı qılsın; hətta qıldığına dair zənni olsa da, qılmalıdır.

---

[1] Şəkk iki və ya daha çox variant arasında bərabər şəkildə tərəddüd deməkdir; belə ki, variantların heç biri digərindən güclü olmasın. Əgər bir tərəf digərlərindən üstün və güclü olsa, güclü tərəf zənn, zəif tərəf isə vəhm (güman) adlanır.

**b) Namazın hissələrində şəkk**

**Məsələ 348:** Əgər namazqılan namaz əsnasında onun vacib əməllərindən birini yerinə yetirib-yetirmədiyinə dair şəkk eləsə, sonrakı əmələ başlamayıbsa, gərək onu yerinə yetirsin; əgər sonrakı əmələ (müstəhəb hissə olsa belə) başlayıbsa, öz şəkkinə fikir verməməlidir.

**Məsələ 349:** Əgər qiraətə (hətta "Ə`uzu billahi minəş-şəytanir-rəcim" cümləsinə) başlamazdan qabaq ehram təkbirini deyib-demədiyinə dair şəkk eləsə, onu deməlidir.

**Məsələ 350:** Əgər Həmd surəsini deyib-demədiyinə dair şəkk eləsə, (hətta "Əlhəmdu lillahi rəbbil-`aləmin" kimi müstəhəb hissə olan) sonrakı hissəyə başlamayıbsa, gərək Həmdi desin.

**Məsələ 351:** Əgər surəni deyib-demədiyinə dair şəkk eləsə, sonrakı hissəyə başlamayıbsa, onu deməlidir; əgər rükuya, qünuta, yaxud surədən sonrakı müstəhəb zikrlərə başlayıbsa, öz şəkkinə etina etməməlidir.

**Məsələ 352:** Səcdə üçün əyilməzdən qabaq rükunu yerinə yetirib-yetirmədiyinə dair şəkk eləsə, gərək rüku etsin.

**Məsələ 353:** Əgər ikinci və dördüncü rükətə qalxmazdan qabaq, yaxud təşəhhüdə başlamazdan qabaq bir, yoxsa iki səcdə etdiyinə dair şəkk eləsə, gərək bir səcdə də etsin. Həmçinin, qalxa-qalxa (tam

qalxmazdan öncə) bu barədə şəkk eləsə, gərək səcdəni yerinə yetirsin.

**Məsələ 354:** Əgər ayağa qalxmazdan öncə təşəhhüdü deyib-demədiyinə dair şəkk eləsə, gərək onu desin. Lakin qalxa-qalxa şəkk eləsə, şəkkinə fikir verməməlidir; habelə, sonrakı hissəyə başlayıbsa, (o hissə müstəhəb olsa belə) fikir verməməlidir.

**Məsələ 355:** Namazın salamını deyib-demədiyinə dair şəkk eləsə, əgər namazdan sonrakı dualara, yaxud başqa bir namaza başlayıbsa, yaxud hansısa hərəkətlə namazı pozubsa, məsələn, qiblədən üzünü döndərib namaz halından çıxıbsa, şəkkinə fikir verməməlidir. Əgər bu işləri görməzdən qabaq şəkk eləsə, gərək salamı desin.

**Məsələ 356:** Əgər bir ayəni oxuyan zaman əvvəlki ayəni oxuyub-oxumadığına dair şəkk eləsə, yaxud ayənin axırını oxuyarkən əvvəlini oxuyub-oxumadığına dair şəkk eləsə, şəkkinə etina etməməlidir.

**Məsələ 357:** Əgər namazın əməllərindən birini qurtarandan sonra onu düzgün yerinə yetirib-yetirmədiyinə dair şəkk eləsə, öz şəkkinə fikir verməsin; hərçənd, növbəti hissəyə başlamamış olsa da.

**Məsələ 358:** Əgər növbəti hissəyə başlamazdan qabaq namaz hissələrinin birində şəkk eləsə və onu yerinə yetirsə, sonra isə onu iki dəfə yerinə yetirdiyi

yadına düşsə, həmin hissə namazın rükn vaciblərindən olmasa, namazı batil deyil.

**Məsələ 359:** Əgər növbəti hissəyə başlayandan sonra qabaqkı hissəni yerinə yetirdiyinə dair şəkk eləsə və öz şəkkinə etina eləməsə, sonra həmin hissəni yerinə yetirmədiyini bilsə, əgər sonrakı ruknə başlamayıbsa, onu yerinə yetirməli və səhvən ondan qabaq yerinə yetirdiyi əməli yenə yerinə yetirməlidir. Lakin sonrakı rüknə başlamış olsa, tərk olunmuş hissə rükn olsa, namazı batildir; tərk olunmuş hissə rükn olmasa, namazı düzgündür. Əgər tərk olunmuş hissə bir səcdə və ya təşəhhüd olsa, namazdan sonra səcdənin qəzasını və vacib ehtiyata əsasən, təşəhhüdün də qəzasını yerinə yetirməli, sonra iki səhv səcdəsi etməlidir.

### c) Namazın rükətlərində şəkk

**Məsələ 360:** İnsan namazın rükətlərinin sayında şəkk eləsə, məsələn, üç, yoxsa dörd rükət qıldığını bilməsə, gərək əvvəlcə bir qədər fikirləşsin, şəkkinin bir tərəfinə əminlik və ya zənn yaransa, ona uyğun şəkildə namazını davam etdirsin və namazı düzgündür. Əgər bir tərəfə əminlik və ya zənn yaranmasa, aşağıda deyiləcək hökmlərə uyğun əməl etsin.

**Məsələ 361:** Namazın rükətlərində şəkk iki qisimdir:

**1.** Namazı batil edən şəklər;

**2.** Namazı batil etməyən şəklər.

**1: Namazı batil edən şəklər**

**Məsələ 362:** Namazın rükətlərinin sayına dair aşağıdakı şəklər namazı batil edir:

1. Sübh namazı və müsafir namazı kimi ikirükətli vacib namazlarda şəkk; ikirükətli ehtiyat namazlarının rükətlərinin sayında şəkk isə namazı batil etmir.

2. Şam namazının rükətlərində şəkk;

3. Dördrükətli namazlarda şəkkin bir tərəfi bir rükət olduqda; misal üçün, birlə iki və ya birlə üç arasında şəkk etdikdə.

4. Dördrükətli namazlarda ikinci səcdəni bitirməzdən öncə bir tərəfi iki, digər tərəfi ikidən çox olan şəkk; məsələn, iki ilə üç və ya iki ilə dörd arasında şəkk.

5. Namazın rükətlərinin sayında neçə rükət qılındığı bilinməyən şəkk.

**Məsələ 363:** Namazı batil edən şəklərin biri yarandıqda namazqılan, ehtiyata əsasən, dərhal namazı poza bilməz; gərək bir qədər fikirləşsin, şəkki möhkəmlənsin, (bir tərəfə dair əminlik və ya zənn yaranmasa) namazı pozsun.

**2. Düzgün şəklər**

**Məsələ 364:** Namazqılan dördrükətli namazın rükətlərinin sayında şəkk eləsə və bir qədər

fikirləşəndən sonra onda bir tərəfə dair əminlik və ya zənn yaransa, gərək ona uyğun şəkildə namazı davam etdirsin və namazı düzgündür. Lakin bir tərəfə zənn yaranmasa, aşağıdakı hökmlərə uyğun əməl etməlidir:

1. Əgər başını ikinci səcdədən qaldırandan sonra iki, yoxsa üç rükət qıldığına dair şəkk eləsə, üç rükət qıldığını qəbul edib bir rükət də qılmalı, namazı tamamlayandan sonra bir rükət ayaq üstə və ya iki rükət oturan halda (bir qədər sonra qeyd olunacaq şəkildə) ehtiyat namazı qılmalıdır.

2. İkinci səcdədən qalxandan sonra iki, yoxsa dörd rükət qıldığına dair şəkk eləsə, dörd rükət qıldığını qəbul edib namazı bitirməli, namazdan sonra ayaq üstə iki rükət ehtiyat namazı qılmalıdır.

3. Əgər ikinci səcdədən sonra iki, üç, yoxsa dörd rükət qıldığına dair şəkk eləsə, dörd rükət qıldığını qəbul edib namazdan sonra iki rükət ayaq üstə, iki rükət də oturduğu yerdə ehtiyat namazı qılmalıdır.[1]

4. Namazın hər hansı yerində üç, yoxsa dörd rükət qıldığına dair şəkk eləsə, dörd rükət qıldığını qəbul edib namazı bitirməli, namazdan sonra bir rükət ayaq üstə, ya da iki rükət oturan halda ehtiyat namazı qılmalıdır.

---

[1] Qeyd olunduğu kimi, bu üç şəkk ikinci səcdə bitməzdən qabaq baş versə, namaz batildir.

5. İkinci səcdədən sonra dörd, yoxsa beş rükət qıldığına dair şəkk eləsə, dörd rükət qıldığını qəbul edib namazı bitirməli, namazdan sonra (tərzi bəyan olunacaq şəkildə) iki səhv səcdəsi etməlidir.

6. Qiyamda ikən dörd, yoxsa beş rükət qıldığına dair şəkk eləsə, gərək (rüku etmədən) oturub təşəhhüd və salamı desin, namazdan sonra ayaq üstə bir rükət və ya oturan halda iki rükət ehtiyat namazı qılsın.[1]

**Məsələ 365:** Namazda düzgün şəklərdən biri yarandıqda da, qeyd olunduğu kimi, namazqılan əvvəlcə bir qədər fikirləşməli, şəkki yerində qaldığı təqdirdə müvafiq vəzifəsinə əməl etməlidir.

**Məsələ 366:** Namazı batil etməyən şəklərdən biri yarandıqda namazqılan namazı poza bilməz. Əgər belə etsə, günah etmişdir. Əgər namazı batil edən işlərdən birini görmədən, məsələn, qiblədən dönmədən yeni bir namaza başlasa, ikinci namaz da batildir. Lakin ikinci namaza birincini batil edən əməllərdən birini gördükdən sonra başlasa, ikincisi düzgündür.

**Məsələ 367:** Ehtiyat namazını vacib edən şəklərdən biri qarşıya çıxsa, insan namazdan sonra ehtiyat namazı qılmadan yeni namaza başlasa, günah etmişdir. Əgər namazı batil edən bir iş

---

[1] Düzgün şəklərin başqa növləri də var ki, az hallarda rast gəlinir və geniş fiqh kitablarında qeyd olunmuşdur.

görmədən namaza başlasa, ikinci namazı da batildir; əgər batil edən işlərdən birini görəndən sonra başlasa, ikinci namazı düzgündür.

**Məsələ 368:** Namazın rükətlərində zənnin hökmü əminlik kimidir. Yəni məsələn, üç, yoxsa dörd rükət qıldığına dair tərəddüd yaransa, hansı tərəfə ehtimalı çoxalsa, ona uyğun əməl etməlidir və namazı düzgündür.

**Məsələ 369:** Namazqılan əvvəldə şəkkin bir tərəfinə daha çox ehtimal versə, amma sonra hər iki tərəfi onun üçün bərabər olsa, gərək şəkk qaydalarına uyğun əməl etsin. Lakin əvvəldə iki tərəf də onun nəzərində bərabər olsa və vəzifəsinə uyğun əməl etmək istəsə, sonra isə bir tərəfə ehtimalı çoxalsa, namazı həmin ehtimalına uyğun şəkildə tamamlamalıdır.

## Ehtiyat namazı

**Məsələ 370:** Ehtiyat namazı vacib olduqda insan namazın salamından sonra (namaz şəklini pozmadan) cəld ehtiyat namazı niyyəti edib təkbir deməli, Həmd surəsini oxumalı, (surə oxumadan) rükuya getməli, iki səcdəni yerinə yetirməli, bir rükət ehtiyat namazı vacib olubsa, səcdələrdən sonra təşəhhüd və salam deməlidir. Lakin iki rükət ehtiyat namazı vacib olubsa, səcdələrdən sonra birinci rükət

kimi bir rükət də qılmalı, sonra təşəhhüd və salamı yerinə yetirməlidir.

**Məsələ 371:** Ehtiyat namazında surə və qünut yoxdur, niyyəti dillə deyilməməlidir və vacib ehtiyata əsasən, Həmd surəsi, hətta onun Bismillahı da astadan deyilməlidir.

**Məsələ 372:** Əgər ehtiyat namazını qılmazdan qabaq namazını düzgün qıldığı yadına düşsə, ehtiyat namazını qılması lazım deyil; həmçinin, ehtiyat namazını qılarkən yadına düşsə, onu tamamlaması vacib deyil.

## Əhəmiyyətsiz şəklər

**Məsələ 373:** Etina etməyə dəyməyən əhəmiyyətsiz şəklər aşağıdakılardır:

**1.** Yeri keçmiş şəkk;

**2.** Salamdan sonrakı şəkk;

**3.** Namazın vaxtı bitəndən sonrakı şəkk;

**4.** İmamın və iqtida edənin şəkki;

**5.** Çox şəkk edənin şəkki;

**6.** Müstəhəb namazlarda şəkk.

### 1. Yeri keçmiş şəkk

**Məsələ 374:** İnsan namaz əsnasında namazın vacib əməllərindən birini yerinə yetirib-yetirmədiyinə dair şəkk eləsə, əgər sonrakı hissəyə başlayıbsa, o şəkkə etina etməməlidir; məsələn,

rükuda şəkk edir ki, Həmd surəsini oxuyub, yoxsa yox.[1]

### 2. Salamdan sonrakı şəkk

**Məsələ 375:** Əgər namazın salamından sonra namazın düzgün olub-olmadığına dair şəkk eləsə, məsələn, rükunu yerinə yetirib-yetirmədiyinə dair şəkk eləsə, yaxud dördrükətli namazın salamından sonra dörd, yoxsa beş rükət qıldığına dair şəkk eləsə, öz şəkkinə fikir verməməli və namazını düzgün qılmış kimi qəbul etməlidir; yəni birinci misalda rükunu yerinə yetirmiş kimi, ikinci misalda da dörd rükət qılmış kimi qəbul etməlidir.

**Məsələ 376:** Əgər salamdan sonra namazın rükətlərinə dair şəkk eləsə və şəkkin hər iki tərəfi namazın batil olmasına səbəb olsa, məsələn, dörd rükətli namazın salamından sonra üç, yoxsa beş rükət qıldığına dair şəkk eləsə, namaz batildir.

### 3. Namazın vaxtı bitəndən sonra şəkk

**Məsələ 377:** Əgər namazın vaxtı bitəndən sonra namazı qılıb-qılmadığına dair şəkk eləsə, şəkkinə əhəmiyyət verməməlidir.

---

[1] Bu qismin hökmləri namazın hissələrinə dair şəklər bəhsində qeyd olundu.

**4. İmamın və iqtida edənin şəkki**

**Məsələ 378:** Əgər imam rükətlərin sayında şəkk eləsə, məsələn, üç, yoxsa dörd rükət qıldığını bilməsə, iqtida edən isə onun dörd rükət qıldığına əmin olsa, yaxud zənn etsə və bunu imama bildirsə, imam namazını bitirməlidir, ehtiyat namazı da lazım deyil. Həmçinin, neçə rükət qıldığına dair imamın əminliyi və ya zənni olsa, iqtida edən belə şəkkinə fikir verməməlidir.

**5. Çox şəkk edənin şəkki**

**Məsələ 379:** Adətən bir namazda üç dəfə şəkk edən, yaxud üç ardıcıl namazda azı bir dəfə şəkk edən şəxsin çox şəkk etməsi qorxuya, qəzəbə və ya diqqət dağınıqlığına səbəb olan bir hadisəyə görə deyilsə, o, çox şəkk edəndir və şəkkinə etina etməməlidir.

**Məsələ 380:** Çox şəkk edən adam bir işi yerinə yetirməkdə şəkk eləsə, o iş namazı batil eləmirsə, həmin əməli yerinə yetirdiyini qəbul etməlidir; məsələn, səcdə edib-etmədiyinə dair şəkk eləsə, səcdə etmiş kimi qəbul etməlidir. Lakin həmin iş namazı batil edərsə, onu etməmiş saymalıdır; məsələn, bir, yoxsa artıq rüku etdiyinə dair şəkk eləsə, rükunun artığı namazı batil etdiyinə görə yalnız bir rüku etmiş kimi qəbul etməlidir.

**Məsələ 381:** Namazın bir hissəsində çox şəkk edən adam həmin hissədə çox şəkk edən hökmündədir və

namazın digər hissələrində şəkk eləsə, adi insanların vəzifəsinə uyğun əməl etməlidir. Misal üçün, səcdə məsələsində çox şəkk edən adam rükunu edib-etməməsində şəkk eləsə, həmin şəkkin göstərişinə uyğun əməl etməlidir; yəni ayaq üstədirsə, rükuya getməlidir, səcdəyə getmişdirsə, etina etməməlidir.

**Məsələ 382:** Bəzi namazlarda, misal üçün, Həmd və surəsi ucadan qılınan namazlarda şəkk edən şəxs astadan qılınan namazlarda şəkk eləsə, şəkk göstərişlərinə uyğun rəftar etməlidir.

**Məsələ 383:** Xüsusi bir yerdə namaz qılarkən çox şəkk edən insan başqa bir yerdə namaz qılarkən şəkk eləsə, gərək şəkk göstərişlərinə uyğun əməl etsin.

**Məsələ 384:** İnsan çox şəkk edən olub-olmadığını bilməsə, çox şəkk edən hökmündə deyil və şəkk göstərişlərinə uyğun əməl etməlidir. Çox şəkk edən insan da adi hala döndüyünə əmin olmayınca öz şəklərinə fikir verməməlidir.

**6. Müstəhəb namazlarda şəkk**

**Məsələ 385:** İnsan müstəhəb namazın rükətlərinin sayında şəkk eləsə, şəkkinin hansı tərəfini istəsə, qəbul edə bilər. Lakin çox tərəfi namazın batil olmasına səbəb olursa, bu zaman az tərəfi qəbul etməlidir; məsələn, sübh nafiləsini iki, yoxsa üç rükət qıldığına dair şəkk eləsə, iki rükət qılmış kimi qəbul etməlidir. Lakin əgər bir, yoxsa iki rükət qıldığına

dair şəkk eləsə, şəkkinin hansı tərəfinə əməl etsə, namazı düzgündür.

**Məsələ 386:** İnsan müstəhəb namazın hissələrinin birində şəkk eləsə, istər rükn olsun, istər qeyri-rükn, yeri keçməmişdirsə, onu yerinə yetirməlidir; əgər yeri keçmişdirsə, şəkkinə fikir verməməlidir.

**Məsələ 387:** Rüknü artırmaq müstəhəb namazı batil etməz, ancaq azaltmaq, vacib ehtiyata əsasən, batil edər. Odur ki, nafilə namazının hissələrindən birini yaddan çıxarsa və sonrakı rüknə başlayandan sonra yadına düşsə, gərək əvvəlcə yaddan çıxardığı hissəni yerinə yetirsin, sonra həmin rüknə başlasın; məsələn, rükuda yadına düşsə ki, surəni oxumayıb, qayıdıb surəni oxumalı, yenə rükuya getməlidir.

## Səhv səcdəsi

**Məsələ 388:** Namazqılan üç halda namazın salamından sonra (qeyd olunacaq göstərişə uyğun şəkildə) iki səhv səcdəsi etməlidir:

1. Namaz əsnasında səhvən danışsa;

2. Dördrükətli namaz əsnasında ikinci səcdədən sonra dörd, yoxsa beş rükət qıldığına dair şəkk eləsə;

3. Təşəhhüdü yaddan çıxarsa.

İki halda da vacib ehtiyata əsasən, iki səhv səcdəsi etmək lazımdır:

4. Bir səcdəni unutduqda;

5. Salamın yeri olmayan halda səhvən namazın salamını dedikdə.

**Məsələ 389:** Müstəhəb ehtiyata əsasən, (sözügedən yerlərdən başqa) səhvən namazda edilən və yeri keçəndən sonra bilinən hər bir artıqlıq və əskiklik üçün iki səhv səcdəsi edilsin; məsələn, insan səhvən təsbihatı deməsə və rükuda, yaxud rükudan sonra yadına düşsə.

**Səhvən danışmaq**

**Məsələ 390:** İnsan namazda bilmədən, yaxud namazın bitdiyini düşünərək danışsa, iki səhv səcdəsi etməlidir.

**Məsələ 391:** Ah çəkərkən və öskürərkən ağızdan çıxan hərfə görə səhv səcdəsi vacib deyil. Lakin, misal üçün, bilmədən "ah" və ya "ax" desə, səhv səcdəsi etməlidir.

**Məsələ 392:** Namazqılan səhv dediyi bir sözü yenidən düzgün şəkildə desə, iki dəfə dediyindən ötrü səhv səcdəsi vacib deyil.

**Məsələ 393:** Namazqılan namaz zamanı səhvən bir neçə söz desə, ancaq onların hamısı bir dəfə danışmaq hesab olunsa, iki səhv səcdəsi kifayətdir.

**Yersiz salam**

**Məsələ 394:** İnsan salamın yeri olmadığı halda səhvən "Əssəlamu `ələyna və `əla `ibadillahis-salihin", yaxud "Əssəlamu `ələykum və rəhmətullahi

və bərəkatuh" desə, vacib ehtiyata əsasən, iki səhv səcdəsi etməlidir. Səhvən salamın bir hissəsini desə, bu zaman da müstəhəb ehtiyata əsasən, iki səhv səcdəsi etməlidir.

**Məsələ 395:** Salamın yeri olmadığı halda səhvən hər üç salamı desə, iki səhv səcdəsi kifayətdir.

**Unudulmuş səcdə və ya təşəhhüd**

**Məsələ 396:** İnsan bir səcdəni və ya təşəhhüdü yadından çıxarsa və növbəti rükətin rükusundan qabaq yadına düşsə, tez oturub səcdəni və ya təşəhhüdü yerinə yetirməlidir.

**Məsələ 397:** Əgər bir səcdəni və ya təşəhhüdü yadından çıxarsa və növbəti rükətin rükusunda, yaxud rükudan sonra yadına düşsə, namazın salamından sonra səcdəni, vacib ehtiyata əsasən, təşəhhüdü də qəza etməli, sonra təşəhhüd üçün iki səhv səcdəsi, səcdə üçün də, vacib ehtiyata əsasən, iki səhv səcdəsi etməlidir.

**Səhv səcdəsinin edilmə tərzi**

**Məsələ 398:** Səhv səcdəsi etmək üçün namazın salamından sonra dərhal səhv səcdəsi niyyəti ilə alını səcdə düzgün olan bir şeyə qoymaq və ehtiyata əsasən, belə demək lazımdır: "Bismillahi və billah. Əssəlamu `ələykə əyyuhən nəbiyyu və rəhmətullahi və bərəkatuh". Sonra səcdədən qalxmalı, yenə

səcdəyə gedib həmin zikri deməli, sonra təşəhhüd və salamı yerinə yetirməlidir.

## Səhv səcdəsinin hökmləri

**Məsələ 399:** İnsan namazın salamından sonra qəsdən səhv səcdəsini etməsə, günah etmişdir və onu bacardıqca tez yerinə yetirmək vacibdir. Əgər səhvən yerinə yetirməmiş olsa, nə vaxt yadına düşsə, tez yerinə yetirməlidir. Lakin istənilən halda namazı yenidən qılması lazım deyil.

**Unudulmuş səcdə və ya təşəhhüdün qəzası**

**Məsələ 400:** İnsan namazın rükn olmayan vaciblərindən birini səhvən tərk etsə, namaz batil olmaz və qəzası da lazım deyil. Lakin səcdədə və vacib ehtiyata əsasən, təşəhhüddə belə deyil; namazdan sonra onların qəzası yerinə yetirilməlidir.

**Məsələ 401:** Səcdələrdən birini səhvən tərk etsə və növbəti rükətin rükusunda, yaxud ondan sonra yadına düşsə, namazdan sonra qəzasını yerinə yetirməlidir.

**Məsələ 402:** İnsan təşəhhüdü yadından çıxarsa və növbəti rükətin rükusunda, yaxud ondan sonra yadına düşsə, namazı batil deyil, amma vacib ehtiyata əsasən, namazın salamından sonra qəzasını etməlidir.

**Məsələ 403:** Namazdan sonra yerinə yetirilən səcdə və təşəhhüd qəzasında namazın bütün şərtlərinə əməl olunmalı, məsələn, bədən və paltar pak olmalı, insan üzü qibləyə oturmalıdır və s.

**Məsələ 404:** Namazın salamından sonra təşəhhüdün qəzasını edən şəxsin təşəhhüd qəzasından sonra salam deməsi lazım deyil; səcdənin qəzasını edən şəxsin də ondan sonra təşəhhüd və salamı deməsi lazım deyil.

**Məsələ 405:** Namazın salamı ilə səcdə və ya təşəhhüdün qəzası arasında namazı batil edən işlərdən biri baş versə, məsələn, insan qiblədən dönsə, gərək səcdə və ya təşəhhüdün qəzasını etsin və namazı düzgündür.

**Məsələ 406:** Səcdə və ya təşəhhüdü qəza edən şəxsə başqa bir səbəbdən səhv səcdəsi vacib olsa, gərək namazdan sonra əvvəlcə səcdə və ya təşəhhüdün qəzasını etsin, sonra səhv səcdələrini yerinə yetirsin.

# Müsafir namazı

**Məsələ 407:** Səfərdə olan şəxs, qəsr şərtləri olduğu təqdirdə, gündəlik vacib dördrükətli namazlarını iki rükət qılmalıdır.

**Məsələ 408:** Səfərdə namaz səkkiz şərtlə qəsr olur:

1. Şəri məsafə;
2. Şəri məsafə niyyəti;

3. Şəri məsafə niyyətinin davamlılığı (şəri məsafə niyyətindən daşınmamaq və ya tərəddüd etməmək);

4. Vətəndən keçməmək və ya on gün qalmaq qərarına gəlməmək;

5. Səfərin günah səfəri olmaması;

6. Yurd-yuvasız olmamaq;

7. Səfərin peşə olmaması;

8. Tərəxxüs həddinə çatmaq.

## Birinci şərt: Şəri məsafə

**Məsələ 409:** Namazın qəsr olmasına səbəb olan məsafə ən azı 8 fərsəngdir. Səfərin uzunluğu bu məsafədən az olsa, namaz qəsr olmaz.

**Məsələ 410:** Namazın qəsr olmasına səbəb olan şəri məsafə (8 fərsəng) (xatircəmliyə səbəb olan tədqiqatlara əsasən) 41 km-ə bərabərdir.

**Məsələ 411:** Şəri məsafənin hesablanma meyarı səfərin başlandığı şəhərin axırı ilə gedilən şəhərin əvvəli arasındakı məsafədir;[1] istər şəhər böyük şəhərlərdən olsun, istər olmasın.

**Məsələ 412:** Təyinat nöqtəsi şəhərin özü deyil, onun ətrafında xüsusi və müstəqil bir yer olsa, belə ki, şəhərə çatmaq el arasında təyinat yerinə çatmaq hesab olunmasa, əslində, şəhərə giriş və ondan keçid

---

[1] Səfərin başladığı şəhərin son evləri ilə gedilən şəhərin ilk evləri arasındakı məsafə.

təyinat yerinə çatmaq üçün yol olsa, – necə ki, bəzi universitetlər, hərbi hissələr və ya xəstəxanalar şəhərin kənarında yerləşir – bu zaman məsafənin sonu nəzərdə tutulan yerdir, şəhərin əvvəli deyil.

**Məsələ 413:** Namazın qəsrinə səbəb olan məsafənin səfərin bir başında (imtidadi şəkildə) qət edilməsi lazım deyil, gedib-gəlməklə birlikdə (təlfiqi şəkildə) qət edilsə də, namazın qəsrinə səbəb olar.

**Məsələ 414:** İmtitadi məsafə odur ki, başlanğıcdan təyinat nöqtəsinə, yaxud təyinat nöqtəsindən başlanğıca qədərki məsafə ən azı 8 fərsəng (41 km) olsun. Təlfiqi məsafə isə odur ki, başlanğıcdan təyinat yerinə və təyinat yerindən başlanğıca qədərki məsafənin hər biri 8 fərsəngdən az, ümumi gediş-gəliş isə ən azı 8 fərsəng olsun.

**Məsələ 415:** Təlfiqi məsafədə gediş yolu ən azı 4 fərsəng (20,5 km) olmalıdır. Buna görə də, 5 fərsəng gedib 3 fərsəng qayıtsa, namazı qəsrdir, ancaq 3 fərsəng gedib, 5 fərsəng qayıtsa, tamdır. Lakin qayıdış yolu təkbaşına 8 fərsəng və ya ondan çox olsa, bu zaman da namaz səfərin əvvəlindən qəsr olacaq.

**Məsələ 416:** Təlfiqi səfərdə insanın həmin gün və ya axşam qayıtması şərt deyil. Əgər bir neçə gün qalıb qayıtsa da, səfəri kəsən amillərdən biri (məsələn, on gün qalmaq niyyəti) qarşıya çıxmasa, namazı qəsrdir. Həmçinin, imtidad məsafəsində 8 fərsəngə çatmazdan qabaq bir neçə gün bir yerdə

qalmaq istəsə, (səfəri kəsən bir amil qarşıya çıxmayıbsa) namazı qəsrdir.

**Məsələ 417:** İnsan 4 fərsəngdən az məsafəni (məsələn, 1 fərsəng yarımlıq yolu) bir neçə dəfə gedib-gəlsə, belə ki, ümumilikdə 8 fərsəng və ya daha çox olsa, namaz qəsr olmaz.

**Məsələ 418:** Çoxlu gedəcək yeri olan müsafir növbəti yerə getməsi üçün getdiyi yolun bir hissəsini qayıtmalı olsa, əgər (növbəti yerə getmək üçün qayıtdığı məsafəni də nəzərə almaqla) başlanğıcdan son təyinat yerinə qədər imtidadi yolda ən azı 8, təlfiqi yolda da ən azı 4 fərsəng (qayıdışla birlikdə 8 fərsəng və ya daha çox) getsə, namazı qəsrdir; təkrar məsafə nəzərə alınmayanda bu miqdardan az olsa belə.

**Məsələ 419:** Təyinat yerinə çatmaq üçün biri ən azı 8 fərsəng olan uzun, o biri də 8 fərsəngdən az olan iki qısa yol olsa, bunun bir neçə variantı ola bilər:

1. Uzun yolla getsə, namaz qəsrdir; istər həmin yolla qayıtmaq niyyəti olsun, istər olmasın.

2. Qısa yolla getsə və o yol ən əzı 4 fərsəng olsa, namaz qəsrdir; istər həmin yolla qayıtmaq niyyəti olsun, istər olmasın.

3. Qısa yol 4 fərsəngdən az olsa və o yolla gedib uzun yolla qayıtmaq istəsə, namaz qəsrdir.

4. Qısa yol 4 fərsəngdən az olsa və o yolla gedib həmin yolla da qayıtmaq istəsə, namaz tamdır.

**Məsələ 420:** Qabaqkı məsələyə əsasən, əgər hər iki yol 8 fərsəngdən az olsa, ancaq yolların biri ən azı 4 fərsəng olsa və insan həmin yolla getsə və ümumi gediş-gəlişi ən azı 8 fərsəng olsa, namazı qəsrdir; əks təqdirdə, namaz tam olacaq.

**Məsələ 421:** Əgər 8 fərsənglik məsafə şəhər xaricində və tərəxxüs həddindən kənarda dövrə vurmaq formasında olsa, bu yolda xüsusi təyinat yeri olmasa və məqsədi yalnız yolda hərəkət olsa; məsələn, yolun vəziyyətini öyrənmək, yaxud yeni avtomobilinin texniki aktivliyi üçün şəhərdən kənardakı çevrə yolunda dövrə vurursa, bu zaman imtidad məsafəsi sayılacaq və namaz qəsr olacaq.

**Şəri məsafəni sübut etməyin yolları**

**Məsələ 422:** İnsan öz səfərinin ən azı 8 fərsəng olduğunu bilsə, yaxud buna xatircəmliyi olsa və ya iki ədalətli şəxs bunu söyləsə, namazını qəsr qılmalıdır.

**Məsələ 423:** El arasında məşhurluq şəri məsafənin həyata keçdiyinə dair əminlik və ya xatircəmlik yaratsa, ona əsaslanıb namazı qəsr qılmaq olar. Əks təqdirdə, hətta gümana və zənnə səbəb olsa da, etibarsızdır.

**Məsələ 424:** İnsan məsafənin nə qədər olduğuna dair şəkk eləsə və araşdırmaq ona çətin olmasa, məsələn, avtomobilin məsafəölçəninə baxsa və ya bir neçə nəfərdən soruşsa, vacib ehtiyata əsasən, gərək

araşdırsın. Lakin yenə də nəticəyə çata bilməsə, namazı tamdır.

**Məsələ 425:** Müqəllid müctəhidinin fətvasını bilməsə, məsələn, onun təlfiqi məsafə barədə fətvasının imtidadi məsafə kimi olub-olmadığını bilməsə, öz müctəhidinin fətvasını araşdırmalıdır. Əgər araşdıra bilmir və ya araşdırmaq istəmirsə, gərək ehtiyat edib namazı həm tam, həm də qəsr qılsın.

**Məsələ 426:** Məsafədə şəkk etdiyinə görə vəzifəsi namazı tam qılmaq olan şəxs, əksinə, qəsr qılsa, qıldığı namaz kifayət etmir və onu tam şəkildə yenidən qılmalıdır. Əlbəttə, namazdan sonra vəzifəsinin, əslində, qəsr qılmaq olduğunu bilsə, qıldığı namazı qürbət qəsdilə olmuşdursa, kifayət edir və yeniləmək lazım deyil.

**Məsələ 427:** İnsan başlanğıcdan təyinat yerinə qədər məsafənin şəri məsafə qədər olduğunu düşünüb namazı qəsr qılsa, sonradan məsafənin az olduğu üzə çıxsa, gərək namazı tam şəkildə qılsın, vaxtı keçmişsə, qəza etsin.

**Məsələ 428:** Əgər qət etdiyi məsafənin 8 fərsəng olmadığını düşünüb namazı tam qılsa, sonra isə şəri məsafə qədər olduğu üzə çıxsa, gərək namazı qəsr şəklində qılsın, vaxtı keçmişsə, qəza etsin.

**Məsələ 429:** Müəyyən bir yerə getmək istəyən və oraya qədər məsafənin şəri məsafə qədər olub-olmamasına şəkk edən, yaxud şəri məsafə qədər

olmadığını düşünən şəxsə (hər iki halda vəzifə namazı tam qılmaqdır) yolda məsafənin şəri məsafə qədər olduğu sübut olunsa, o andan etibarən namazını qəsr qılmalıdır, məsafənin sübut olunduğu yerdən təyinat yerinə qədərki məsafənin şəri məsafə qədər olması lazım deyil.

## İkinci şərt: Şəri məsafə niyyəti

**Məsələ 430:** İnsan şəhərdən çıxanda (imtidadi və ya təlfiqi) 8 fərsəng qət etmək niyyəti olmalıdır. Bu baxımdan, əvvəldə şəri məsafədən az, məsələn, 3 fərsəng getməyi qəsd etsə, oraya çatandan sonra daha 5 fərsəng də gedib on gün qalmaq qərarına gəlsə, (ümumilikdə 8 fərsəng olsa da) belə bir səfərdə namaz qəsr olmur.

**Məsələ 431:** Hərəkətə başlayandan nə qədər gedəcəyini bilməyən şəxsin, məsələn, bir cinayətkarı ələ keçirməyə çalışan və (imtidadi və ya təlfiqi) 8 fərsəng gedib-getməyəcəyini bilməyən polisin namazı qəsr deyil; 8 fərsəng getsə belə. Əlbəttə, əgər qayıdış məsafəsi 8 fərsəng olsa, qayıdarkən yolda namazı qəsr olacaq. Həmçinin, yolda ən azı 4 fərsəng də gedəcəyini və qayıtmaqla birlikdə 8 fərsəng olacağını bilsə, həmin yerdən etibarən namazı qəsrdir.

**Məsələ 432:** Şəri məsafə qədər gedəcəyini bilmək bu məsafə qədər getmək niyyəti kimidir. Bu

baxımdan, insan şəri məsafə qədər gedəcəyini bilsə, niyyət üçün kifayət edir və namazı qəsrdir.

**Məsələ 433:** İnsan şəri məsafə qədər yol gedəcəyini planlaşdırsa, müəyyən bir təyinat yeri olmasa belə, namazı qəsrdir.

**Məsələ 434:** Şəri məsafə niyyəti qəti olmalıdır. Bu baxımdan, səfəri hansısa amillə şərtləndirsə, namaz qəsr olmaz. Misal üçün, bir şəxs 4 fərsəngdən yaxın bir yerə getmək istəyirsə, orada səfər yoldaşı tapacağı təqdirdə səfərə davam edəcəyini, tapmayacağı təqdirdə qayıdacağını düşünürsə, bu adamın niyyəti qəti deyil və namazını tam qılmalıdır.

**Məsələ 435:** Yuxarıdakı məsələyə əsasən, əgər yoldaş tapacağını bilirsə, əslində, 8 fərsəng niyyəti etmiş sayılır və tərəxxüs həddindən sonra namazı qəsr qılmalıdır.

**Məsələ 436:** Şəri məsafə qədər yol getmək istəyən şəxsin niyyəti (8 fərsəngə çatmazdan öncə) yolda on gün qalmaq olsa, namazı tamdır. Lakin məsafənin bir qədərini gedəndən sonra on gün qalmaq niyyətindən daşınsa, yolun qalan hissəsi, təlfiqi şəkildə olsa belə, şəri məsafə qədər olsa və gediş yolu (yolun qalanı) ən azı 4 fərsəng olsa, yaxud qayıdışı təklikdə 8 fərsəng olsa, namazı qəsr, əks təqdirdə, tamdır.

**Məsələ 437:** Əgər imtidadi məsafədə 8 fərsəngə çatmazdan qabaq yolüstü bir yerdə on gün qalmaqla

bağlı tərəddüdü olsa, əslində, şəri məsafəni qət etmək niyyəti yoxdur və namazı tamdır.

**Məsələ 438:** Təlfiqi məsafədə təyinat yerində, ya ondan qabaq, ya qayıdanda (8 fərsəngi qət etməzdən öncə) bir yerdə on gün qalmaq niyyəti ilə bağlı tərəddüdü olsa, deməli, 8 fərsəng niyyəti həyata keçməyib və namaz tamdır.

**Məsələ 439:** Məsafəni dayanmadan qət etmək lazım deyil. Şəri məsafə qədər yol getmək istəyən şəxs iki-üç fərsəng gedəndən sonra haradasa bir-iki gecə qalsa, sonra məsafənin bir hissəsini də gedib yenə bir neçə gecə dayansa, nə qədər ki bir yerdə on gün qalmaq niyyəti yoxdur, namazı qəsrdir.

**Səfərdə tabeliyin hökmləri**

**Məsələ 440:** Səfərdə ixtiyari və ya icbari şəkildə başqasına tabe olan şəxs tabe olduğu adamın şəri məsafə qədər gedəcəyini bilsə, onun namazı da qəsr olacaq.

**Məsələ 441:** İnsan tabe olduğu şəxsin şəri məsafə qədər gedib-getməyəcəyini bilməsə, soruşması vacib deyil. Tabe olunan şəxsin də ona məlumat verməsi vacib deyil. İnsan tabe olduğu adamın şəri məsafə niyyətindən xəbərdar olmayınca namazı tamdır.

**Məsələ 442:** İnsan tabe olduğu şəxsin şəri məsafə niyyətinin olmadığını düşünsə və yolda belə bir niyyətinin olduğunu bilsə, yolun qalanı (imtidadi və ya təlfiqi) şəri məsafədən az olsa, namazı tamdır.

**Məsələ 443:** İnsanı zorla bir yerə aparırlarsa və o, 8 fərsəng məsafəlik bir yerə aparıldığını bilirsə, namazı qəsrdir.

## Üçüncü şərt: Şəri məsafə niyyətinin davamlılığı

**Məsələ 444:** Namazın qəsr olmasının üçüncü şərti şəri məsafə niyyətinin davam etməsidir. Əgər bu şərt yolda ortadan götürülsə, digər şərtlər mövcud olsa belə, namaz tamdır. Misal üçün, 8 fərsənglik yol getmək istəyən şəxs iki-üç fərsəng gedəndən sonra səfəri davam etdirmək fikrindən daşınsa və ya bu barədə tərəddüd etsə, ancaq yolu itirib niyyətsiz halda həmin 8 fərsənglik yerə getsə, namazı tamdır.

**Məsələ 445:** İnsan səfərin əvvəlində 8 fərsənglik bir yerə getməyi planlaşdırsa, ancaq 4 fərsəngə çatmazdan qabaq, səfərinin əvvəlindən 8 fərsənglik məsafədə yerləşən başqa bir yerə getsə, namazı qəsrdir.

**Məsələ 446:** İmtidadi şəkildə 8 fərsəng qət etmək istəyən şəxs 4 fərsəngə çatandan sonra fikrindən dönsə və həmin yolla qayıtmaq istəsə (yəni imtidadi məsafəni təlfiqiyə çevirsə) namazı qəsrdir.

**Məsələ 447:** 8 fərsəng və ya daha artıq məsafə getmək istəyən şəxs 4 fərsəngə çatmazdan qabaq fikrindən dönsə və ya tərəddüd etsə, namazı tamdır.

Yenə səfərini davam etdirmək qərarına gəldikdə isə bunun bir neçə variantı var:

1. Tərəddüd etdiyi və ya səfərdən daşındığı halda bir yerdə dayanmışdırsa, bu zaman namazı qəsrdir; istər yolun qalanı təkbaşına şəri məsafə qədər olsun, istər olmasın. Hətta yenidən getmək qərarına gələndən və hərəkətdən öncə orada namaz qılmaq istəsə, gərək qəsr qılsın.

2. Tərəddüd etdiyi və ya səfərdən daşındığı zaman məsafənin bir qədərini qət etmişdir, amma yolun qalanı (imtidadi və təlfiqi) şəri məsafə qədərdir; bu zaman tərəddüd içində qət etdiyi məsafədə namazı tam, yenidən səfər niyyəti edəndən sonra isə qəsrdir.

3. Tərəddüd edəndə və ya səfərdən daşınanda məsafənin bir qədərini getmişdirsə, qalanı da şəri məsafədən azdırsa, namaz tamdır. Lakin fikrindən dönəndən və ya tərəddüd edəndən öncəki məsafə səfəri davam etdirmək istədikdən sonrakı məsafə ilə birlikdə şəri məsafəyə çatırsa, vacib ehtiyata əsasən, namazı həm tam, həm qəsr qılmalıdır.

**Məsələ 448:** Şəri məsafə niyyəti ilə yola çıxmış və tərəxxüs həddini keçəndən sonra namazını qəsr qılmış şəxs 4 fərsəngə çatmazdan qabaq niyyətindən dönsə və ya on gün qalmaq niyyəti etsə, vacib ehtiyata əsasən, qəsr qıldığı namazlarını yenidən tam qılmalı, vaxtı keçmişsə, qəza etməlidir.

## Dördüncü şərt: Vətəndən keçməmək və ya on gün qalmaq qərarına gəlməmək

**Məsələ 449:** Namazı qəsr edən şərtlərdən biri budur ki, səfərin əvvəlindən və ya səfər əsnasında (8 fərsəngə çatmazdan qabaq) yolda bir yerdə on gün qalmaq niyyəti etməsin və ya vətənindən keçməsin.

**Məsələ 450:** Əgər səfərin əvvəlindən və ya səfər əsnasında 8 fərsəngə çatmazdan qabaq bir yerdə on gün qalmaq və ya vətənindən keçmək qərarına gəlsə, namazı səfərin əvvəlindən tamdır. Həmçinin, vətənindən və ya on gün qaldığı yerdən çıxandan sonra yolun qalanı hətta təlfiqi şəkildə də 8 fərsəng olmasa, namaz tamdır.

**Məsələ 451:** Qabaqkı məsələyə əsasən, əgər səfər əsnasında on gün qalmaq və ya vətəndən keçməklə bağlı tərəddüd etsə, şəri məsafə niyyəti həyata keçməyib və namazı tamdır.

## Beşinci şərt: Səfərin icazəli olması

**Məsələ 452:** Namazı qəsr edən şərtlərdən biri də səfərin icazəli olması (haram olmamasıdır). Bu baxımdan, insan haram səfərə getsə, - istər səfərin özü haram olsa, məsələn, müharibədən fərarilik etsə, istər haram bir iş üçün, məsələn, oğurluq üçün səfər etsə, – namazı tamdır.

**Məsələ 453:** Əgər səfər vacib bir işin tərk olunmasına səbəb olsa, insanın səfərdə məqsədi vacibi tərk etmək olsa, məsələn, borcunu qaytarmamaq üçün səfərə getsə, bu zaman namaz tamdır. Lakin niyyəti vacibi tərk etmək olmasa, vacib məcburən tərk olunsa da, günah səfəri sayılmır və namaz qəsrdir.

**Məsələ 454:** İnsan qəsb olunmuş nəqliyyat vasitəsilə səfər etsə, yaxud qəsb olunmuş yerdən keçsə, günah səfəri hökmündə deyil və namaz qəsrdir; baxmayaraq ki, müstəhəb ehtiyata əsasən, həm qəsr, həm tam qılmalıdır.

**Məsələ 455:** Səfərdə bir zalıma yoldaşlıq etsə, bu yoldaşlıq məcburən və ikrahla, yaxud halal və yaxşı məqsədlərə görə, məsələn, onun zülmünün qarşısını almaq üçün baş tutsa, namaz qəsrdir. Lakin yoldaşlıq ixtiyari şəkildə və haram məqsədlə olsa, yaxud haram məqsədsiz olsa, amma zalımı gücləndirsə və ya zülmünə kömək etsə, səfər haram və namaz tamdır.

**Məsələ 456:** Müsafir səfərinin haram olub-olmamasında şəkk eləsə, haram deyil kimi qəbul edib namazı qəsr qılmalıdır. Lakin həmin səfər əvvəldən haram imişsə və onun yenə haram olub-olmamasında şəkk edirsə, bu zaman haram səfər kimi qəbul etməlidir və namazı tamdır.

**Səfərin icazəli olmasının davam etməsi**

**Məsələ 457:** Namazın qəsr olması üçün səfərin əvvəldə icazəli olması yetərli deyil, gərək bütün səfər boyunca icazəli olsun. Bu baxımdan, yolda insanın niyyəti günaha dəyişsə, səfər haram və namaz tam olar, hətta şəri məsafə qədər yol getmiş olsa da.

**Məsələ 458:** İnsan halal səfərə çıxsa və yolda (8 fərsəngə çatmazdan qabaq) vəzifəsinə uyğun olaraq namazını qəsr qılsa, sonra niyyəti harama dönsə, gərək qəsr qıldığı namazını tam qılsın, vaxtı keçibsə, qəza etsin.[1]

**Məsələ 459:** İnsan halal səfərə çıxsa, təyinat yerinə çatandan sonra başqa bir haram səfər qərarına gəlsə, (məsələn, cəbhədən qaçmaq niyyəti ilə öz evinə qayıtmaq istəsə) haram səfər (cəbhədən qaçmaq) qərarına gələndən sonra namazı tamdır. Haram səfər qərarı verəndən hərəkətə başlayana qədərki müddətdə isə, müstəhəb ehtiyat həm qəsr, həm tam qılmaqdır.

**Məsələ 460:** İnsan halal niyyətlə səfərə başlasa və şəri məsafəni qət edəndən sonra dayandığı yerdə niyyətini harama çevirsə, bu zaman hərəkətdən öncə namaz qılmaq istəsə, gərək tam qılsın; hərçənd, müstəhəb ehtiyata əsasən, həm tam, həm qəsr qılmalıdır.

---

[1] Əgər onun niyyəti 8 fərsəngə çatandan sonra dəyişsə, qəsr qıldığı namazlar düzgündür.

**Məsələ 461:** Halal niyyətlə səfərə çıxmış şəxs yolun bir qədərini gedəndən sonra günah niyyəti edib bir qədərini də bu niyyətlə getsə, sonra peşman olub halal niyyətinə dönsə, əgər halal niyyətlə getdiyi ümumi yol 8 fərsəng olsa, daha güclü nəzər budur ki, namazı qəsr qılsın.

**Məsələ 462:** Ticarət və ya səyahət kimi halal məqsədlə səfərə çıxan şəxs yolda məsafənin bir hissəsini halal niyyətdən əlavə, haram niyyətlə də getsə, haram və halal niyyətlərin qarışdığı məsafədə namazı tamdır; hərçənd, daha ehtiyatlısı budur ki, qəsr də qılsın. Yolun yalnız halal səfər niyyəti olan qalanı (səfərin halal niyyətlə baş tutmuş birinci hissəsini əlavə etməklə olsa belə) şəri məsafə həddində olsa, sonrakı namazları qəsrdir.

**Məsələ 463:** Səfərin əvvəlində günah niyyəti olan şəxs yolda peşman olub səfəri halal məqsədlə davam etdirsə, yolun qalanı (imtidadi və ya təlfiqi) şəkildə 8 fərsəng olsa, namazı qəsr, əks təqdirdə, tamdır. Lakin qayıdış təklikdə 8 fərsəng olsa, bu zaman yenidən halal niyyət etdiyi vaxtdan etibarən namazı qəsrdir.

**Məsələ 464:** Öncəki məsələyə əsasən, dayandığı yerdə günah niyyətindən dönsə, orada (hərəkətdən qabaq) namaz qılmaq istəsə, namazı tamdır; hərçənd, ehtiyat həm qəsr, həm tam qılmaqdadır.

**Məsələ 465:** Gəzinti və əyləncə səfəri haram deyil və bu səfərdə namaz qəsrdir.

**Məsələ 466:** Günah səfərində zöhr, əsr və işa namazlarının nafilələri də yerindədir, onları qılmaq olar.

**Məsələ 467:** Günah səfərində cümə namazında iştirak hökmü yerində qalır.

**Günah səfərindən qayıdış**

**Məsələ 468:** Günah səfərindən qayıdarkən yol şəri məsafə qədər olsa və bu qayıdış həmin səfərin davamı olsa, tövbə etdiyi təqdirdə namazı qəsrdir; tövbə etməmişsə, vacib ehtiyata əsasən, həm qəsr, həm tam qılmalıdır. Lakin qayıdış (gediş səfərinin davamı sayılmasa və) yeni bir səfər hesab olunsa, misal üçün, uzun müddət keçəndən sonra, məsələn, bir ildən sonra birinci şəhərə qayıtmaq istəsə, hər bir halda (tövbə etsə də, etməsə də) namazını qəsr qılmalıdır və oruc tuta bilməz.

**Ov səfəri**

**Məsələ 469:** Ov səfəri yemək əldə etmək, fərdi və ailə həyatının yemək və digər ehtiyaclarını təmin etmək üçün olsa, halal səfərdir və bu səfərdə namaz qəsr qılınır.

**Məsələ 470:** Əgər səfər ticarət vasitəsi olan bir ov üçün olsa, məsələn, heyvanı ətini, dərisini, dişini və ya digər hissələrini satmaq üçün ovlasa, yəni ticarət

etmək və çoxlu gəlir qazanmaq üçün ov etsə,[1] vacib ehtiyata əsasən, həm qəsr, həm tam qılmalı, amma orucunu yeməlidir.

**Məsələ 471:** Əgər ov səfəri (yemək, yaşayış ehtiyaclarını təmin etmək və ya ticarət üçün deyil) boşuna olsa,[2] namaz tam və oruc vacibdir.

**Məsələ 472:** Əti yeyilən heyvanı ovlamaq üçün baş tutan əyləncə səfəri boşuna səfər (ləhv) sayılmır.

## Altıncı şərt: Yaşayış yerinin olması

**Məsələ 473:** Səfərdə namazın qəsr olmasının şərtlərindən biri insanın qeyri-səfər halında qaldığı sabit yaşayış yerinin olmasıdır. Əgər müsafirin sakin olduğu sabit yeri olmasa, (yəni yurd-yuvasız[3] olsa) namazı tamdır.

**Məsələ 474:** Köçəri tayfalar, ilin bir hissəsində bir yerdə yaşayan, digər hissəsində isə yaylaq bölgələrə köçən, dağ-düzdə yaşayan insanlar yurd-yuvasız

---

[1] Yəni ovlanmış heyvanı satmaq yaşayış ehtiyaclarını təmin etmək üçün olsa, bu səfərdə namaz qəsrdir. Lakin yaşayış ehtiyacları üçün deyil, var-dövlət üçün ov etsə, məsələn, aztapılan xəzli heyvanları, sincabı və ya fili dərisini, dişini və ya digər bədən üzvlərini satmaq və öz sərvətini artırmaq üçün ovlasa, belə bir səfərdə namazı qəsr olmur.

[2] Yəni ətinin yeməli olub-olmamasına baxmadan əylənmək üçün heyvan ovlasalar.

[3] "Yurd-yuvasız" dedikdə sakin olduğu xüsusi bir yeri, bir yerə getdikdə dönəsi vətəni olmayan adam nəzərdə tutulur.

sayılmırlar. Əslində, onların iki vətəni var və bu iki yer arasında məsafə şəri məsafə qədər olsa, yolda namazları qəsrdir.

**Məsələ 475:** Əgər yurd-yuvasız insan başqa bir səfərə, məsələn, həccə və ya xəstə ziyarəti üçün bir şəhərə getmək istəsə, digər səfərlərdə olduğu kimi, bu səfərə də ailəsi və əşyalarıyla birlikdə getsə, bu zaman da “yurd-yuvasız” sözü ona aid edilə bilsə, namazı tamdır. Lakin onları bir şəhərdə qoyub özü getsə və bu zaman ona "yurd-yuvasız" deyilməsə, namazının qəsr olması gözlənilməz deyil.

**Məsələ 476:** İlin bir hissəsində qaldığı yeri olan, başqa bir hissəsində isə sabit yeri olmayan yurd-yuvasız adam sabit yerində qaldığı zaman namazını tam, oradan getdikdə və sabit yeri olmadıqda (bəzi qəbilələr belədir) isə, vacib ehtiyata əsasən, həm qəsr, həm tam qılmalıdır.

**Məsələ 477:** Yurd-yuvasız qəbilədən olan bir adam bitki və ya gölməçə axtarmaq üçün yola düşsə, 8 fərsəng və ya daha artıq məsafə qət etsə də, namazı tamdır.

## Yeddinci şərt: Səfər peşə olmasın

**Məsələ 478:** Səfərdə namazın qəsr olmasının şərtlərindən biri səfərin peşə olmamasıdır. Əgər səfər peşə olsa - istər sürücülük və ya pilotluq kimi peşənin özü səfərdən ibarət olsa, istərsə də işindən

ötrü səfər edən həkim və müəllim kimi səfər etmək peşənin şərti olsa - namaz tam və oruc düzgündür.

**Məsələ 479:** İnsanın peşəsi səfər olmasa, çoxsaylı səfərlər etsə də, namazı qəsrdir; istər qırx cümə ziyarət üçün Tehrandan Cəmkəran məscidinə gedəcəyini niyyət edən adam kimi əvvəldən çoxlu səfər niyyəti olsun, istər müalicə üçün bir şəhərə tez-tez səfər edən xəstə kimi niyyətsiz və təsadüfi şəkildə çoxlu səfər etsin.

**Məsələ 480:** Peşə səfərinin üç vacib şərti var:

1. Peşə səfərinə çıxmaq niyyəti;
2. Peşə səfərinin başlanması;
3. Peşə səfərini davam etdirmək niyyəti.

**Məsələ 481:** Səfərin peşə olmasında meyar elin baxışıdır. Əgər hansısa səfərin el arasında peşə sayıldığına şəkk edilsə, namaz qəsr və oruc batildir.

**Məsələ 482:** Səfərin peşə olması o səfərdən qazanmağa və dolanmağa bağlı deyil. Bu baxımdan, pulsuz tədris məqsədi ilə səfər edən müəllimin işi də peşə sayılır və namazı tamdır.

**Məsələ 483:** Yuxarıdakı şərtlər tamamlanandan sonra ilk peşə səfərindən hökm qüvvəyə minir; namaz tam, oruc düzgün olur.

**Məsələ 484:** Təhsil üçün edilən səfər peşənin bir hissəsi olsa, məsələn, bir dövlət qulluqçusu üçün təlim kursu təşkil edilsə və o, həmin kursda iştirak etmək üçün səfərə getsə, namazı tamdır.

**Məsələ 485:** Elm öyrənmək və gələcəkdə peşə sahibi olmaq üçün səfərə gedən tələbə və şagird, vacib ehtiyata əsasən, təhsil səfərində namazını həm tam, həm qəsr qılmalı, orucunu tutmalı, sonra da qəza etməlidir.

**Məsələ 486:** Elm öyrənmək müəyyən bir peşənin adı ilə adlanan zümrəyə daxil olmaq sayılsa, məsələn, hövzə tələbəsi təhsilin əvvəlindən ruhani adlansa, yaxud hərbi akademiyanın kursantları bir neçə aylıq məşq və təlimdən sonra poqon alsalar və onlara zabit deyilsə, bu növ təhsil peşədən sayılır; namaz tam qılınmalı, oruc tutulmalıdır.

**Məsələ 487:** İnsan peşəsi üçün yalnız bir uzun səfər etsə, məsələn, uzun bir dəniz yolunu qət etsə, bu səfərin el arasında peşə sayılması gözlənilməz deyil; bu baxımdan, səfəri davam etdirmək niyyəti olmasa da, namaz tamdır; yəni uzun bir səfər səfəri davam etdirmək niyyətini əvəz edir.

**Məsələ 488:** İldə bir dəfə, məsələn, bir ay davam edən peşəsi olan şəxs, misal üçün, həcc karvanı başçısı hər il bu işdə çalışmağı planlaşdırırsa, namazı hətta birinci səfərdə də tamdır. Lakin davam etdirmək niyyəti olmasa, namaz qəsrdir.

**Məsələ 489:** İlin bir hissəsində peşə səfərinə çıxan və onu hər il yerinə yetirmək niyyətində olan, məsələn, yayın bir və ya iki ayında sürücülük edən şəxsin səfəri peşə səfəri hökmündədir və birinci səfərdən namazı tamdır.

**Məsələ 490:** İlin bir hissəsində və yalnız bir dəfə bir işlə məşğul olmaq istəyən, növbəti illərdə onu təkrarlamaq niyyəti olmayan şəxsin iş müddəti normal davamlılıqla (yəni yalnız tətil və matəm günlərində tətil etməklə) ən azı üç ay olsa, namazı hətta birinci səfərdə də tamdır. Lakin müddəti uzun olmasa, misal üçün, bir ay bu işi görmək istəsə, el arasında peşə səfəri adlandırılması məlum deyil və şəkk olduğu üçün namazı qəsrdir.

**Məsələ 491:** Peşəsi şəhərdən bayıra, şəri məsafədən yaxın yerə gedib-gəlmək olan adam, məsələn, bəzi taksi sürücüləri həmin peşə əsnasında təsadüfən şəri məsafə qədər yol qət etsələr, peşə səfəri sayılmaz və namaz qəsr olar.

**Məsələ 492:** Peşəsi səfər olan (istər peşə səfərdən ibarət olsun, istərsə də səfər peşənin şərti olsun) şəxs qeyri-peşə səfərinə getdikdə, peşəsi olan yerə getsə belə, namazı qəsrdir.

**Məsələ 493:** Öncəki məsələyə əsasən, insan peşəsinin yerləşdiyi yerə başqa bir işdən ötrü səfər etsə, amma peşəsinə görə orada qalmaq qərarına gəlsə, işə getmək üçün orada qaldığı müddətdə, ondan sonra və qayıdanda namazı tamdır; baxmayaraq ki, ehtiyata görə, işə getmək üçün qaldığı müddətdə namazını həm tam, həm qəsr qılmalıdır.

**Məsələ 494:** Peşəsi səfər olan şəxs vətənində və ya başqa yerdə, niyyətlə və niyyətsiz on gün qalsa, on gündən sonrakı ilk səfərdə namazı qəsrdir.

**Məsələ 495:** Peşəsi səfər olan şəxs vətənində və ya başqa bir yerdə on gün qaldıqdan sonra qeyri-iş səfərinə getsə, misal üçün, ziyarətə getsə, vacib ehtiyata əsasən, ziyarətdən sonrakı iş səfərində namazını həm qəsr, həm tam qılmalıdır.

**Məsələ 496:** Peşəsi səfər olan şəxs bir yerdə on gün qalıb-qalmadığına dair şəkk eləsə, əgər şəkki o yerə çatdığı günü dəqiq bilmədiyinə görə olsa, gərək ilk peşə səfərində namazını tam qılsın; lakin şəkki oradan çıxdığı günü dəqiq bilmədiyinə görə olsa, vəzifəsi qəsr qılmaqdır.

**Məsələ 497:** Peşəsi səfər olan şəxsin peşə səfərində bir təyinat yeri olsa və oraya çatmazdan qabaq yolda bir yerdə on gün qalsa, oradan təyinat yerinə qədər səfəri və oradan vətənə qayıdışı ilk səfər sayılacaq və gərək namazını qəsr qılsın.

**Məsələ 498:** Qabaqkı məsələyə əsasən, əgər bir neçə təyinat yeri olsa, (on gün qalandan sonrakı) birinci səfəri birinci təyinat yerinə çatmaqla bitir, ikinci təyinat yerinə doğru hərəkət etdiyi zamandan ikinci səfəri başlayır və namazı tamdır.

**Məsələ 499:** Namazın tam və orucun düzgün olduğu peşə səfərində yolun, peşənin və ya nəqliyyat vasitəsinin əvvəlki olması və ya dəyişməsi arasında fərq yoxdur.

**Məsələ 500:** Peşəsi sürücülük olan şəxs bu peşəyə başlayandan sonra avtomobili xarab olsa və onun ehtiyat hissələrini almaq üçün şəri məsafə qədər yol getsə, bu səfər də peşə səfəri sayılacaq və namaz tam olacaq.

**Məsələ 501:** Öncəki məsələyə əsasən, əgər peşəyə başlamazdan qabaq avtomobil xarab olsa və ehtiyat hissələrini almaq üçün şəri məsafə qədər yol qət etsə, namazı qəsrdir.

**Məsələ 502:** Peşəsi səfər olan şəxs başqa bir işdən ötrü səfərə getsə, namazı qəsrdir. Məsələn, peşəsi sərnişinləri bir şəhərdən o birinə aparmaq olan adam həccə və ya Kərbəlaya getsə, namazını qəsr qılmalıdır. Lakin peşə səfəri əsnasında şəxsi işini görsə, məsələn, ziyarət də eləsə, – istər əsas məqsəd şəxsi iş olsun, istər sərnişin daşımaq olsun, istərsə də hər ikisi bərabər olsun – namaz tamdır.

**Məsələ 503:** Peşəsi səfər olan şəxs başqa bir işdən ötrü səfərə getsə və oradan peşəsi üçün, yəni işlədiyi yerə səfər etsə, birinci yerdə (niyyətli və ya niyyətsiz) on gün qalmamışdırsa, iş yerinə gedərkən namazı tamdır.

**Məsələ 504:** Peşəsi səfər olan şəxs peşə səfərindən qayıdanda namazı tamdır. Lakin başqa bir məqsədlə, məsələn, ziyarət və ya əyləncə məqsədi ilə bir neçə gün (on gündən az) qalıb sonra qayıtsa, vacib ehtiyata əsasən, qayıdanda namazını həm qəsr, həm tam qılmalıdır.

**Məsələ 505:** Peşəsi səfər olan şəxs son peşə səfərinə getsə, yaxud səfər əsnasında peşəsini davam etdirmək fikrindən dönsə, səfər etmək sürücülük kimi onun peşəsinin özünü təşkil edirsə, bu zaman son səfərdən qayıdanda sərnişin götürməsə, qayıdışı peşə səfəri sayılmayacaq və namazı qəsr olacaq; istər öz maşını ilə qayıtsın, istər başqa bir maşınla. Lakin səfər onun peşəsinin şərti olsa, son səfərdən qayıdanda, vacib ehtiyata əsasən, namazı həm qəsr, həm tam qılmalıdır.

## Səkkizinci şərt: Tərəxxüs həddinə çatmaq[1]

**Məsələ 506:** Vətənindən çıxan və şəri məsafə qədər yol getməyi planlaşdıran insanın namazı müəyyən bir həddə çatandan sonra qəsr olur. Həmçinin qayıdanda həmin həddə çatandan sonra namaz tam qılınmalıdır. Bu həddə tərəxxüs həddi deyilir. Lakin, müstəhəb ehtiyata əsasən, tərəxxüs həddi ilə şəhərin girişi arasında namaz həm qəsr, həm tam qılınır.

**Məsələ 507:** Tərəxxüs həddini təyin etməyin meyarı budur ki, insan şəhərin son nöqtəsindən o qədər uzaqlaşsın ki, adi şəkildə, mikrofonsuz verilən

---

[1] Tədqiqatlara əsasən, şəhərin axırıncı nöqtəsindən 1350 metr kənardakı nöqtə tərəxxüs həddi adlanır.

şəhər azanını eşitməsin; istər şəhərin divarlarını görsün, istər görməsin.

**Məsələ 508:** Əgər şəhərdən kənarda azanın səsini eşitsə, azan olduğunu bilsə, amma hansı cümləni söylədiyini ayırd etməsə, vacib ehtiyata əsasən, namazı həm qəsr, həm tam qılmalıdır. Lakin yolunu bir qədər də davam etdirib azanın səsini əsla eşitməsə, qəsr qılmalıdır.

**Məsələ 509:** Tərəxxüs həddi üçün meyar şəhərin sonunda, qədim məscidlərin minarələri kimi normal hündür yerdə verilən azanı eşitməkdir.

**Məsələ 510:** Azan səsinin hündürlüyündə meyar normal və orta səs, azanı eşitməkdə meyar normal iqlim şəraitində adi və orta eşitmədir; yəni güclü külək, toz və duman olmayan hava şəraitində.

**Məsələ 511:** İnsan vətəndən o qədər uzaqlaşsa ki, azan səsini eşitməsə, amma digər uca səsləri, məsələn, dua və Quran səsini eşitsə, ehtiyat odur ki, orada namazı həm qəsr, həm tam qılsın, ya da o qədər uzaqlaşsın ki, səs eşidilməsin.

**Məsələ 512:** İnsan on gün qalmaq istədiyi yerə gedərkən qalacağı yerin tərəxxüs həddinə çatmazdan qabaq namazı qəsrdir, tərəxxüs həddi ilə qalacağı yerin arasındakı məsafədə isə, vacib ehtiyata əsasən, həm qəsr, həm tam qılmalıdır.

**Məsələ 513:** Müsafir on gün qalmağı planlaşdırdığı yerdən şəri məsafəni qət etmək məqsədilə çıxsa, vacib ehtiyata əsasən, qaldığı yerlə

tərəxxüs həddi arasındakı məsafədə namazını həm qəsr, həm tam qılmalı, ya da gözləməli, tərəxxüs həddini keçəndən sonra qəsr qılmalıdır.

**Məsələ 514:** Bir yerdə otuz gün tərəddüd içində qalmış, otuz birinci gündən namazını tam qılmağa başlamış şəxs şəri məsafəni qət etmək niyyəti ilə oradan çıxsa, vacib ehtiyata əsasən, ya tərəxxüs həddindən qabaq həm qəsr, həm tam qılmalı, ya da namazı təxirə salıb qəsr qılmalıdır.

**Məsələ 515:** (Üç yeri çıxmaqla[1]) əvvəldə müsafirin vəzifəsi namazı tam qılmaq olan, sonra isə qəsrə çevrilən digər yerlərdə namazı qəsr qılmaq üçün tərəxxüs həddi meyar deyil; misal üçün, haram səfərə getmiş, sonra səfərini halala çevirmiş, yaxud səfər niyyəti olmadan 8 fərsəngə qədər gedən və qayıtmaq istəyən şəxs.

**Məsələ 516:** Vətəndən şəri məsafəni qət etmək niyyəti ilə səfərə çıxmış adam tərəxxüs həddinə çatıb-çatmadığına dair şəkk eləsə, çatmamış kimi fərz edib namazı tam qılmalıdır. Lakin səfərdən qayıdarkən buna dair şəkk eləsə, gərək namazı qəsr qılsın. Əlbəttə, həm gedəndə, həm də qayıdanda eyni yerdə tərəxxüs həddini keçib-keçmədiyinə dair şəkk eləsə və orada namaz qılmaq istəsə, gərək həm

---

[1] Yəni vətəndən, on gün qalmaq niyyəti etdiyi yerdən və tərəddüdlü halda otuz gündən artıq qaldığı yerdən başqa.

qəsr, həm tam qılsın; əgər gedərkən namazı təkcə tam qılmışsa, qəsr şəklində də qılsın.

**Məsələ 517:** Vətəndən səfərə gedən adam tərəxxüs həddinə çatmazdan qabaq, tərəxxüs həddinə çatdığını zənn edərək namazı qəsr qılsa, sonra səhv etdiyini bilsə, gərək yenidən qılsın. Vətənə qayıdanda da belə bir hadisə baş versə və namazı tam qılsa, hökm belədir.

**Məsələ 518:** Vətənindən səfərə gedən şəxs tərəxxüs həddini keçəndən sonra hələ tərəxxüs həddinə çatmadığını zənn edərək namazı tam qılsa, sonra belə olmadığını bilsə, gərək yenidən qılsın. Qayıdanda da belə bir hadisə baş versə və namazı qəsr qılsa, hökm belədir.

**Məsələ 519:** Əgər vətəndən çıxandan və tərəxxüs həddini keçəndən sonra yenə tərəxxüs həddinə daxil olsa, gərək tərəxxüs həddi daxilində namazı tam qılsın; onun qayıdışının ixtiyari və ya qeyri-ixtiyari olmasının, yaxud yolun əyriliyinə görə geri qayıtmasının fərqi yoxdur.

**Məsələ 520:** Öncəki məsələyə əsasən, müsafirin tərəxxüs həddinə girişi yolun formasına, məsələn, əyriliyinə görə olsa, yolun qalanının şəri məsafə qədərində olması lazım deyil; şəri məsafə səfərin əvvəlindən, tərəxxüs həddinə daxil olub qayıtdığı məsafəylə birlikdə hesablanır.

**Məsələ 521:** Öncəki məsələyə əsasən, əgər tərəxxüs həddinə giriş yolun formasına görə olmasa,

başqa bir səbəbdən ixtiyari və ya qeyri-ixtiyari[1] şəkildə tərəxxüs həddinə qayıtsa, məsələn, tərəxxüs həddindən əvvəldə qoyduğu çamadanı götürmək üçün qayıtsa, götürəndən sonra əvvəlki səfərini davam etdirsə, bu zaman şəri məsafə səfərin əvvəlindən hesab olunur və tərəxxüs həddinin xaricindən çamadanı götürmək üçün qayıtdığı və yenə həmin yerə döndüyü əlavə yol hesablanmır.

**Məsələ 522:** Şəri məsafə niyyəti ilə vətəninin tərəxxüs həddindən çıxıb namazı qəsr qılan şəxs yenə tərəxxüs həddinə qayıtdıqda və sonra səfərini davam etdirdikdə qıldığı namaz kifayətdir, yenidən qılması lazım deyil.

**Məsələ 523:** Əgər on gün qalmağı planlaşdırdığı yerdən şəri məsafəni qət etmək niyyəti ilə çıxsa, tərəxxüs həddini keçəndən sonra müəyyən səbəbdən yenə tərəxxüs həddinə, yaxud hətta qaldığı yerə qayıtsa və on gün qalmaq niyyəti olmasa, namazı qəsrdir.

**Məsələ 524:** Şəhərin ətrafında ən azı 8 fərsəng dövrə vurmaq tərəxxüs həddinin içində olsa, namaz tam, bayırında olsa, qəsrdir; hərçənd, yolun əyriliyinə görə bəzi yerlərdə tərəxxüs həddinə daxil olsa və tərəxxüs həddi xaricindəki yolun miqdarı 8

---

[1] Misal üçün, gəmi təyinat yerinə hərəkət edib tərəxxüs həddini keçir, amma külək əsib onu yenə tərəxxüs həddinə qaytarır. Qeyri-ixtiyari deyəndə belə hallar nəzərdə tutulur.

fərsəngdən az olsa da. Əlbəttə, tərəxxüs həddinin içində namaz qılmaq istəsə, tam qılmalıdır.

**Məsələ 525:** Öncəki məsələyə əsasən, tərəxxüs həddinə daxil olmaq yolun formasına görə olmasa, öz ixtiyarı ilə tərəxxüs həddinə qayıtsa, bu zaman yolun qalanı, tərəxxüs həddinə girib-çıxdığı məsafədən əlavə, 8 fərsəng olmasa, namazı tamdır; əgər olsa, qəsrdir. Əlbəttə, tərəxxüs həddinin içində namazı tam qılmalıdır.

## Şəri səfəri kəsən yerlər

**Məsələ 526:** Aşağıdakı halların biri qarşıya çıxsa, səfər başa çatmışdır və namaz tam qılınmalıdır:

1. Vətəndən keçsə;
2. Bir yerdə ən azı on gün qalacağını planlaşdırsa və ya bilsə;
3. On gün qalmaq niyyəti etmədən, tərəddüd içində otuz gün bir yerdə qalsa.

**1. Vətəndən keçid**

**Məsələ 527:** Şəri məsafə qədər yol getmək niyyəti olan şəxs yolda vətəninə daxil olsa, səfəri pozulur və orada namazını tam qılmalıdır. Təyinat yerinə qədər yolun qalanı ən azı (imtidadi və ya təlfiqi) 8 fərsəng olsa, namazı qəsr, ondan az olsa, tam qılmalıdır.

**Məsələ 528:** (Dayanmasa belə) vətəndən keçməyin özü səfərin pozulması üçün kifayətdir.

**Məsələ 529:** Vətən el arasında insanın sakin olduğu, yerləşdiyi və yaşadığı yerə deyilir; istər şəhər olsun, istər kənd və ya başqa bir yer.

**Məsələ 530:** Vətən iki cürdür: əsl vətən və sonradan seçilmiş vətən.

**Əsl vətən**

**Məsələ 531:** Əsl vətən insanın, həyatının əvvəllərinin əsas hissəsində (uşaqlıq və yeniyetməliyində) yaşadığı, böyüdüyü yerdir.

**Məsələ 532:** Əsl vətənin aid olması üçün insanın orada doğulması və ya valideynlərinin vətəni olması lazım deyil. Həmçinin orada həmişəlik və ya uzun müddət yaşamaq niyyətində olması da lazım deyil. Gələcəkdə oradan köçmək qərarı olsa da, nə qədər ki köçməyib, əsl vətəni olaraq qalır.

**Məsələ 533:** Əsl vətənin aid olması üçün lazım olan müddət elin fikrinə həvalə olunub. Məsələn, insan həyatının ilk on ilini bir yerdə keçirmişsə, ora el arasında (ürfdə) əsl vətən sayılır; lakin cəmi bir-iki il qalmışsa, vətən deyilmir.

**Seçilmiş vətən**

**Məsələ 534:** Seçilmiş vətən, elin nəzərinə görə, insanın əvvəldən vətəni olmayan bir yeri vətən olaraq, yaşamaq üçün seçdiyi yerdir. Bu zaman insanın əsl vətənini yenə də vətən sayıb-saymamasının fərqi yoxdur.

**Məsələ 535:** Seçilmiş vətənin insana aid olması üçün onun daimi yaşamaq niyyətində olmasının, yaxud müddət təyin etmədən yaşamasının və ya uzun müddət yaşamağı planlaşdırmasının fərqi yoxdur.

**Məsələ 536:** İnsan təxminən on il bir yerdə qalmağı planlaşdırırsa, el arasında onun seçilmiş vətən qəbul olunmasına kifayət etməsi gözlənilməz deyil.

**Məsələ 537:** Bir yerin el arasında seçilmiş vətən sayılması üçün yalnız niyyət kifayət etmir, vətən sayılmanın şərtləri də vardır; məsələn, vətən niyyəti ilə bir müddət (məsələn, bir-iki ay) orada qalsın və ya adətən insanın bir yeri vətən seçərkən gördüyü işləri görsün.

**Məsələ 538:** İnsan bir yeri vətən seçmək niyyəti ilə əvvəldən orada bir ev kirayə etsə, yaxud alsa və ya işə düzəlsə, o vaxtdan vətən sayılır, namazı tamdır və bir-iki ay gözləmək lazım deyil.

**Məsələ 539:** Vətən niyyəti edəndən sonra, el arasında vətən sayılması üçün lazım olan işləri görməzdən qabaq (qabaqkı iki məsələdə bu haqda danışıldı) orada qalmaqda tərəddüd etsə, vətən sayılmaz, on gün qalmaq niyyəti olmasa, namazı qəsr olar.

**Məsələ 540:** İnsan bir şəhərdə, misal üçün, Məşhəddə və ya yaylaq bölgəsində bir ev alsa və tez-tez, məsələn, hər həftə oraya ziyarətə və ya istirahətə

getsə, orada qaldığı müddət az olsa və el arasında yaşayış yeri sayılmasa, orada namazı qəsrdir və orucu düzgün deyil.

**Məsələ 541:** İnsanın bir-iki il yaşamaq üçün seçdiyi yer el arasında vətən sayılmır, ancaq ona müsafir də demək olmur. Buna görə on gün qalmaq niyyəti etmədən də namazı tamdır.

**Vətənin çoxluğu**

**Məsələ 542:** Aktual olaraq, iki və ya üç vətənin olmasının eybi yoxdur; belə ki, hər birində bir evi var, il ərzində hər birində bir neçə ay qalır. Lakin üç aktual vətəndən artığının olması problemlidir (işkallıdır).

**Məsələ 543:** Həmişəlik və ya uzun illər ildə üç-dörd ay (məsələn, yay tətillərində) bir yerdə yaşamağı planlaşdıran şəxs ev və bu kimi digər məişət vasitələrini təmin etsə, ora el arasında ikinci vətəni sayılar. Lakin sırf yaylaq və bu kimi hallar üçün, vətən seçmək niyyəti olmadan və yaşayış vasitələrini təmin etmədən oraya getsə, vətən sayılması gözlənilmir.

**Məsələ 544:** Birdən artıq yaşayış yerinin vətən sayılması üçün insanın o yerlərin hamısında eyni müddət qalması lazım deyil. Bu baxımdan, məsələn, iki vətəni olan şəxs bir yerdə beş ay, o birində yeddi ay qalsa, yaxud üç vətəni olan şəxs birində dörd ay,

ikincisində beş ay və üçüncüsündə üç ay qalsa, onların hamısına vətən hökmləri şamil olar.

### Vətəndə tabelik

**Məsələ 545:** Vətənin özü kimi vətəndə tabelik də elin nəzərinə bağlıdır. Yəni ata-ana ilə və ya onların biri ilə yaşayan övlad camaat arasında onlara tabe sayılır, onların vətəni övladın da vətəni olur.

**Məsələ 546:** Vətəndə tabelik sonradan seçilmiş vətənə aiddir, əsl vətənə yox. Bu baxımdan, həyatının əvvəllərində bir yerdə böyümüş, uşaqlığını və yeniyetməliyini keçirmiş şəxsin əsl vətəni də oradır; istər valideynlərinin vətəni olsun, istər olmasın.

**Məsələ 547:** Əgər övlad ata-anasının (əsl və ya seçilmiş) vətənində özünün əsl vətəni olacaq qədər yaşamayıbsa, doğulandan sonra hər hansı səbəbdən ata-anasından uzaqlaşıb başqa yerdə böyüyübsə, məsələn, on ildən sonra valideynlərinin yanına qayıdıbsa, bu zaman valideynlərinin vətəni onun əsl vətəni sayılmaz. Lakin qayıdandan sonra onlarla birgə yaşadığına görə həmin yer onun seçilmiş vətəni olacaq.

**Məsələ 548:** Vətəndə tabelik yalnız övlada məxsus deyil, el arasında başqa birinə tabe olan hər kəsə aiddir; misal üçün, həmişə bir adamın yanında olmaq üçün işə götürülmüş xidmətçi, yaxud xüsusi

bir yeri vətən seçib yaşamaq kimi şərt qoymayan və həmişə əri ilə yaşayan həyat yoldaşı.

**Məsələ 549:** Vətən hökmlərinin aid olmasında tabenin vətən niyyəti etməsi lazım deyil, tabe olduğu şəxslə birlikdə olmasının özü kifayətdir; özü buna diqqət etməsə belə. Ancaq bu şərtlə ki, vətən seçməmək niyyəti etməsin və ya bu niyyətindən dönməsin.

**Məsələ 550:** Vətən seçmə niyyətindən xəbərsiz olan həddi-büluğa çatmış övlad, məsələn, 11-12 yaşlı qız və ya 16-17 yaşlı oğlan ata-anası ilə birlikdə onların vətən seçdiyi bir şəhərə gedərsə, ora onun da vətəni sayılar.

**Məsələ 551:** Övlad valideynlə birlikdə onların vətən seçdikləri yerə getsə, ancaq özü oranı vətən seçməmək niyyəti etsə, ora onun üçün vətən sayılmaz; o, valideyninin çörəkyeyəni olsa belə.

**Məsələ 552:** Valideyninə tabe olaraq bir yeri vətən seçmiş övlad bir müddətdən (məsələn, bir-iki aydan) sonra niyyətindən dönsə, o yerdən çıxmayınca niyyətindən dönməsi həyata keçməz və namazı tam olar.

**Vətən saymama**

**Məsələ 553:** (Vətən seçmə kimi) vətən saymama da elin nəzərinə bağlıdır. Məqsəd odur ki, insan vətənindən çıxsın və oraya yaşamaq üçün dönməmək qərarına gəlsin.

**Məsələ 554:** Özünün (əsl və ya seçilmiş) vətənini artıq (şəri) vətən saymayan şəxs oraya getsə, namazı qəsrdir; istər orada mülkü olsun, istər olmasın. Bu zaman oradan keçmək də şəri səfəri pozmur, lakin on gün qalmaq niyyəti etsə, pozur.

**Məsələ 555:** Vətən saymamanın həyata keçməsi üçün niyyət lazımdır. Bu baxımdan, insan belə niyyəti olmadan bir müddətə, məsələn, dörd-beş illiyə vətənindən getsə, ora hələ də onun vətəni sayılar. Əlbəttə, insan çox uzun müddət, məsələn, qırx-əlli il vətənindən uzaqda qalmış və bu müddətdə oraya qayıtmağı düşünməmişsə belə, bu zaman uzunmüddətli tərkin vətən saymama hökmündə olması gözlənilməz deyil; on gün qalmaq niyyəti etməsə, orada namazı qəsrdir.

**Məsələ 556:** Vətənindən çıxan və qayıtmaq niyyəti olmayan şəxs[1] yaşamaq üçün oraya qayıtmayacağını bilsə və ya buna əmin olsa, bunun vətən saymama

---

[1] Vətənindən getmiş şəxsin üç variantı ola bilər:

1. Vətəninə qayıtmaq niyyəti var və ya qayıdacağını bilir; vətən hökmü yerindədir.

2. Vətəninə qayıtmamaq niyyətindədir və ya qayıtmayacağını bilir; vətən saymama baş tutmuşdur.

3. Qayıtmaq və ya qayıtmamaq qərarı verməyib, qayıdıb-qayıtmayacağını da bilmir. Bu zaman da vətən hökmü yerində qalır. Lakin uzun müddət, məsələn, qırx-əlli il ötmüş və bu müddətdə oraya qayıtmağı düşünməmişsə belə, vətən hökmü qüvvədən düşür.

hökmündə olması gözlənilməz deyil. Bu baxımdan, orada namazı qəsrdir.

**Məsələ 557:** Ərinə tabe olaraq əsl vətənindən başqa bir yerdə yaşayan, amma əsl vətənindən imtina etməmiş qadın ömrünün sonuna qədər vətəninə qayıtmayacağını bilməsə, əksinə, ehtimal etsə, ayrılma və ya ərinin ölümü kimi səbəblərdən oraya qayıtmasının mümkünlüyünü bilsə, orada namazı tamdır. Lakin ərinin vəfatı və ya ayrılma zamanı da vətəninə qayıtmamaq fikri olsa, yaxud qayıtmayacağını bilsə, bu zaman vətən saymama baş tutub və ora onun vətəni sayılmır.

**2. On gün qalmaq niyyəti**

**Məsələ 558:** Səfərə çıxmış insan bir yerdə on gün qalacağını niyyət etsə, orada namazını tam qılmalıdır. Lakin plansız və ya tərəddüd içində on gün qalsa, namazı qəsrdir.

**Məsələ 559:** İnsan on gün qalmaq niyyəti etməsə, amma on gün qalacağına əmin və ya xatircəm olsa, namazını tam qılmalıdır. Lakin qalacağını sadəcə ehtimal etsə, namazı qəsrdir.

**Məsələ 560:** On gün qalmaq ardıcıl və birdəfəyə olmalı, həmin on günün içində namazın qəsrinə səbəb olan bir səfər niyyəti olmamalıdır. Bu baxımdan, əgər bir yerdə beş gün qalacağını, sonra 10 fərsənglik bir məsafəyə gedib-qayıdacağını və

daha beş gün də qalacağını planlasa, on gün qalmaq niyyəti həyata keçmir və namazı əvvəldən qəsrdir.

**Məsələ 561:** Əgər on gün qalmaq niyyəti edərkən həmin on günün içində 4 fərsəngdən yaxın məsafəyə getmək fikri olsa,[1] həm də o qədər getmək niyyəti olsa ki, el arasında bir yerdə on gün qalmaqla ziddiyyət təşkil etməsə, məsələn, bu müddətdə iki-üç dəfə və hər dəfə ən çoxu yarım günlüyə çıxsa, on gün qalmaq niyyətinə xələl gəlməz və namazı tam olar.

**Məsələ 562:** On gün qalmaq niyyətində "gün" dedikdə məqsəd onun el arasında mənasıdır, yəni günəş doğandan batana qədər. Bu baxımdan, insan günəş doğanda bir yerə çatıb onuncu gün günəş batana qədər orada qalmağı niyyət etsə, namazı tamdır, birinci və axırıncı gecəni də orada qalması lazım deyil.

**Məsələ 563:** On gün qalmaq niyyəti olduqda ortadakı gecələr də on günün hökmündədir. Bu baxımdan, on gün qalmağı niyyət etmiş şəxs gecələr də oradan şəri məsafə qədər uzaqlaşa bilməz.

**Məsələ 564:** Səfərdə olan şəxs on gündən bir qədər (hərçənd, bir saat) az qalmaq istəsə, on gün qalmaq niyyəti üçün kifayət etməz və namazı qəsr olar.

---

[1] Yəni şəri məsafədən yaxına getmək niyyəti on gün qalmaq niyyəti ilə birgə olsa.

**Məsələ 565:** On gün qalmaq niyyəti etmiş şəxsin on gün tamamlanandan sonra yeni niyyətə ehtiyacı yoxdur, oradan çıxmayınca namazı tamdır.

**Məsələ 566:** İnsan günəş doğandan sonra bir yerə çatıb orada on gün qalmaq istəsə, günəşin doğuşundan nə qədər keçibsə, on birinci gün günəşin doğuşundan həmin qədər keçməlidir ki, on gün tamamlansın. Odur ki, günəş çıxandan üç saat sonra bir yerə çatıb on birinci gün günəş çıxandan üç saat sonraya qədər orada qalacağını niyyət eləsə, namazı tamdır.

**Məsələ 567:** İnsanın on gün qalacağı yer el arasında bir yer olmalıdır; bir-birinə birləşmiş iki yer (məsələn, iki şəhər və ya iki kənd) el arasında bir yer sayılmayınca, kifayət etməz.

**Məsələ 568:** İnsanın on gün qalmaq niyyəti etdiyi şəhər bir-birinə birləşmiş məhəllələri olan böyük şəhər olsa, yenə də bir yer sayılır və o, məhəllələr arasında get-gəl edə bilər.

**Məsələ 569:** Qaldığı yerlərin bir yer sayılmasına şəkk yarandıqda namaz qəsrdir.

**Məsələ 570:** Əgər bir yerdə on gün qalmaq niyyəti şəkk və ya zənli bir məsələnin həyata keçməsi ilə şərtlənsə, on gün qalmaq niyyəti həyata keçməz və namaz qəsr olar. Misal üçün, bir yerdə on gün qalmasını dostunun gəlişi ilə şərtləndirən şəxs onun gəlib-gəlməyəcəyini bilməsə, hətta gələcəyini güman etsə də, niyyəti həyata keçməz.

**Məsələ 571:** İnsanın on gün qalmaq niyyəti olsa, amma bir maneənin qarşıya çıxacağını və on gün qala bilməyəcəyini ehtimal etsə, bu ehtimal ağıllı insanların etina etməyəcəyi həddə zəif olsa, onun on gün qalmaq niyyəti qəbul olunur və namazı tam qılmalıdır. Lakin ehtimal zəif deyil, ağıllı insanlar üçün diqqətəlayiq olsa, on gün qalmaq niyyəti həyata keçməz və namaz qəsr olar.

**Məsələ 572:** İnsan müəyyən bir günə (məsələn, ayın sonuna) qədər bir yerdə qalmaq niyyəti etsə, o zamana qədər on gün olsa, amma özü bunu bilməsə, on gün qalmaq niyyəti həyata keçməz və namazı tam olar; hərçənd, müstəhəb ehtiyat odur ki, namazı həm tam, həm qəsr qılsın.

**Məsələ 573:** İnsan müəyyən günə, məsələn, (artıq yox) məhz bazar ertəsinə qədər bir yerdə qalacağını planlaşdırsa, o günə qədər on gün olacağını zənn edib on gün qalmaq niyyəti etsə, (halbuki müddət on gündən az olsa) namazı qəsrdir. Yəni vaxtında bilsə, namazını yenidən qılmalı, namazın vaxtı keçəndən sonra bilsə, vacib ehtiyata əsasən, qəza etməlidir.

**Məsələ 574:** İnsan bir yerdə on gün qalmaq niyyəti etsə, hansısa günə qədər on gün olacağını düşünsə, (halbuki on gündən az olsa) lakin niyyəti elə olsa ki, həmin günə qədər on günün tamamlanmadığını bilsə, sonrakı günləri də qalıb mütləq müddəti tamamlayarsa, bu zaman namazı tamdır.

**Məsələ 575:** On gün qalmaq niyyəti namaz qılmaqla şərtlənmir. Bu baxımdan, heyz və ya nifas halında olan qadın on gün qalmaq niyyəti etsə, niyyəti düzgün və etibarlıdır, namaz qılmadığı günlər də on gündən sayılır.

**Məsələ 576:** Səfərdə olan insan namazını qəsr qıldığı yerdə on gün qalmaq niyyəti etsə, gərək namazı dörd rükətlə tamamlasın.

**On gün qalmaq niyyətindən dönmə**

**Məsələ 577:** On gün qalmaq niyyəti etmiş şəxs əda şəklində bir gündəlik dördrükətli namaz qılmazdan qabaq niyyətindən dönsə, yaxud tərəddüd etsə, namazı qəsrdir.

**Məsələ 578:** On gün qalmaq niyyəti etmiş şəxs əda şəklində bir gündəlik dördrükətli namaz qılandan sonra, nə qədər ki o yerdədir, namazı tam olacaq, hətta əgər niyyətindən dönsə və on gün qalmaq istəməsə də. Lakin yalnız sübh və ya şam namazını qılandan sonra fikrindən dönsə, namazı qəsr olar.

**Məsələ 579:** Müsafir ilk dördrükətli namazını qılanda on gün qalmaq niyyətindən dönüb az qalmaq istəsə, namazını qəsrə çevirməlidir. Bu baxımdan, onun qərarı üçüncü rükətə çatmazdan qabaq dəyişibsə, namazı qəsr formasında tamamlamalıdır. Üçüncü rükətdə rükudan qabaq qərarı dəyişsə, vacib ehtiyata əsasən, oturub namazı qəsr şəkildə tamamlamalı və ikinci dəfə qəsr

formasında qılmalıdır. Lakin üçüncü rükətin rükusuna getmiş olsa, namazı batildir.

**Məsələ 580:** On gün qalmaq niyyəti etmiş şəxs oruc tutsa və dördrükətli namaz qılmazdan qabaq niyyətindən dönsə, əgər zöhr azanından sonra niyyətindən dönmüş olsa, orucu düzgündür, zöhr azanından qabaq dönsə, batildir.

**Məsələ 581:** On gün qalmaq niyyəti edəndən sonra insanın dördrükətli bir namazı qəzaya getsə və əda şəklində başqa bir dördrükətli namaz qılmadan fikrindən dönsə, sonrakı namazları qəsr qılmalı, birinci namazı isə hətta səfərdə də olsa, tam qəza etməlidir.

**Məsələ 582:** Öncəki məsələdə deyilən müsafir, namazı həmin səfərdə tam şəkildə qəza etsə və ondan sonra qalmaq fikrindən dönsə, bu dördrükətli qəza namazı sonrakı namazlarının tam olmasına kifayət etməz və namazı qəsr olar.

**Məsələ 583:** İnsan bir dördrükətli namaz qılandan sonra on gün qalmaq fikrindən dönsə, qıldığı namazının da batil olduğu məlum olsa, vəzifəsi qəsrdir.

**Məsələ 584:** Dördrükətli namazın vaxtı keçəndən sonra on gün qalmaq fikrindən daşınsa və keçən vaxt ərzində namaz qılıb-qılmadığına dair şəkk eləsə, namazı tam qılmış kimi qəbul edib sonrakı namazlarını da tam şəkildə qılmalıdır.

**Məsələ 585:** İnsan on gün qalmaq niyyətindən dönəndən sonra, niyyətini dəyişməzdən qabaq dördrükətli namaz qılıb-qılmadığına dair şəkk eləsə, namazı qəsrdir.

**Müsafirin on gün qalmalı olduğu yerdən çıxması**

**Məsələ 586:** On gün qalmaq niyyəti həyata keçəndən sonra 4 fərsəngdən yaxın bir yerə (hətta birgünlüyə və ya daha çox) getmək istəsə, eybi yoxdur və on gün qalmaq niyyətinə xələl gəlməz.

**Məsələ 587:** On gün qalmaq niyyətindən sonra (istər ilk on gündə, istər daha sonra) 4 fərsəngdən yaxın bir yerə gedib yenə qaldığı yerə (qaldığı yer olaraq) qayıtmaq istəsə, yolda, getdiyi və on gün qaldığı yerdə namazı tamdır.

**3. On gün qalmaq niyyəti olmadan bir ay qalmaq**

**Məsələ 588:** İnsan 8 fərsəng yol gedəndən sonra bir yerdə otuz gün tərəddüd içində qalsa, otuzuncu gündən sonra oradan çıxana qədər (yarım gün olsa belə) namazını tam qılmalıdır.

**Məsələ 589:** Bir yerdə on gündən az qalmaq qərarı olan şəxs bu müddət tamamlanandan sonra getmək fikrindən daşınsa və yenə on gündən az qalmağı planlaşdırsa, məsələn, daha bir həftə qalmaq istəsə və bu minvalla orada qalması uzansa və bir ay

tamamlansa, öncəki məsələdə olduğu kimi, otuz birinci gündən namazı tamdır.

**Məsələ 590:** Bir yerdə otuz gündən az, məsələn, iyirmi səkkiz gün tərəddüd içində qalmış adam başqa bir yerə getsə və orada da otuz gündən az tərəddüd içində qalsa, sonra üçüncü yerdə də eyni şəkildə qalsa, hər üç yerdə namazı qəsrdir.

**Məsələ 591:** Otuz günün hesablanması belədir: İnsan günəş çıxanda bir yerə çatıbsa, otuzuncu gün günəş batandan sonra namazı tamdır, otuzuncu gün işa namazını və ondan sonrakı dördrükətli namazları tam qılmalıdır. Lakin günəş çıxandan sonra bir yerə çatsa, otuz birinci gün eyni vaxtda otuz gün tamamlanacaq; yəni günəşin doğuşundan bir saat sonra çatıbsa, otuz birinci gün günəşin doğuşundan bir saat sonra otuz günü tamamlanacaq və ondan sonrakı dördrükətli namazları tam qılacaq.

**Məsələ 592:** Əgər tərəddüdlə qalmağa başladığı gün qəməri ayının birinci günü və həmin ay iyirmi doqquz gündən ibarət olsa, iyirmi doqquzuncu günə qədər namazı qəsr qılmalı, otuzuncu gündə (növbəti ayın birində), vacib ehtiyata əsasən, həm qəsr, həm tam qılmalı, otuz birinci gündən sonra isə tam qılmalıdır.

**Məsələ 593:** Müsafirin tərəddüdlə qaldığı yerlər el arasında bir yer sayılmalıdır. Bu baxımdan, otuz günün bir qədərini bir yerdə, məsələn, Tehranda, bir qədərini də başqa yerdə, məsələn, Kərəcdə qalsa,

tərəddüdlü otuz gün hökmündə deyil və namazı hələ də qəsr olacaq.

**Məsələ 594:** Tərəddüd içində qaldığı otuz gün ərzində 4 fərsəngdən yaxın bir yerə getsə, onun gedişi el arasında bir yerdə otuz gün qalmaqla ziddiyyət təşkil etməsə və ona xələl gətirməsə, otuz gün keçəndən sonra namazı tamdır; misal üçün, günün (hamısını yox) bir hissəsini həmin yerdən çıxıb və bu çıxmaları çox təkrarlanmayıb; məsələn, otuz gün ərzində dörd-beş dəfə oranı tərk edib və hər dəfə üç-dörd saat qalıb qayıdıb.

**Məsələ 595:** On gün qalmaq niyyəti olmadan bir yerdə otuz gün qalmış şəxs otuz birinci gündən etibarən qalmaq niyyəti etmiş şəxs kimidir. Buna görə də, otuz gün tamamlanandan sonra namazını tam qılmalı və şəri məsafədən yaxında olan bir yerə getmək istəsə, on günlük qalmaq bəhsində bəyan olunan hökmləri nəzərə almalıdır; misal üçün, 4 fərsəngdən yaxın bir yerə gedib otuz gün qaldığı yerə qayıtsa və qalmaq niyyəti olmadan orada qalsa, yolda, getdiyi və qayıtdığı yerdə namazı tamdır.

**Məsələ 596:** Otuz gün tamamlandığına görə namazı tam olan şəxs şəri səfər niyyəti ilə oradan çıxsa, vacib ehtiyata əsasən, otuz gün qaldığı yerlə tərəxxüs həddi arasındakı məsafədə namazını həm qəsr, həm tam, ya da təxirə salıb qəsr qılmalıdır.

**Səfərdə nafilənin hökmü**

**Məsələ 597:** Namazın qəsr olduğu səfərdə zöhr və əsr nafilələrini (hətta savaba ümid niyyəti ilə də) qılmaq olmaz.

**Məsələ 598:** İşa namazının nafiləsini (vüteyrə namazını) səfərdə savaba ümidi niyyəti ilə qılmağın eybi yoxdur.

**Məsələ 599:** Səfərdə olan şəxsin boynundan götürülən gündəlik nafilə namazları on gün qalmaq niyyəti etmiş şəxs üçün yerində və müstəhəbdir. Həmçinin müstəhəb oruc da ona müstəhəbdir.

**Məsələ 600:** İxtiyarlı məkanlarda namazı tam qılmaq istəyən şəxs gündəlik nafilələri də qıla bilər.

**Məsələ 601:** Səfərdə olan şəxs gecə nafiləsini, habelə sübh və şam namazlarının nafiləsini qıla bilər.

**Məsələ 602:** Gündəlik nafilələri çıxmaq şərtilə, (çox əhəmiyyətli və fəzilətli olan) Cəfər Təyyar namazı, İmam Mehdi (ə) namazı və ya xüsusi günlərdə, məsələn, cümə günündə qılınan namaz kimi digər müstəhəb namazlar müsafir üçün keçərlidir.

# Qəsrin vacib olduğu zaman tam qılmağın hökmü

**Məsələ 603:** Namazın səfərdə müəyyən şərtlərlə qəsr olduğunu, habelə öz səfərinin həmin şərtlərə malik olduğunu bilən şəxs namazı tam qılsa, batildir; vaxtı bitsə də, bitməsə də, onu yenidən qəsr şəklində qılmalıdır.

**Məsələ 604:** Səfərdə namazın qəsr olduğunu bilməyən və vəzifəsinin əksinə olaraq, namazı tam qılan şəxs qüsurlu cahil[1] olsa, hökmü öyrənəndən sonra namazı yenidən qılması və ya qəza etməsi lazım deyil.

**Məsələ 605:** Öncəki məsələyə əsasən, əgər təqsirli cahil[2] olsa, öyrənməkdə səhlənkarlıq etdiyinə görə günah etmişdir. O, hökmü öyrənəndən sonra namazını yenidən qılmalı, vaxtı çıxmışsa, qəza etməlidir.

**Məsələ 606:** İnsan səfərdə namazın hökmünü bilsə, amma hökmün xüsusiyyətlərini bilmədiyinə görə namazı tam qılsa, vacib ehtiyata əsasən, vaxtında başa düşsə, onu yenidən qılmalı, vaxtı keçəndən sonra bilsə, qəzasını etməlidir; misal üçün,

---

[1] Hökmü bilməyən və öz bilməzliyinə diqqət yetirməyən şəxs

[2] Bilmədiyini bilən və ya öyrənə bildiyi halda öyrənməyən şəxs

səfərdə namazın qəsr olduğunu bilir, amma on gün qalmaq niyyəti edəndən sonra və bir dördrükətli namaz qılmazdan qabaq niyyətindən dönəndə qəsr olduğunu bilməyib tam qılır.

**Məsələ 607:** İnsan səfərdə namazın hökmünü bilsə, amma hökmün öz vəziyyətinə aid olduğunu bilməyib namazı tam qılsa, onu yenidən qılmalıdır; misal üçün, müsafirin vəzifəsinin namazı qəsr qılmaq olduğunu bilir, amma 8 fərsənglik yol getdiyi halda 7 fərsəng getdiyini zənn edib namazını tam qılıb.

**Məsələ 608:** Müsafirin namazını qəsr qılmalı olduğunu unudan və ya səfərdə olduğunu unudub namazını tam qılan şəxs namazın vaxtı bitməmiş bunu xatırlasa, gərək namazı yenidən qılsın; qılmasa, qəzası ona vacibdir. Lakin namazın vaxtı keçəndən sonra bilsə, qəzası yoxdur.

**Məsələ 609:** Müsafirin vəzifəsinin namazı qəsr qılmaq olduğunu bilməyən şəxsin namazı qəza olsa və vaxt bitəndən sonra hökmü bilsə, namazının qəzasını qəsr şəklində qılmalıdır.

**Məsələ 610:** Öncəki məsələyə əsasən, qəzaya getmiş namazı tam şəkildə qılsa, sonra hökmü bilsə, qüsurlu cahildirsə, namazı yenidən qılması lazım deyil.

**Məsələ 611:** Müsafirin namazı qəsr qılmalı olduğunu və ya özünün səfərdə olduğunu unudan şəxs tam qılmaq niyyəti ilə namaza başlasa və

üçüncü rükətə qalxmazdan qabaq yadına düşsə, gərək namazı ikirükətli şəkildə tamamlasın və namazı düzgündür. Əgər üçüncü rükətə qalxandan sonra və rükuya getməzdən qabaq yadına düşsə, gərək oturub salamı desin.

**Məsələ 612:** Öncəki məsələyə əsasən, əgər üçüncü rükətin rükusuna gedəndən sonra yadına düşsə, namazı batildir; istər vaxt geniş olsun, istərsə bir rükət qıla bilməyəcək qədər az olsun. Bu zaman namazı yenidən qılmalı və ya qəza etməlidir.

## Tam qılmağın vacib olduğu zaman qəsr qılmağın hökmü

**Məsələ 613:** Vəzifəsi namazı tam qılmaq olan şəxs, əksinə, qəsr qılsa, namazı batildir. Bu məsələdə bilmək, qəsdən etmək, unutmaq, hökmü və ya bu hökmün ona şamil olduğunu bilməmək arasında fərq yoxdur. Fərq yalnız sonrakı məsələdə bəyan olunandır.

**Məsələ 614:** Bir yerdə on gün qalmaq istəyən şəxs hökmü bilmədiyinə görə namazı qəsr qılsa, namazı düzgündür. Lakin bu hökmün ona şamil olduğunu bilmədiyinə və ya unutduğuna görə qəsr qılsa, namazı batildir və onu yenidən qılmalıdır.

**Məsələ 615:** Vəzifəsi namazı tam qılmaq olan şəxs, məsələn, on gün qalmaq niyyəti etmiş adam unutqanlıqdan, hökmü və ya bu hökmün ona şamil

olduğunu bilməzlikdən qəsr niyyəti ilə namaza başlasa və namazı bitirən salamı[1] deməzdən qabaq başa düşsə, gərək namazını tam şəkildə davam etdirsin və düzgündür.

[1] Birinci salam, yəni "Əssəlamu `ələykə əyyuhən-nəbiyyu və rəhmətullahu və bərəkatuh" cümləsi müstəhəb salamdır və onunla namaz bitmir. Lakin ikinci salam, yəni "Əssəlamu `ələyna və `əla `ibadillahis-salihin" və ya üçüncü salam, yəni "Əssəlamu `ələykum və rəhmətullahi və bərəkatuh" cümlələri namazın bitməsinə səbəb olur.

# Müxtəlif məsələlər

**Məsələ 616:** Namazın ilk vaxtında vətənində və ya on gün qaldığı yerdə olub namazı qılmayan və səfərə gedən şəxs səfərdə namazını qılmaq istəsə, gərək qəsr qılsın.

**Məsələ 617:** Namazın ilk vaxtında səfərdə olub namazı qılmayan şəxs vətəninə və ya on gün qalacağı yerə çatdıqda namazı tam qılmalıdır.

**Məsələ 618:** Namazın ilk vaxtında səfərdə olub namaz qılmayan şəxs vətəninə və ya on gün qaldığı yerə çatandan sonra namazı qəza olsa, onu tam şəkildə qəza etməlidir.

**Məsələ 619:** Namazın ilk vaxtında vətəndə və ya on gün qaldığı yerdə olan şəxs səfərə getsə və namazı səfərdə qəzaya getsə, namazını qəsr şəklində qəza etməlidir.

**Məsələ 620:** Səfərdə olan şəxs dörd ixtiyari yerdə (Məkkədə, Mədinədə, Kufə məscidində və Hüseyn (ə) məzarının yanında) dördrükətli namazlarını həm qəsr, həm tam qıla bilər; tam qılsa, daha fəzilətlidir, ancaq müstəhəb ehtiyat qəsr qılmaqdır.

**Məsələ 621:** İxtiyar hökmü indiki Məkkə və Mədinə şəhərlərinin hər yerində keçərlidir, yalnız Məscidül-hərama və Peyğəmbər (s) məscidinə məxsus deyil. Lakin müstəhəb ehtiyat odur ki, müsafir həmin iki məscidlə kifayətlənsin.

**Məsələ 622:** Kufədə ixtiyar hökmü yalnız Kufə məscidinə aiddir, vacib ehtiyata əsasən, bütün şəhər üçün keçərli deyil.

**Məsələ 623:** Hüseyn (ə) məzarının yanında ixtiyar hökmü günbəzin altına, İmam Hüseynin (ə) qəbrinin yanı adlanan yerə aiddir, ehtiyata əsasən, məqbərənin həyət və zallarına aid deyil.

**Məsələ 624:** Sözügedən dörd yerdə ixtiyar davamlıdır və səfərdə olan şəxs dördrükətli namazlarının hansını istəsə, tam, hansını istəsə, qəsr qıla bilər.

**Məsələ 625:** Müsafirin namazı ixtiyari yerlərdə (qəsdən və ya səhvən) qəzaya getsə və onu başqa yerdə qəza etmək istəsə, daha güclü nəzər budur ki, qəsr qılsın. Hətta həmin yerlərdə qəza etsə də, vacib ehtiyata əsasən, qəsr qılmalıdır.

**Məsələ 626:** Sözügedən dörd yerdə ixtiyar hökmü oruca şamil olmur və müsafir həmin yerlərdə mübarək ramazan ayının orucunu tuta bilməz.

## Qəza namazı

**Məsələ 627:** Gündəlik vacib namazını qəsdən, unudaraq və ya bilməzlikdən vaxtında qılmayan, yaxud vaxtı keçəndən sonra batil olduğunu bilən şəxs onun qəzasını yerinə yetirməlidir.

**Məsələ 628:** İnsan gündəlik vacib namazdan başqa bir namazı, məsələn, ayat namazını vaxtında qılmasa, onun da qəzasını yerinə yetirməlidir.

**Məsələ 629:** Namazın qəzası o zaman vacibdir ki, insan onu qılmadığına və ya qıldığının batil olduğuna əmin olsun; şəkk eləsə və ya ehtimal versə, qəzasını qılması vacib deyil.

**Məsələ 630:** İnsan bütün namaz vaxtı boyunca huşsuz olsa, o namazın qəzası vacib deyil. Lakin huşsuzluğu öz ixtiyarı ilə olsa, vacib ehtiyata əsasən, namazını qəza etməlidir.

**Məsələ 631:** İslam dinini yeni qəbul edən şəxsə müsəlman olmazdan qabaqkı namazlarının qəzasını qılmaq lazım deyil. Lakin əvvəl müsəlman olmuş, sonra İslamdan dönmüş mürtəd tövbə edərsə, mürtədlik dövrünün namazlarının qəzasını qılmalıdır.

**Məsələ 632:** Qadının bütün namaz vaxtı boyu heyz və ya nifas halında olduğu namazların qəzası yoxdur.

**Məsələ 633:** Boynunda qəza namazı olan şəxsin onu dərhal qılması vacib deyil, lakin onu qılmaqda səhlənkarlıq etməməlidir.

**Məsələ 634:** Şəriət hökmünü və ya hökmün ona şamil olduğunu bilmədiyinə görə namazı təharətsiz qılmış şəxs, məsələn, boynuna cənabət qüslü gəldiyini bilməyib namazı qüsl etmədən, yaxud batil

qüsl və ya dəstəmazla qılmış şəxs onu qəza etməlidir.

**Məsələ 635:** İnsan vacib namazının qəzasını qəza olduğu vəziyyətinə uyğun qılmalıdır; yəni vəzifəsi dörd rükət namaz qılmaq ikən qəza olubsa, qəzasını (səfərdə olsa belə) dörd rükət qılmalıdır; əgər dördrükətli namazları (vəzifəsi qəsr qılmaq olan) səfərdə qəzaya veribsə, səfərdə olmasa belə, qəzasını qəsr qılmalıdır.

**Məsələ 636:** Vacib namazın qəzasını sutkanın hər hansı zamanında qılmaq olar; məsələn, sübh namazının qəzasını sübh namazının vaxtında, zöhr namazının qəzasını zöhr namazının vaxtında qılmaq lazım deyil.

**Məsələ 637:** Namazın qəzasında meyar vaxtın sonudur. Bu baxımdan, insan qəzaya getmiş namazın vaxtının sonunda səfərdə olubsa, qəzasını qəsr qılmalıdır; baxmayaraq ki, vaxtın əvvəlində vətənində olub. Habelə vaxtın axırında səfərdə olmayıbsa, gərək tam qılsın; baxmayaraq ki, vaxtın əvvəlində səfərdə olub.

**Məsələ 638:** Qəza namazlarını qılarkən ardıcıllığa riayət eləmək vacib deyil. Lakin bir günün zöhr və əsr, habelə şam və işa namazlarının qəzasında ardıcıllıq olmalıdır.

**Məsələ 639:** Qəza namazlarının sayını bilməyən şəxs əmin olduğu miqdarla kifayətlənə bilər.

**Məsələ 640:** Qəza namazı olan şəxs əda namazını qıla bilər. Ancaq vacib ehtiyata əsasən, yalnız bir qəza namazı varsa, əvvəlcə qəza namazını qılsın; xüsusən də qəza namazı həmin günə aiddirsə.

**Məsələ 641:** Boynunda qəza namazı olan şəxs nafilə namazı və ya başqa bir müstəhəb namaz qıla bilər.

**Məsələ 642:** Gündəlik nafilələrin qəzasını qılmaq müstəhəbdir.

## İcarə namazı

**Məsələ 643:** Ölmüş bir adamın qəza namazı və orucu kimi ibadətləri varsa, onların qəzasını yerinə yetirmək üçün həmin adamın yerinə adam tutmaq (icarə etmək) olar. Həmçinin kimsə onları pulsuz da yerinə yetirə bilər və bu zaman ölmüş şəxsin boynundan götürülər.

**Məsələ 644:** Ölmüş şəxsin əvəzinə muzdla qılınan namaza icarə namazı deyilir.

**Məsələ 645:** Ölmüş şəxs qəza namazlarını qıldırmaq üçün adam icarə etməyi vəsiyyət eləmişsə, bu işə mirasının üçdə biri qədər pul ayırmaq olar. Üçdə birindən artığında isə varisin icazəsi lazımdır.

**Məsələ 646:** Ölmüş adamın namazlarını qılan şəxsin namaz qılarkən ölünü xüsusiyyətləri ilə müəyyən etməsi lazım deyil, ümumi və qısa şəkildə müəyyən etsə, kifayətdir. Misal üçün, iki nəfərin

namazını qılmağa icarə olunan adam birinci icarə olunduğu ölünün namazı kimi niyyət etsə, kifayətdir.

**Məsələ 647:** İcarə namazı üçün (camaat namazı şəklində və ya məsciddə qılmaq kimi) xüsusi bir şərt qoyulmasa, icarə olunan adamın onu yalnız vacibləri ilə qılması lazımdır.

**Məsələ 648:** Ölmüş insanın namazlarını qılmaq üçün eyni cinsdən olmaq şərt deyil; yəni kişi qadının və qadın kişinin qəza namazlarını qıla bilər; istər muzdla qılsın, istər muzdsuz.

**Məsələ 649:** Namazqılan namazı ucadan və ya astadan qılmaqda öz vəzifəsinə uyğun əməl etməlidir; yəni bir kişi qadının qəza namazlarını qılmaq istəyirsə, sübh, şam və işa namazlarının Həmd və surəsini ucadan deməlidir.

**Məsələ 650:** Ölmüş bir insanın qəza namazlarını qılmaq istəyən şəxsdə aşağıdakı şərtlər olmalıdır:

**1:** Namaz məsələlərini ictihadla və ya düzgün təqlidlə bilsin;

**2:** Namazı düzgün qılmağa dair etimadlı şəxs olsun;

**3:** Üzrü olmasın; məsələn, oturan halda namaz qılan şəxs ölmüş insanın namazlarını qılmaq üçün icarə oluna bilməz.

## Ata və ananın qəza namazı

**Məsələ 651:** Atanın və vacib ehtiyata əsasən, ananın qəza namazlarını qılmaq böyük oğula vacibdir.

**Məsələ 652:** Əsla namaz qılmamış ata və ya ananın da qəza namazları, vacib ehtiyata əsasən, böyük oğula vacibdir.

**Məsələ 653:** Böyük oğulda məqsəd ata və ananın ölümü zamanı həyatda olan ən böyük oğuldur; istər həddi-buluğa çatmış olsun, istər yox.

**Məsələ 654:** Ölmüş insanın böyük övladı qız, ikinci övladı oğlan olsa, ata və ananın qəza namazları ikinci övlad olan oğula vacibdir.

**Məsələ 655:** (Böyük oğuldan başqa) bir şəxs onun ata və anasının qəza namazlarını qılsa, böyük oğulun boynundan götürülər.

**Məsələ 656:** Ata və anasının qılmadığına əmin olduğu namazların qəzasını qılmaq böyük oğula vacibdir; əgər onların qəza namazlarının olub-olmadığını bilməsə, ona heç nə vacib deyil, bu barədə axtarış aparmaq da lazım deyil.

**Məsələ 657:** Ata və anasının qəza namazlarını imkanı çatan hər hansı formada qəza etməsi böyük oğula vacibdir. Əgər bu işə aciz olsa, ona heç nə vacib deyil.

**Məsələ 658:** Həm özünün qəza namazı olan, həm də ata və anasının qəza namazları boynuna düşən

adam onların hər hansını birinci qılmaqda ixtiyar sahibidir.

**Məsələ 659:** Ata və ananın vəfatından sonra böyük oğul da dünyadan köçsə, ata və ananın qəza namazları digər övladlara vacib olmaz.

# Ayat namazı

Təbiətin bəzi qəribə hadisələri, məsələn, zəlzələ, günəş tutulması, ay tutulması, qorxunc tufan, şimşək və göy gurultusu həmişə qiyamətin əlamətlərini, habelə Allahın əzəmət və qüdrətini yada salır. Belə vaxtlarda bütün qüdrətlərin mənbəyi olan Allaha diqqət yetirmək və iki rükət ayat namazı qılmaq qorxu və təşvişi rahatlığa çevirməkdən əlavə, yaranış aləmində İlahi iradəni xatırlamağa səbəb olur, xurafata meyl etmək yerinə tövhid ruhunu gücləndirir. Bu iki rükət namazı qılmaq insanın beynini hadisədən Yaradana yönəltmək üçün vasitədir.

**Məsələ 660:** Ayat namazı aşağıdakı dörd səbəbdən biri ilə vacib olur:

1. Günəş tutulması; hərçənd, onun az hissəsi tutulsa da.

2. Ay tutulması; hərçənd, onun az hissəsi tutulsa da.

3. Zəlzələ.

4. İnsanların əksərinin qorxmasına səbəb olan hər hansı qeyri-adi səmavi hadisə, məsələn, qara və qırmızı külək və göy gurultusu.

**Məsələ 661:** Günəş tutulması, ay tutulması və zəlzələdən başqa, ayat namazı yalnız insanların əksərinin qorxusuna səbəb olduqda vacib olur. Bu baxımdan, qorxulu olmayan və ya bəzi şəxslərin qorxmasına səbəb olan hadisə ayat namazını vacib etmir.

**Məsələ 662:** Ayat namazını vacib edən hadisələr bir dəfədən çox baş versə, onların hər biri üçün bir ayat namazı vacibdir.

**Məsələ 663:** Hər bir güclü və ya yüngül zəlzələ üçün, hətta müstəqil zəlzələ sayıldığı təqdirdə, əsas zəlzələdən sonrakı titrəyiş üçün də bir ayat namazı qılınmalıdır.

**Məsələ 664:** Ayat namazı hadisə baş verən zaman həmin yerdə olan şəxslərə vacibdir.

**Məsələ 665:** Ayat namazına səbəb olan hadisələr bu yollardan biri ilə sübut olunur:

1. İnsanın özü bilsin;
2. Əminliyə və ya xatircəmliyə səbəb olan hər hansı yolla məlum olsun;
3. İki ədalətli kişi xəbər versin.

**Ayat namazının vaxtı**

**Məsələ 666:** Günəş və ay tutulması üçün qılınan ayat namazının vaxtı günəşin və ya ayın tutulmağa

başladığı zamandan başlayır. Vacib ehtiyata əsasən, namazı günəş və ya ay açılmağa başlayana qədər təxirə salmaq olmaz.

**Məsələ 667:** İnsan ayat namazını günəşin və ya ayın açılmağa başladığı zamana qədər gecikdirsə, namazı qürbət qəsdi ilə, əda və ya qəza niyyəti etmədən qılmalıdır. Lakin namazı tam açılana qədər gecikdirsə, gərək qəza niyyəti ilə qılsın.

**Məsələ 668:** (Başvermə zamanı qısa olan) zəlzələ, şimşək və göy gurultusu kimi hadisələrdə, ehtiyata əsasən, insan tez ayat namazını qılmalıdır; əgər gecikdirsə, onu ömrünün sonuna qədər əda və qəza niyyəti etmədən qılmalıdır.

**Məsələ 669:** Seysmologiya mərkəzi bir bölgədə yüngül zəlzələnin baş verdiyini elan etsə və bu, yalnız cihazlar vasitəsilə bilinsə, orada yaşayan insanlar əsla hiss etməsələr, ayat namazı vacib olmaz.

**Məsələ 670:** Ay və günəş tutulan zaman əsla xəbər tutmayan və onlar açılandan sonra bilən şəxs tutulma tam olduğu təqdirdə ayat namazının qəzasını qılmalıdır, yalnız bir qədəri tutulmuş olsa, qəza vacib deyil.

**Məsələ 671:** Günəş və ya ay tutulan zaman xəbəri olub (hərçənd, unutduğuna görə) ayat namazını qılmayan şəxs onun qəzasını qılmalıdır; tutulma tam şəkildə olmasa da, hökm belədir.

**Məsələ 672:** (Günəş və ay tutulmasından başqa) hadisələrdən vaxtında xəbər tutan və ayat namazını, unutqanlıqdan olsa belə, qılmayan şəxs sonradan qılmalıdır. Əgər vaxtında xəbər tutmasa və hadisədən sonra bilsə, vacib ehtiyata əsasən, qılmalıdır.

**Ayat namazının qılınma tərzi**

**Məsələ 673:** Ayat namazı iki rükətdir, hər rükətində beş rüku və iki səcdə var. Onu bir neçə şəkildə qılmaq olar:

Birinci üsul: Hər rükətdə beş Həmd və beş surə

Namazqılan niyyət və ehram təkbirindən sonra bir Həmd və tam bir surə oxuyub rükuya gedir, sonra rükudan qalxıb yenə Həmd və surə oxuyub ikinci rükuya gedir, yenə rükudan qalxıb eyni şəkildə davam edir. Beşinci rükudan qalxandan sonra isə səcdəyə gedir və iki səcdədən sonra ikinci rükətə qalxıb onu da birinci rükət kimi qılır, iki səcdədən sonra təşəhhüd və salam deyir.

İkinci üsul: Hər rükətdə bir Həmd və bir surə

Bu üsulda surə beş hissəyə bölünür. Namazqılan niyyət və ehram təkbirindən sonra Həmdi və surənin (istər bir ayə olan, istərsə də ayədən az və ya çox olan) bir hissəsini oxuyub rükuya gedir. Rükudan qalxandan sonra Həmdi oxumadan surənin ikinci hissəsini oxuyub ikinci rükuya gedir. Bu minvalla davam edir, hər rükudan qabaq bir hissəsini

oxuduğu surə beşinci rükudan qabaq bitir, sonra beşinci rükuya gedib qalxır, səcdəyə gedir və iki səcdədən sonra ikinci rükətə qalxıb birinci rükət kimi qılır, təşəhhüd və salamla namazı bitirir.

**Məsələ 674:** Vacib ehtiyata əsasən, namazqılan "Bismillahir-rəhmanir-rəhim"i surənin bir hissəsi hesab edib ondan sonra rükuya gedə bilməz.

**Məsələ 675:** Gündəlik namazlarda vacib və ya müstəhəb olan məsələlər ayat namazında da eyni hökmdədir. Lakin ayat namazında azan və iqamənin yerinə savab niyyəti ilə üç dəfə "Əssəlah" deyilir.

**Məsələ 676:** Beşinci və onuncu rükulardan sonra "Səmi`allahu limən həmidəh" demək, habelə hər rükudan qabaq və sonra təkbir demək müstəhəbdir. Beşinci və onuncu rükudan sonra isə təkbir demək müstəhəb deyil.

**Məsələ 677:** İkinci, dördüncü, altıncı, səkkizinci və onuncu rükulardan qabaq qünut tutmaq müstəhəbdir. Əlbəttə, onuncu rükudan qabaq bir qünut da tutulsa, kifayətdir.

### Ayat namazında şəkk

**Məsələ 678:** İnsan dörd, yoxsa beş rüku etdiyinə dair şəkk eləsə, səcdəyə getmək üçün əyilməmişdirsə, başqa bir rüku da etməlidir; əgər əyilmişdirsə, gərək şəkkinə fikir verməsin.

**Məsələ 679:** Ayat namazının rükularından hər biri rükndür; əgər insan qəsdən və ya səhvən azaldıb-artırsa, namaz batil olar.

**Məsələ 680:** Qıldığı ayat namazının batil olduğunu bilən şəxs onu yenidən qılmalı, vaxtı keçmişdirsə, qəza etməlidir.

## Fitr və qurban bayramı namazı

**Məsələ 681:** Fitr və qurban bayramı namazı məsumun (ə) aşkarda olduğu dövrdə vacibdir, gərək camaat namazı şəklində qılınsın, (böyük qeyb dövrü olan) hazırkı dövrdə isə müstəhəbdir.

**Məsələ 682:** Fitr və qurban bayramı namazının vaxtı bayram günü günəş çıxandan günortaya qədərdir.

**Məsələ 683:** Müstəhəbdir ki, qurban bayramının namazı günəş qalxandan sonra qılınsın. Fitr bayramında isə müstəhəbdir ki, günəş qalxandan sonra əvvəlcə iftar edilsin, fitrə zəkatı verilsin, sonra bayram namazı qılınsın.

**Məsələ 684:** Fitr və qurban bayramı namazı iki rükətdir. Namazqılan birinci rükətdə Həmd və surədən sonra beş təkbir deyir, hər təkbirdən sonra bir qünut tutur, beşinci qünutdan sonra başqa bir təkbir deyib rüku edir və iki səcdədən sonra ayağa qalxır. İkinci rükətdə Həmd və surədən sonra dörd təkbir deyir, hər təkbirdən sonra qünut tutur. Beşinci

təkbiri deyəndən sonra rükuya gedib namazı davam etdirir və bitirir.

**Məsələ 685:** Fitr və qurban bayramı namazında qiraətin ucadan oxunması müstəhəbdir.

**Məsələ 686:** Bayram namazının xüsusi surəsi yoxdur, amma yaxşı olar ki, birinci rükətdə Şəms, ikinci rükətdə isə Ğaşiyə surəsi, yaxud birinci rükətdə Əla, ikinci rükətdə Şəms surəsi oxunsun.

**Məsələ 687:** Fitr və qurban bayramı namazının qünutunda hər hansı dua və zikr deyilsə, kifayətdir, amma yaxşı olar ki, savab niyyəti ilə bu dua oxunsun:

"Allahummə əhləl-kibriyai vəl-\`əzəməh. Və əhləl-cudi vəl-cəbərut. Və əhləl-\`əfvi vər-rəhməh. Və əhlət-təqva vəl-məğfirəh. Əsəlukə bihəqqi hazəl-yəvm, əlləzi cə\`əltəhu lil-musliminə \`ida. Və limuhəmmədin səlləllahu \`ələyhi və alihi zuxrən və şərəfən və kəramətən və məzida. Ən tusəlliyə \`əla muhəmmədin və ali muhəmməd. Və ən tudxiləni fi kulli xəyrin ədxəltə fihi muhəmmədən və alə muhəmməd. Və ən tuxricəni min kulli suin əxrəctə minhu muhəmmədən və alə muhəmməd. Sələvatukə \`ələyi və \`ələyhim. Allahummə inni əsəlukə xəyrə ma səələkə bihi \`ibadukəs-salihun. Və ə\`uzu bikə mimməstə\`azə minhu \`ibadukəl-muxləsun".

**Məsələ 688:** Bayram namazının qünutlarını qısa və ya uzun oxumağın eybi yoxdur, amma saylarını artırıb-azaltmaq olmaz.

**Məsələ 689:** İnsan namazın təkbir və qünutlarında şəkk eləsə, yeri keçməmişsə, şəkkin az tərəfini qəbul etməlidir; sonradan çox tərəfinin düzgün olduğu yadına düşsə də, eybi yoxdur.

**Məsələ 690:** Əgər qiraəti, təkbir və qunutları yaddan çıxarsa, namaz düzgündür, amma rükunu, yaxud iki səcdəni və ya ehram təkbirini yaddan çıxarsa, batil olar.

**Məsələ 691:** Fitr və qurban bayramı namazlarının qəzası yoxdur.

## Camaat namazı

İslam dininin ictimai ruhu bir çox dini vəzifələrdə, o cümlədən namazda görünür. Bu ibadətin kollektiv şəkildə və camaatla yerinə yetirilməsi böyük əzəmət yaradır, möminlər arasında həmrəyliyə, birliyə və əməkdaşlığa səbəb olur. Camaat namazı qılanlara Allah tərəfindən böyük savab da verilir. Camaat namazı tövsiyə olunduğu qədər, ona etinasızlıq və camaat namazında iştirak etməmək də məzəmmət olunmuş, nifaq əlaməti sayılmışdır. Camaat namazı eyni zamanda rəhbərə tabe olmaq, pak və saleh insanları önə keçirmək, öz əməllərini onlara baxaraq, onların əməllərinə uyğun şəkildə yerinə yetirmək üçün bir hazırlıqdır.

**Camaat namazının müstəhəb olması**

**Məsələ 692:** Gündəlik vacib namazları camaatla qılmaq müstəhəbdir. Sübh, şam və işa namazlarını belə qılmaq isə daha çox tövsiyə olunmuşdur.

**Məsələ 693:** Camaat namazında iştirak etmək hamıya müstəhəbdir, amma məscidin qonşuluğunda yaşayanlara və azan səsini eşidənlərə daha çox tövsiyə olunmuşdur.

**Məsələ 694:** Camaat namazı qılınanda namazını tək halda qılmış şəxsin camaatla bir daha qılması müstəhəbdir. Əgər onu qılandan sonra birinci namazının batil olduğunu bilsə, ikinci namazı kifayət edir.

**Məsələ 695:** İnsan üç və ya dördrükətli namaz qılarkən camaat namazı başlasa və namazını bitirəndən sonra camaata çatacağına xatircəm olmasa, əgər üçüncü rükətin rükusuna getməyibsə, müstəhəbdir ki, o namazı müstəhəb namaz niyyəti ilə iki rükətdə bitirib özünü camaata yetirsin.

**Məsələ 696:** Ata-ana öz övladına namazı camaatla qılmağı əmr etsə, belə ki, camaatla qılmamaq onların narahatlığına səbəb olsa, ehtiyata əsasən, övlad namazını camaatla qılmalıdır.

**Məsələ 697:** Namazda vasvasılıq edən şəxsin namazı camaatla qılması vacib deyil. Lakin vasvasılığı namazı pozmasına, yaxud bir zikri çox təkrarlaması fasiləsizliyin pozulmasına və namazın batil olmasına səbəb olsa, vacibdir.

**Camaatla qılınması düzgün olan namazlar**

**Məsələ 698:** Bütün gündəlik vacib namazları camaat namazı şəklində qılmaq olar. İmam gündəlik namazlarından birini qılırsa, həmin namazı və ya başqa bir gündəlik namazı ona iqtida etmək olar.

**Məsələ 699:** İmam namazını ehtiyat üçün yenidən qılırsa, iqtida edən də yalnız namazını ehtiyat üçün yenidən qıldığı və ehtiyat cəhəti imamla bir olduğu təqdirdə ona iqtida edə bilər.

**Məsələ 700:** İmam gündəlik namazlarından hər hansını qılarsa, iqtida edən gündəlik namazlarından hər birinin qəzasını ona iqtida edə bilər.

**Məsələ 701:** İmam gündəlik namazının qəzasını qılırsa, gündəlik vacib namazı və ya qəzasını ona iqtida etmək olar. Lakin ehtiyat üçün namazını qəza edirsə, yəni qəza olduğunu qəti şəkildə bilmədiyi bir namazı qılırsa, özü üçün və ya başqası üçün qılmasından asılı olmayaraq, ona iqtida etmək olmaz.

**Məsələ 702:** Gündəlik namazını ehtiyat (istər müstəhəb ehtiyat, istər vacib ehtiyat) üçün yenidən qılan şəxs (əda və ya qəza) şəkildə vacib namaz qılan şəxsə iqtida edə bilər.

**Məsələ 703:** İmamın və ya iqtida edənin namazı qəsr olsa da, camaat namazı düzgün və savabdır.

**Məsələ 704:** Cümə namazı camaat namazı şəklində qılınmalıdır, tək qılınması düzgün deyil.

**Məsələ 705:** Gündəlik namazların camaat namazında imamlığı bir dəfə təkrarlamaq icazəlidir, bu şərtlə ki, ikinci camaat namazındakı iqtida edənlar birincidəkindən fərqli adamlar olsun.

**Camaatla qılınması düzgün olmayan namazlar**

**Məsələ 706:** Kəbə təvafı namazını camaatla qılmaq düzgün deyil.

**Məsələ 707:** (Qeyb dövründə müstəhəb olan) fitr və qurban bayramı namazından və istisqa (yağış) namazından başqa heç bir müstəhəb namazı camaat namazı şəklində qılmaq olmaz.

**Məsələ 708:** Şəriətdə qədir bayramı namazının camaatla qılınması yoxdur.

**Məsələ 709:** İmamın qıldığı namazın vacib, yoxsa müstəhəb olduğu bilinməyincə ona iqtida etmək olmaz.

**Məsələ 710:** Gündəlik namazı (rəkətlərdə şəkk zamanı qılınan) ehtiyat namazına, habelə ehtiyat namazını gündəlik namaza iqtida eləmək olmaz.

**Camaat imamının şərtləri**

**Məsələ 711:** Camaat namazında imam ağıllı, ədalətli, on iki imamçı şiə, halalzadə və ehtiyata əsasən, həddi-büluğa çatmış olmalı, namazı düzgün qılmalıdır; əgər iqtida edən kişidirsə, imam da kişi olmalıdır.

**Məsələ 712:** Əgər bütün iqtida edənlər qadın olsa, imam da qadın ola bilər.

**Məsələ 713:** Ayaq üstə namaz qılan şəxs oturan və ya uzanan halda namaz qılana iqtida edə bilməz.

**Məsələ 714:** Oturan halda namaz qılan şəxs oturan halda namaz qılana iqtida edə bilər.

**Məsələ 715:** Hansısa üzrünə görə təyəmmümlə, cəbirə dəstəmazı ilə, yaxud murdar bədən və ya paltarla namaz qılan şəxsə iqtida etmək olar.

**Məsələ 716:** İnsan ədalətli olduğunu bildiyi bir imamın hələ də ədalətli qalıb-qalmamasına dair şəkk eləsə, ona iqtida edə bilər.

**Camaat namazının şərtləri**

**Məsələ 717:** Camaat namazında aşağıdakı şərtlərə əməl olunmalıdır:

1. İqtida edən imamdan öndə dayanmasın, vacib ehtiyata əsasən, hətta bir qədər arxada dayansın;
2. İmamın yeri iqtida edənlərin yerindən hündür olmasın; əlbəttə, azacıq (bir qarışdan az) hündür olsa, eybi yoxdur;
3. İmamla iqtida edənin, habelə cərgələrin arasındakı məsafə çox olmasın;
4. İmamla iqtida edənin, habelə cərgələrin arasında divar və ya pərdə kimi maneə olmasın; lakin qadınlarla kişilərin arasına pərdə və bu kimi şeylər çəkməyin eybi yoxdur.

**Məsələ 718:** Camaat namazı yoxuşda qılınırsa və imam yuxarı tərəfdə dayanırsa, yoxuşun səviyyəsi ona düz yer deyiləcək həddə olsa, maneəsi yoxdur.

**Məsələ 719:** İqtida edənin yeri hündürdə olsa, onun hündürlüyü məscidin həyəti və damı kimi normal həddə olsa, bir neçə mərtəbəli binalar kimi olmasa, camaat namazı düzgündür.

**Məsələ 720:** Vacib ehtiyata əsasən, iqtida edənin səcdə yeri ilə imamın dayandığı yer, habelə öndəki cərgənin dayandığı yerlə arxadakı cərgənin səcdə yeri arasında bir uzun addımdan (təxminən bir metrdən) artıq məsafə olmasın.

**Məsələ 721:** İqtida edən öndən imama birləşməsə, yalnız sağ və ya sol tərəfindəki adam vasitəsi ilə birləşsə, namazı düzgündür.

**Məsələ 722:** Namaz əsnasında imamla iqtida edən, yaxud iqtida edənlə onun imama birləşməsinə vasitə olan başqa bir iqtida edən arasında uzun bir addımdan çox məsafə yaransa, camaata birləşmə kəsilir və namazı tək olur.

**Məsələ 723:** Camaat namazında birləşmə vasitəsi həddi-büluğa çatmamış uşaq olsa, namazının düzgün olduğunu bilsələr, iqtida edib camaat namazı qıla bilərlər.

**Məsələ 724:** Öndəki cərgədə dayananların hamısının namazı bitsə, yaxud hamısı tək namaz niyyətinə keçsə, arxadakı cərgə ilə daha öndəki cərgə arasındakı məsafə böyük bir addım qədər olmasa,

camaata birləşmə yerində və camaat namazı düzgündür. Məsafə bu həddən çox olsa, onların namazı tək olacaq. Lakin namazını bitirmiş şəxslər dərhal yenidən iqtida etsələr, düzgündür.

**Məsələ 725:** İmamın namazı batil olsa və ya iqtida edənlərdən qabaq bitsə, məsələn, müsafir olsa, iqtida edənlər özlərindən (imam şərtlərinə malik olan) birisini seçib namazın qalanını ona iqtida edə bilərlər.

## İqtida edənin tabelik baxımından vəzifələri

**Məsələ 726:** İqtida edən ehram təkbirini imamdan öncə deyə bilməz, hətta vacib ehtiyata əsasən, imamın təkbiri bitməmiş deməməlidir.

**Məsələ 727:** İmamın təkbirindən sonra öndəki cərgədəkilər namaza hazır olsalar və təkbir demələri yaxın olsa, sonrakı cərgədə dayan şəxs təkbir deyə bilər.

**Məsələ 728:** İqtida edən Həmd və surədən başqa namazın bütün zikrlərini özü deməlidir. Lakin imamın namazının üçüncü və ya dördüncü rükətində iqtida eləsə, gərək Həmd və surəni desin.

**Məsələ 729:** İqtida edən sübh namazında, şam və işa namazlarının birinci və ikinci rükətlərində imamın Həmd və surəsini eşitsə, sözləri ayırd etməsə belə, Həmd və surəni deyə bilməz. Həmçinin,

imamın Həmd və surəsinin sözlərindən bəzisini də eşitsə, vacib ehtiyata əsasən, deyə bilməz. Lakin imamın səsini eşitməsə, Həmd və surəni astadan oxuması müstəhəbdir. Əgər səhvən ucadan oxusa da, eybi yoxdur.

**Məsələ 730:** İqtida edən zöhr və əsr namazlarının birinci və ikinci rükətlərində, vacib ehtiyata əsasən, Həmd və surə oxumamalıdır; onun yerinə zikr deməsi müstəhəbdir.

**Məsələ 731:** İnsan imamın kimliyini müəyyən edərkən səhvə yol versə, məsələn, Əlinin imam olduğunu düşünüb iqtida eləsə, namazdan sonra isə imamın Əhməd olduğunu bilsə, Əhməd də ədalətli şəxs olsa və onun iqtidası xüsusi bir adamın imamlığı ilə bağlı olmasa, qıldığı camaat namazı düzgündür. Lakin iqtidası xüsusi bir adamın (Əlinin) imamlığına bağlı olsa, camaat namazı batildir və rükn əlavə etməmişdirsə, namazı fərdi şəkildə düzgün sayılır.

**Məsələ 732:** Əgər iqtida edən namazın sözlərini[1] imamdan tez və ya gec desə, eybi yoxdur. Bundan yalnız ehram təkbiri istisnadır ki, hökmü qeyd olundu. Ehram təkbirindən başqa yerlərdə imamın nə dediyini eşitsə və ya nə vaxt dediyini bilsə,

---

[1] Namazın hissələri iki qisimdir:

a) Namazın sözləri – təkbir, Həmd, surə, zikr və s.

b) Namazın işləri – qiyam, rüku, səcdə və s.

müstəhəb ehtiyata əsasən, imamdan qabaq deməməlidir.

**Məsələ 733:** İqtida edən namazın işlərini imamla və ya imamdan bir qədər sonra yerinə yetirməlidir. Əgər bilərəkdən imamdan önə keçsə, ya ondan (imama tabelik sayılmayacaq həddə) bir müddət sonra yerinə yetirsə, namazı fərdi olacaq.

**Məsələ 734:** Əgər səhvən imamdan qabaq rükuya getsə, gərək qalxıb yenə onunla birlikdə getsin, namazı imamla tamamlasın. Belə olan halda camaat namazı düzgündür. Lakin rükudan qayıtmasa, namazı fərdi namaz kimi düzgündür.

**Məsələ 735:** Əgər səhvən imamdan qabaq rükudan qalxsa, imamsa hələ rükuda olsa, gərək rükuya qayıtsın. Bu zaman namazın rüknünün çoxalması namazı batil etmir. Lakin rüku həddinə çatmazdan qabaq imam rükudan qalxsa və o, sonra rükuya çatsa, namazı batildir.

**Məsələ 736:** Əgər səhvən imamdan qabaq səcdəyə getsə, vacibdir ki, qalxıb imamla getsin. Bu zaman camaat namazı düzgündür.

**Məsələ 737:** İnsan səhvən imamdan qabaq səcdədən qalxıb imamın hələ səcdədə olduğunu görsə və o da səcdəyə qayıtsa, amma imamın səcdəsinə çatmasa, namazı düzgündür. Lakin bu hal hər iki səcdədə baş versə, namazı batildir.

**Məsələ 738:** Əgər səhvən imamdan qabaq rüku və ya səcdədən qalxsa, səhvən və ya imamın rüku və ya

səcdəsinə çatmayacağını düşünərək qayıtmasa, namazı düzgündür.

**Məsələ 739:** Əgər qünut olmayan bir rükətdə imam səhvən qünut tutsa, iqtida edən qünut tutmamalıdır, lakin imamdan öncə rükuya gedə də bilməz; gərək gözləsin, imamın qünutu bitsin və namazı imamla davam etdirsin.

**Məsələ 740:** Təşəhhüd olmayan bir rükətdə imam səhvən təşəhhüd oxusa, iqtida edən təşəhhüd oxumamalıdır, amma ondan öncə qalxa da bilməz; gərək gözləsin, imam təşəhhüdünü bitirsin və namazı onunla davam etdirsin.

**Birinci rükətdə iqtida**

**Məsələ 741:** İnsan imamın birinci və ya ikinci rükətində ona iqtida eləsə, həmin rükətdə Həmd və surə onun boynundan götürülər.

**Məsələ 742:** İmam qiyam halında olsa və iqtida edən onun neçənci rükətdə olduğunu bilməsə, iqtida edə bilər; lakin Həmd və surəni qürbət qəsdi ilə deməlidir və camaat namazı düzgündür. O, sonradan imamın birinci və ya ikinci rükətdə olduğunu bilsə də, eybi yoxdur.

**Məsələ 743:** İmamın birinci və ya ikinci rükətdə olduğunu düşünüb Həmd və surəni deməsə, rükuya gedəndən sonra imamın üçüncü və ya dördüncü rükətdə olduğunu bilsə, namazı düzgündür. Lakin rükudan qabaq bilsə, gərək Həmd və surəni oxusun;

vaxtı olmasa, gərək yalnız Həmdi oxusun və rükuda imama çatsın.

**Məsələ 744:** Əgər namazın əvvəlində, yaxud Həmd və ya surə əsnasında iqtida eləsə və rükuya getməzdən qabaq imam rükudan qalxsa, onun camaat namazı düzgündür; gərək rükuya getsin, sonra özünü imama çatdırsın.

**Rükuda iqtida**

**Məsələ 745:** İmam rükuda olanda iqtida eləsə, aşağıdakı hallardan birinə uyğun əməl etməlidir:

1. Rüku həddinə çatanda imam hələ rükuda olsa, camaat namazı düzgündür və bir rükət sayılır; hərçənd, imamın zikri bitmiş olsa da.

2. Rüku həddinə çatanda imam rükudan qalxan halda və ya artıq ayaq üstə olsa, namazı fərdi şəkildə düzgündür; onun birinci rükəti sayılacaq və namazı davam etdirməlidir.

3. Rüku qədər əyilsə və imamın rükusuna çatıb-çatmadığına dair şəkk eləsə, namazı fərdi olaraq düzgündür; onun birinci rükəti sayılır və namazını davam etdirməlidir.

4. Rüku qədər əyilməzdən qabaq imamın rükudan qalxdığını görsə, bu zaman fərdi namaz niyyəti edə bilər.

**İkinci rükətdə iqtida**

**Məsələ 746:** Namazqılan ikinci rükətdə iqtida eləsə, imamın namazına əsasən, üç halda ola bilər:

1. İmamın namazı ikirükətlidirsə, müstəhəbdir ki, iqtida edən qünut zikrini imamla desin, imam təşəhhüd deyəndə isə qalxıb namazın qalanını fərdi şəkildə qılsın və ya yarıqalxmış vəziyyətdə dayanıb imamın salamı deməsini gözləsin, sonra qalxsın.

2. İmamın namazı üçrükətli olsa, müstəhəbdir ki, qünut və təşəhhüdü imamla desin, vacib ehtiyata əsasən, təşəhhüd zamanı yarıqalxmış vəziyyətdə otursun, təşəhhüddən sonra imamla birlikdə qalxıb Həmd və surəni oxusun, surəyə vaxt olmasa, yalnız Həmdi oxuyub rükuda imama çatsın, iki səcdədən sonra ikinci rükətin təşəhhüdünü desin; onun namazı da üçrükətli olsa, imam salam deyəndə ya qalxıb namazının qalanını fərdi şəkildə qılsın, ya da yarıqalxmış vəziyyətdə otursun, imamın salamından sonra üçüncü rükətə qalxsın.

3. İmamın namazı dördrükətlidirsə, namazının birinci rükətində qabaqkı fərz kimi etsin, ikinci rükətində (imamın üçüncü rükətində) iki səcdədən sonra təşəhhüdün vacib qədərini deyib ayağa qalxsın, üçüncü rükəti yerinə yetirsin, üç dəfə təsbihata vaxt olmasa, bir dəfə deyib rükuda imama çatsın və namazın qalanını deyilən şəkildə davam etdirsin.

**Üçüncü və ya dördüncü rükətdə iqtida**

**Məsələ 747:** Namazqılan üçüncü və ya dördüncü rükətdə imama iqtida etsə, Həmd və surəni deməli, surəyə vaxt olmasa, yalnız Həmdi deməli, rükuda imama çatmalıdır.

**Məsələ 748:** İqtida edən surəni oxuyacağı təqdirdə rükuda imama çatmayacağını bilsə, gərək surəni oxumasın; əgər oxusa və imamın rükusuna çata bilməsə, namazı fərdi olacaq.

**Məsələ 749:** İmam namazın üçüncü və ya dördüncü rükətində olsa, insan iqtida edib Həmdi oxuyacağı təqdirdə imamın rükusuna çatmayacağını bilsə, vacib ehtiyata əsasən, gözləməli, imam rükuya gedəndə iqtida etməlidir.

**Məsələ 750:** İmam namazın axırıncı rükətinin təşəhhüdünü deyərkən gəlib camaat namazının savabına nail olmaq istəyən şəxs gərək niyyət etsin, ehram təkbirindən sonra oturub namazın təşəhhüdünü imamla desin, amma salam deməsin, imamın salamı deməsini gözləsin, sonra ayağa qalxıb namazını davam etdirsin; yəni Həmd və surəni oxusun və onu birinci rükəti hesab etsin. Bu, yalnız camaat namazının axırıncı təşəhhüdünə aiddir və camaat namazının savabına nail olmaqdan ötrüdür. Üçrükətli və dördrükətli namazların ikinci rükətinin təşəhhüdündə bu şəkildə camaata qoşulmaz olmaz.

**Camaat namazından fərdi namaza keçmək**

**Məsələ 751:** İnsan camaat namazı əsnasında niyyətini fərdiyə dəyişdirib namazı təkbaşına davam etdirə bilər; hətta namazın əvvəlindən niyyəti belə olsa da. Əlbəttə, müstəhəb ehtiyata əsasən, namazın əvvəlindən belə niyyət etməsin.

**Məsələ 752:** İqtida edən imamın qiraəti bitəndən sonra fərdi niyyət eləsə, qiraəti oxuması lazım deyil. Lakin qiraət əsnasında, Həmdi bitirəndən sonra fərdi niyyət eləsə, Həmdi oxuması lazım deyil. Lakin Həmd və ya surə əsnasında fərdi niyyət eləsə, vacib ehtiyata əsasən, onu əvvəldən ümumi qürbət qəsdi ilə oxumalıdır.

**Məsələ 753:** Əgər camaat namazı əsnasında fərdi niyyət eləsə, vacib ehtiyata əsasən, hətta qısa fasilədən sonra da yenidən camaat niyyəti edə bilməz. Həmçinin, fərdi niyyət etsin və ya etməsin deyə tərəddüd eləsə, vacib ehtiyata əsasən, namazını fərdi şəkildə sona çatdırmalıdır.

**Camaat namazının müstəhəb və məkruh əməlləri**

**Məsələ 754:** Yaxşı olar ki, imam cərgənin ortasında dayansın, elm, dəyər və təqva sahibləri birinci cərgədə dursunlar.

**Məsələ 755:** Müstəhəbdir ki, camaat namazının cərgələri nizam-intizamlı olsun, bir cərgədə dayanan

şəxslər arasında məsafə olmasın və çiyinləri bərabər olsun.

**Məsələ 756:** Müstəhəbdir ki, "Qəd qamətis-səlah" deyiləndən sonra iqtida edənlər ayağa qalxsınlar.

**Məsələ 757:** Müstəhəbdir ki, imam zəif iqtida edənlərı nəzərə alsın, zəif adamların ona çatması üçün tələsməsin.

**Məsələ 758:** Müstəhəbdir ki, imam ucadan qılınan namazların Həmd və surəsində və ucadan deyilən zikrlərdə səsini digərlərinin eşidəcəyi qədər qaldırsın, amma həddən artıq ucaltmasın.

**Məsələ 759:** İmam rükuda ikən kiminsə təzə çatdığını və iqtida etmək istədiyini bilsə, müstəhəbdir ki, rükunu həmişəkindən iki dəfə artıq uzatsın, sonra qalxsın; hətta başqa bir şəxsin də iqtida etmək istədiyini bilsə də.

**Məsələ 760:** Camaat namazının cərgələrində yer olsa, bir cərgədə tək dayanmaq məkruhdur.

**Məsələ 761:** İqtida edənin namazın zikrlərini imamın eşidəcəyi səslə deməsi məkruhdur.

## Cümə namazı

Cümə namazı müsəlmanların Allah zikri və ibadət mövzuları əsasında həftəlik toplantısıdır. Cümə imamının oxuduğu xütbələr həm moizə və islah xarakterli, həm də maarifləndiricidir. Bu namaz İslam dövlətinin xüsusiyyətlərindən olub siyasi və

hökumət cəhətlərinə malikdir, habelə İslam ümmətinin əzəmətini və dini hakimiyyətin qüdrətini tərənnüm edir. Quranda Cümə adlı surənin olması, müsəlmanlara cümə günləri bu namaza tələsmənin əmr olunması onun əhəmiyyətini göstərir. Cümə namazı həm müsəlmanları birləşdirir, həm düşmənin təbliğatlarını zərərsizləşdirir, həm də İslamın ictimai vəzifələri və qlobal məsələləri ilə tanışlıq imkanı yaradır. Bu, həm də qüvvə səfərbərliyi sayılır, bu mərasimdə davamlı iştirak İslam ümmətinin və İslam quruluşunun amalları ilə həmrəylik əlamətidir.

**Məsələ 762:** Cümə günü zöhr namazının yerinə qılınan cümə namazı (imamın (ə) qeybdə olduğu) hazırkı dövrdə ixtiyari vacibdir.[1] Müstəhəb ehtiyata əsasən, İranda ədalətli İslam hakimiyyətinin qurulduğu bu dövrdə cümə namazı imkan daxilində tərk olunmasın.

**Məsələ 763:** Cümə namazına əhəmiyyətsizlik səbəbindən onda iştirak etməmək şəriət baxımından xoşagəlməz işdir.

### Cümə namazının şərtləri

**Məsələ 764:** Cümə namazının düzgünlüyünün şərtləri bunlardır:

---

[1] İnsan cümə günü vacib zöhr namazını və ya cümə namazını qılmaqda ixtiyar sahibidir.

1. Camaat namazı şəklində qılınsın;

2. Namazqılan ən azı beş nəfər olsun (bir imam, dörd iqtida edən);

3. Camaat namazında lazım olan bütün şərtlərə, məsələn, cərgələrin bir-birinə birləşməsinə əməl olunsun;

4. İki cümə namazı arasında ən azı bir fərsəng[1] məsafə olsun.

**Məsələ 765:** Namazı qəsr olan şəxs cümə namazında iştirak edə, zöhr namazının yerinə bu namazı qıla bilər.

**Məsələ 766:** İki cümə namazı arasındakı məsafədə meyar namazın qılındığı yerdir, cümə namazının təşkil olunduğu şəhər deyil.

**Məsələ 767:** Əgər bir fərsəngdən az məsafə ilə iki cümə namazı qılınsa, birinci başlanan namaz düzgün, ikincisi batildir; əgər ikisi də eyni vaxtda başlasa, hər ikisi batildir.

**Cümə imamının şərtləri**

**Məsələ 768:** Camaat namazının imamına lazım olan bütün şərtlər, məsələn, ədalət şərti cümə imamı üçün də lazımdır.

**Məsələ 769:** Cümə imamına iqtida edərkən insanda onun ədalətliliyinə əminlik olsa, namazdan

---

[1] Bir fərsəng təxminən 5125 metrdir.

sonra isə şəkk və ya ədalətli olmadığına əminlik yaransa, iqtida etdiyi namazlar düzgündür.

**Məsələ 770:** Bir şəxsin cümə imamlığına təyin olunması iqtida edənin onun ədalətinə etimadına və xatircəmliyinə səbəb olsa, ona iqtidanın düzgünlüyü üçün kifayətdir.

**Cümə namazının vaxtı**

**Məsələ 771:** Cümə namazının vaxtı günəş zaval edəndən (zöhrün əvvəlindən) başlayır, vacib ehtiyat odur ki, el arasında zöhr namazının vaxtının əvvəlləri sayılan zamandan gec qılınmasın.

**Məsələ 772:** Cümə imamı namazın xütbələrini günortadan qabaq söyləyə bilər.

**Cümə namazının qılınma tərzi**

**Məsələ 773:** Cümə namazı iki rükətdir və namazdan öncə cümə imamı tərəfindən edilən iki xütbəsi var.

**Məsələ 774:** Ehtiyata əsasən, cümə namazının qiraəti ucadan oxunmalıdır. Müstəhəbdir ki, birinci rükətdə Cümə, ikinci rükətdə isə Münafiqun surəsi oxunsun, həmçinin (birinci rükətdə rükudan qabaq, ikinci rükətdə də rükudan sonra olmaqla) iki qünut tutulsun.

**Cümə imamının vəzifəsi**

**Məsələ 775:** Vacibdir ki, xütbələri (başqa şəxs yox) cümə imamı ayaq üstə oxusun. Əgər ayaq üstə oxuya bilməsə, xütbələri və cümə namazını başqa biri yerinə yetirsin.

**Məsələ 776:** Cümə imamının birinci xütbədən sonra və ikinci xütbədən qabaq bir qədər oturması vacibdir.

**Məsələ 777:** İmamın xütbələri astadan oxuması icazəli deyil. Vacib ehtiyata əsasən, o qədər ucadan oxumalıdır ki, ən azı cümə namazı üçün lazım olan minimum sayda adamlar (dörd nəfər) eşidə bilsin. Müstəhəb ehtiyata əsasən, moizə edərkən və təqvanı tövsiyə edərkən öz səsini, səsucaldanlar vasitəsilə olsa belə, bütün iştirakçılara çatdırsın.

**Məsələ 778:** Birinci xütbədə imamın Allaha həmd-səna etməsi, sonra Peyğəmbərə (s) salam göndərməsi, insanları təqvaya çağırması və kiçik bir Quran surəsi oxuması vacibdir; ikinci xütbədə də Allaha həmd-səna edib əziz Peyğəmbərə (s) salam göndərməlidir. Vacib ehtiyat odur ki, ikinci xütbədə də insanları təqvaya çağırsın, Qurandan kiçik bir surə oxusun və müstəhəb ehtiyata əsasən, Peyğəmbərə (s) salamdan sonra məsum imamlara (ə) da salam göndərsin və möminlər üçün bağışlanma istəsin.

**Cümə namazını qılanların vəzifəsi**

**Məsələ 779:** Ehtiyata əsasən, namazqılanlar cümə imamının xütbələrinə qulaq asmalı, sakit qalmalı, danışmaqdan çəkinməlidirlər.

**Məsələ 780:** Müstəhəb ehtiyata əsasən, xütbələr oxunan zaman iqtida edənlərin üzü imama doğru olmalı, üzlərini qiblədən namazda icazə veriləndən artıq çevirməməlidirlər.

**Məsələ 781:** İnsan cümə xütbələrinin heç bir sözünə çatmasa, yalnız namaz vaxtı çatıb cümə imamına iqtida etsə, namazı düzgündür və zöhr namazını əvəz edir. Hətta cümə namazının axırıncı rükətinin rükusundan qabaqkı anlarda da gəlsə, cümə namazı niyyəti ilə iqtida edib ikinci rükəti cümə namazının ikinci rükəti kimi qıla bilər. Bu namaz da zöhr namazını əvəz etməyə kifayətdir.

## Cümə namazına aid müxtəlif məsələlər

**Məsələ 782:** Cümə namazı İslamın atributlarından, müsəlmanların birlik nümunələrindəndir, möminlər arasında ixtilafın yaranmasına və cərgələrinin seyrəlməsinə səbəb olan heç bir iş icazəli deyil.

**Məsələ 783:** Cümə günü əsr namazında cümə imamından başqa birinə iqtida etməyin eybi yoxdur.

**Məsələ 784:** Cümə namazında iştirak etməmiş şəxs zöhr namazını ilk vaxtda qıla bilər, cümə namazının bitməsini gözləmək vacib deyil.

**Məsələ 785:** Cümə namazı ilə eyni vaxtda, cümə namazının qılındığı yerə yaxın bir yerdə zöhr namazını camaatla qılmağın öz-özlüyündə eybi yoxdur, amma bu işin möminlərin parçalanmasına, cümə namazına etinasızlığa və ya cümə imamına qarşı hörmətsizliyə səbəb olmasının mümkünlüyünü nəzərə alaraq, yaxşı olar ki, belə bir camaat namazı qılınmasın. Fəsada və harama səbəb olacağı təqdirdə isə onu təşkil etməkdən çəkinmək vacibdir.

# ORUC

Oruc səmavi dinlərdə ən önəmli özünüislah proqramlarından biridir və keçmiş ümmətlərə də vacib olmuşdur. Mənəvi paklığın yaranması, aclıq və susuzluğu dadmaq, məhrumlarla empatiya hissini oyatmaq, iradəni və nəfsin istəkləri qarşısında müqaviməti gücləndirmək, qiyamətin aclığını və susuzluğunu yada salmaq onun nəticələrindəndir. Orucun sağlamlığa və orqanizmin enerjini tənzimləməsinə dair müsbət rolu da sübut olunmuşdur. Peyğəmbərdən (s) nəql olunmuş "oruc tutun ki, sağlam olasınız" hədisi bu təsirə işarədir. Bunlardan əlavə, Allah oruc tutanlara böyük mükafat verəcəkdir.

Cinsi istəyin azalması, həmçinin ağır şəraitlərə və qida məhdudiyyətlərinə dözüm hazırlığı, iradəli,

özünü islah etmiş, möhkəm və qane insanlar yetişdirmək baxımından təsirləri də bu ibadətin digər faydalarından sayılır və mübarək ramazan ayında baş tutur.

İlahi övliyalar ramazan ayının vacib orucundan əlavə, çoxlu müstəhəb oruclar da tutur və bunu Allaha yaxınlaşmağa səbəb bilirdilər.

**Məsələ 786:** Müqəddəs İslam şəriətində oruc odur ki, insan Allahın əmrini yerinə yetirmək məqsədilə doğruçu fəcrin[1] doğuşundan şama qədər orucu batil edən əməllərdən – onlar geniş şəkildə bəyan olunacaq – çəkinsin.

---

[1] Doğruçu və yalançı fəcrlər vardır. Yalançı fəcr doğruçu fəcrdən bir qədər öncə səmada yaranan, üfüqə yayılmayıb şaquli şəkildə yuxarıya doğru əks olunan işıqdır. Üfüqə birləşmiş ağ işıq zəif işıqla doğub üfüqə yayılmağa başlayanda isə doğruçu fəcr doğmuş sayılır. Zaman ötdükcə onun işığı da artır.

Doğruçu fəcr zəif olduğuna görə onu görmək üçün şərqdə tam açıq və qaranlıq bir üfüqə ehtiyac var, şəhər içindən onu görmək çox çətindir. Bunu dəqiq müəyyən etməyin çətinliyini nəzərə alaraq, ehtiyat məqsədilə, sübh azanı başlayanda imsak etmək, sübh namazını isə azan başlayandan təxminən 10 dəqiqə sonra qılmaq lazımdır.

# Orucun vacib olmasının və düzgünlüyünün şərtləri

**Məsələ 787:** Orucun vacib olmasının şərtləri aşağıdakılardır:

1. Həddi-büluğ; 2. Ağıl; 3. Qüdrət; 4. Huşsuz olmamaq; 5. Müsafir olmamaq; 6. Heyz və nifas halında olmamaq; 7. Orucun zərərli olmaması; 8. Orucun böyük məşəqqətə səbəb olmaması.

**Məsələ 788:** Oruc yuxarıdakı şərtlərə malik olan insanlara vacibdir. Bu baxımdan, həddi-büluğa çatmamış uşağa, ruhi xəstəyə, huşsuz adama, oruc tutmağı bacarmayana, səfərdə olana, heyz və nifas halında olan qadına, orucun zərərli və ya çox məşəqqətli olduğu insana oruc tutmaq vacib deyil.

**Məsələ 789:** Uşaq ramazan ayında sübh azanından qabaq həddi-büluğa çatsa, gərək oruc tutsun; əgər azandan sonra həddi-büluğa çatsa, həmin günün orucu vacib deyil.

**Məsələ 790:** Yenicə həddi-büluğ yaşına çatan qızlara[1] oruc tutmaq vacibdir, sırf çətinliyə, fiziki zəifliyə və bu kimi səbəblərə görə onu tərk etmək olmaz. Lakin oruc zərərli olsa və ya böyük məşəqqət tələb etsə, tərk olunar.

---

[1] Məşhur nəzərə əsasən, qız ay ili ilə doqquz yaşı tamam olanda (günəş ili ilə səkkiz yaş səkkiz ay iyirmi üç günündə) həddi-buluğa çatır.

**Məsələ 791:** Heyz və nifas halında olan qadının orucu düzgün deyil; hətta şamdan azca qabaq adət olsa və ya uşağını dünyaya gətirsə, habelə doğruçu fəcr doğandan azca sonra heyz və ya nifasdan pak olsa da.

**Məsələ 792:** İnsan orucun zərərli olduğunu bilsə və ya ağıllı insanların əhəmiyyətli yanaşdığı həddə ehtimal versə, (yəni zərər qorxusu olsa) oruc ona vacib deyil, bəzən hətta haram da ola bilər; istər bu əminlik və qorxu şəxsi təcrübədən yaransın, istər etibarlı həkim söyləsin və ya ağıllı insanların qəbul etdiyi başqa bir mənbəyi olsun. Bu zaman oruc tutsa, düzgün deyil. Lakin qürbət qəsdi ilə oruc tutsa və sonradan zərərli olmadığı üzə çıxsa, düzgündür.

**Məsələ 793:** Orucun zərərli olmadığını düşünən şəxs oruc tutsa və iftardan sonra orucun zərərli olduğunu bilsə, orucu batildir, sonra qəzasını tutmalıdır.

**Məsələ 794:** Orucun xəstəlik yaratdığını, xəstəliyi gücləndirdiyini, oruc tuta bilmədiyini və ya orucun zərərli olduğunu təyin etmək insanın öz boynunadır. Bu baxımdan, həkim "oruc ziyandır" desə, amma onun sözü xatircəmlik və ya zərər qorxusu yaratmasa, yaxud insan öz təcrübəsi ilə orucun ziyanlı olmadığını bilsə, gərək oruc tutsun. Həmçinin, həkim "orucun ziyanı yoxdur" desə, amma özü ziyanlı və ya ağıllı insanların qəbul etdiyi

zərər qorxusunun olduğunu bilsə, oruc tutmamalıdır və oruc tutmaq ona haramdır.

**Məsələ 795:** Xəstə ramazan ayında gündüz vaxtı yaxşılaşsa, niyyət edib həmin gün oruc tutması vacib deyil, amma günortadan qabaq yaxşılaşsa və orucu batil edən heç bir iş görməmiş olsa, müstəhəb ehtiyata əsasən, niyyət edib oruc tutmalı, ramazan ayından sonra qəzasını da tutmalıdır.

**Məsələ 796:** Müstəhəb orucun düzgün olması üçün insanın boynunda ramazan orucunun qəzası, habelə vacib ehtiyata əsasən, başqa bir vacib oruc olmamalıdır.

**Məsələ 797:** Boynunda qəza orucu olan və qəza orucu olduğu halda müstəhəb orucun düzgün olmadığını bilməyən şəxs müstəhəb niyyəti ilə oruc tutsa, orucu batildir, qəza orucundan da sayılmaz.

**Məsələ 798:** Boynunda qəza orucunun olub-olmadığını bilməyən şəxs "vəzifəmə uyğun oruc tuturam" (yəni qəza orucum varsa qəza, yoxdursa müstəhəb) deyə oruc tutsa və əslində, boynunda qəza orucu olsa, qəza orucu sayılar.

**Məsələ 799:** Boynunda ramazan ayının qəza orucu olan şəxs unudub müstəhəb oruc tutsa, oruc ikən yadına düşsə, müstəhəb oruc batil olar; əgər günortadan qabaq yadına düşsə, qəza orucunu niyyət edə bilər, amma günortadan sonra olsa, qəza orucunun niyyəti də düzgün deyil.

# Orucun vacib əməlləri

**Məsələ 800:** Orucda iki vacib məsələyə əməl etmək lazımdır:

1. Niyyət etmək;
2. Orucu batil edən işlərdən çəkinmək.

**1. Niyyət**

**Məsələ 801:** Bütün ibadətlər kimi, oruc da niyyətlə olmalı, yeməkdən, içməkdən və orucu batil edən digər işlərdən çəkinmək Allahın əmrinə itaət üçün baş tutmalıdır. Əlbəttə, belə bir qərarın və iradənin özü kifayətdir, onu dillə söyləmək lazım deyil.

**Məsələ 802:** Niyyət zamanı ramazan ayının orucunun növünü təyin etmək lazım deyil, təkcə oruc niyyəti kifayətdir. Başqa oruclarda isə növün, ümumi şəkildə olsa belə, müəyyən edilməsi lazımdır. Misal üçün, boynunda yalnız qəza orucu olan şəxs ya müəyyən şəkildə qəza orucu, ya da ümumi şəkildə boynunda olan orucu tutduğunu niyyət etməlidir. Əgər boynunda bir neçə növ oruc, məsələn, qəza və nəzir orucları varsa, tutduğu orucun hansından olduğunu müəyyən etməlidir.

**Məsələ 803:** Boynunda vacib oruc olduğunu, amma hansı növdən olduğunu bilməyən şəxs boynundakı vacib oruc niyyəti ilə tuta bilər.

**Məsələ 804:** Şəbanın sonuncu, yoxsa ramazanın birinci günü olduğu bilinməyən gündə (bu günə şəkk günü deyilir)[1] oruc tutmaq vacib deyil. Həmin gün oruc tutmaq istəyən şəxs ramazan ayının orucunu niyyət edə bilməz, gərək şəbanın axırının müstəhəb orucu, yaxud qəza orucu və ya buna bənzər bir oruc niyyəti etsin. Sonradan ramazan ayının girdiyi bəlli olsa, ramazan orucu hesab olunacaq və qəzası lazım olmayacaq. Günboyu nə vaxt ramazan ayının girdiyini bilsə, həmin andan ramazan orucunu niyyət etməlidir.

**a) Ramazan orucunun niyyəti**

**Məsələ 805:** Oruc doğruçu fəcr zamanından başladığına görə onun niyyəti də həmin andan gecikməməlidir və yaxşı olar ki, fəcrdən qabaq edilsin.

---

[1] Hicri-qəməri ayının 29-cu günü günbatan çağı hava buludlu olduğuna və ya başqa səbəbə görə ay görünməsə, yaxud ayın görünməsi barədə fikir ayrılığı olsa, həmin gün şəkk günü adlanır. Şəban ayının axırıncı günüylə ramazan ayının birinci günü arasında şəkk yarandıqda həmin gün şəbanın axırıncı günü sayılır. Həmin gün müstəhəb və ya qəza niyyəti ilə oruc tutmaq olar, lakin ramazan ayının niyyəti ilə oruc tutmaq haramdır. Ramazan ayının axırıncı günü ilə şəvval ayının birinci günü arasında şəkk yarandıqda da, ramazan ayının axırıncı günü hesab olunur və oruc vacibdir.

**Məsələ 806:** İnsan ramazan ayının hər gecəsi sabahkı günün orucu üçün niyyət edə bilər, amma daha yaxşısı budur ki, ayın birinci gecəsində bütün ayın orucunu niyyət etsin və hər gecə öz niyyətini yeniləsin.

**Məsələ 807:** İnsan axşam ikən sabah oruc tutacağını niyyət etsə, sonra yatıb sübh azanından sonra oyansa, yaxud başı qarışsa, sübhün gəldiyini bilməsə və sonradan diqqət etsə, orucu düzgündür.

**Məsələ 808:** Ramazan ayında başqa bir oruc niyyəti etmək olmaz. Lakin ramazan orucunu tuta bilməyən müsafir səfərdə müstəhəb oruc tutacağını nəzir etmiş olsa, bu zaman ramazan ayında tutduğu nəzir orucu düzgündür.[1]

**Məsələ 809:** İnsan ramazan ayının gecəsində, fəcr doğanadək qəsdən oruc niyyəti eləməsə, gündüz niyyət eləsə belə, orucu düzgün deyil. Əlbəttə, gərək həmin gün şama qədər orucu batil edən bütün işlərdən çəkinsin və ramazandan sonra həmin günün qəzasını etsin.

**Məsələ 810:** Ramazan ayında unutqanlıqdan və ya məlumatsızlıqdan oruc niyyəti etməyən və gün ərzində bunu bilən şəxs orucu batil edən bir iş görmüş olsa, oruc niyyəti edə bilməz; istər günortadan qabaq bilsin, istər sonra. Lakin orucu

---

[1] Əlbəttə, ramazan ayında tutduğu nəzir orucu ramazan orucu sayılmır, ramazan orucunu sonradan qəza etməlidir.

batil edən bir iş görməmiş olsa, günorta azanından sonra bilsə, yenə də oruc niyyəti düzgün deyil və hər iki halda şama qədər orucu batil edən işlərdən çəkinməlidir. Lakin günortadan qabaq bilsə, vacib ehtiyata əsasən, oruc niyyəti etməli, sonradan həmin günün qəzasını da tutmalıdır.

**b) Ramazandan başqa orucun niyyəti**

**Məsələ 811:** İnsana ramazan orucundan başqa bir müəyyən oruc vacib olsa, məsələn, müəyyən bir gündə oruc tutacağını nəzir etmiş olsa, qəsdən fəcr doğana qədər niyyət etməsə, orucu batildir. Lakin yadından çıxsa və günorta azanından qabaq yadına düşsə, oruc niyyəti edə bilər.

**Məsələ 812:** Qeyri-müəyyən bir vacib oruc, məsələn, kəffarə və ya qəza orucu üçün (qəsdən və ya səhvən) günortadan qabaq niyyət eləməsə, o vaxtacan orucu batil edən bir iş görməmişsə, niyyət edə bilər və orucu düzgündür. Lakin günortadan sonra edilən oruc niyyəti düzgün deyil.

**Məsələ 813:** Müstəhəb orucu günün hər bir vaxtında niyyət etmək olar, bu şərtlə ki, o vaxta qədər orucu batil edən bir iş görmüş olmasın.

**Niyyətdə davamlılıq**

**Məsələ 814:** Müəyyən vacib orucda, məsələn, ramazan ayının orucunda və ya müəyyən nəzir orucunda niyyətin fəcr doğandan şama qədər davam

etməsi vacibdir. Bu baxımdan, insan gün ərzində oruc niyyətindən dönsə və orucunu davam etdirmək niyyəti olmasa, orucu batil olar və onu davam etdirmək üçün yenidən niyyət etməyin də faydası olmaz. Əlbəttə, şam azanına qədər orucu batil edən işlərdən çəkinməlidir.

**Məsələ 815:** İnsan müəyyən vacib orucda gün ərzində orucu davam etdirib-etdirməməyə tərəddüd etsə, yaxud orucu batil edən işlərdən birini görmək qərarına gəlsə, amma onu görməsə, vacib ehtiyata əsasən, orucu tamamlamalı və sonradan qəzasını da tutmalıdır.

**Məsələ 816:** İnsan müstəhəb və (vacibliyi müəyyən bir günə aid olmayan) qeyri-müəyyən vacib orucda orucu kəsmək qərarına gəlsə və ya tərəddüd etsə, əgər orucu batil edən bir iş görmüş olmasa, günortaya qədər qeyri-müəyyən vacib oruc üçün, qürubdan öncəyə qədər də müstəhəb oruc üçün bir daha niyyət edə bilər.

**2. Orucu batil edən işlərdən çəkinmək**

**Məsələ 817:** Doqquz əməl orucu batil edir:

1. Yemək və içmək;
2. Cinsi əlaqə;
3. Spermanın çıxmasına səbəb olan iş (istimna);
4. Sübh azanına qədər cənabət, heyz və ya nifas halında qalmaq;
5. Maye ilə imalə etmək;

6. Qusmaq;

7. Allahın, Peyğəmbərin (s) və ya imamların (ə) adından yalan danışmaq (vacib ehtiyata əsasən);

8. Qatı tozu boğaza çatdırmaq (vacib ehtiyata əsasən);

9. Başı tam şəkildə suya batırmaq (vacib ehtiyata əsasən).

**1. Yemək və içmək**

**Məsələ 818:** Oructutan qəsdən və şüurlu şəkildə bir şey yesə və ya içsə, orucu batil olar; istər adi yeməli və içməlilərdən olsun, istərsə də kağız və parça kimi yeməli olmayan bir şey; istər çox olsun, istərsə su damlası və ya xırda çörək qırıntısı kimi az.

**Məsələ 819:** Oructutan səhvən bir şey yesə və içsə, orucu batil olmaz; istər vacib oruc olsun, istər müstəhəb.

**Məsələ 820:** Oructutan dişlərinin arasında qalmış xörəyi qəsdən udsa, orucu batil olar; amma dişlərinin arasında xörək olduğunu bilməsə və ya onu qəsdən və diqqətlə udmasa, oruc batil olmaz.

**Məsələ 821:** Ağız suyunu udmaq orucu batil eləmir.

**Məsələ 822:** Baş və ya sinədən gələn, amma ağız boşluğuna çatmamış irini və bəlğəmi udmaq orucu batil eləmir, amma ağız boşluğunda olsa, vacib ehtiyata əsasən, udmaq olmaz.

**Məsələ 823:** Vacib ehtiyata əsasən, oructutan gücləndirici və ya damara vurulan iynələrdən, habelə müxtəlif serumlardan çəkinməlidir. Lakin gücləndirici olmayan, antibiotik, ağrıkəsici və ya keyidici kimi əzələ iynələrini vurmağın, habelə yara və yarıqların üzərinə dərman qoymağın eybi yoxdur.

**Məsələ 824:** Vacib ehtiyata əsasən, oructutan tütün və buna bənzər məhsulların tüstüsündən, burunla və ya dilin altından cəzb olunan narkotik maddələrdən çəkinməlidir.

**Məsələ 825:** Xəstəliyin müalicəsi üçün zəruri olan həb və bu kimi maddələr qəbul etməyin eybi yoxdur, amma oruc batil olur və sonradan qəzası tutulmalıdır.

**Məsələ 826:** Dilaltı həblərdən istifadə zamanı ona qarışmış ağız suyu bayıra atılsa, oruc düzgündür.

**Məsələ 827:** İnsan xörək yediyi yerdə sübhün açıldığını bilsə, gərək ağzındakıları çıxarsın; əgər qəsdən udsa, orucu batildir.

**Məsələ 828:** Ağızdan qan gəlməsi orucu batil eləmir, amma boğaza getməsinin qarşısını almaq vacibdir.

**Məsələ 829:** Dişin və diş ətinin qanı ağızın suyuna qarışıb itsə, pakdır və onu udmaq orucu batil eləmir. Həmçinin, ağızın suyunda qan olmasına dair şəkk olsa, onu udmağın eybi yoxdur və oruc düzgündür.

**Məsələ 830:** Uşaq üçün xörəyi çeynəmək, xörəyin dadına baxmaq və bu kimi işlər, adətən boğaza

getmədiyinə görə, orucu batil eləmir, hərçənd təsadüfən və ixtiyarsız olaraq boğaza getsə və udsa belə. Lakin boğazına gedəcəyini əvvəldən bilsə, gedəcəyi təqdirdə orucu batil olar.

**Məsələ 831:** İnsan zəifliyə görə orucunu yeyə bilməz. Lakin zəifliyi adətən dözülməyəcək həddə olsa, orucu açmaq, sonra qəzasını tutmaq olar.

### 2. Cinsi əlaqə

**Məsələ 832:** Cinsi əlaqə – sperma xaric olmasa belə - orucu batil edir.

**Məsələ 833:** İnsan oruc olduğunu unudub yaxınlıq etsə, orucu batil olmaz, ancaq yadına düşən anda dərhal əməli tərk etməlidir, əks təqdirdə, orucu batil olar.

### 3. İstimna (masturbasiya)

**Məsələ 834:** Oructutan qəsdən özündən sperma xaric eləsə, orucu batil olar.

**Məsələ 835:** İnsan spermanın xaric olması məqsədilə bir iş görsə, ancaq sperma xaric olmasa, ehtiyata əsasən, orucunu tamamlamalı, sonradan qəzasını da tutmalıdır.

**Məsələ 836:** Oructutandan yuxuda və ya ayıqlıqda ixtiyarsız olaraq sperma xaric olsa, orucu batil olmaz.

**Məsələ 837:** Gündüz möhtəlim[1] olmaq orucu batil etməz. Oructutan yatdıqda möhtəlim olacağını bilsə də, yata bilər.

**Məsələ 838:** Oructutan sperma xaric olan halda yuxudan oyansa, qarşısını alması vacib deyil.

**Məsələ 839:** Ramazan ayının gündüzlərində və oruc olduğu digər günlərdə yuxuda oructutanın boynuna cənabət qüslü gəlsə, oyanandan sonra dərhal qüsl verməsi vacib deyil.

**4. Sübh azanına qədər cənabətli, heyzli və ya nifaslı qalmaq**

**Məsələ 840:** İnsan ramazan ayının gecəsində cənabətli olsa, sübh azanına (fəcr doğana) qədər qüsl verməlidir. Əgər bilərəkdən o vaxta qədər qüsl verməsə, orucu batildir. Əlbəttə, bu zaman şama qədər orucu batil edən işlərdən çəkinməlidir.

**Məsələ 841:** İnsan ramazan ayının gecəsində cənabətli olsa və sübh azanına qədər bilmədən qüsl verməsə, məsələn, yuxuda cənabətli olsa və sübh azanından sonra oyansa, orucu düzgündür.

**Məsələ 842:** Qəza orucu tutmaq istəyən şəxs fəcr doğana qədər qəsdən cənabət qüslünü verməsə, orucu batildir; əgər səhvən qüsl verməsə, ehtiyata əsasən, orucu batildir.

---

[1] Yuxuda spermanın xaric olması

**Məsələ 843:** Ramazan ayının gecəsində cənabətli olan və yatacağı təqdirdə sübh azanından qabaq oyanacağını bilən şəxs oyanandan sonra qüsl verməyi düşünmürsə və ya bu barədə tərəddüd edirsə, yatıb oyanmasa, orucu batildir.

**Məsələ 844:** Oyaq halda cənabətli olan, yaxud yuxuda cənabətli (möhtəlim) olandan sonra oyanan və yatacağı təqdirdə sübh azanından qabaq qüsl vermək üçün oyanmayacağını bilən şəxs qüsl vermədən yata bilməz; əgər yatsa və azandan qabaq qüsl verməsə, orucu batildir. Lakin sübh azanından qabaq qüsl üçün oyanacağını ehtimal etsə, qüsl vermək fikri də olsa, amma oyanmasa, orucu düzgündür. Lakin oyanandan sonra yenə yatsa və sübhə qədər oyanmasa, gərək həmin günün qəzasını yerinə yetirsin.

**Məsələ 845:** İnsan ramazan ayında cənabət qüslünü unutsa və cənabətli halda sübh olsa, o günün orucu düzgündür. Lakin bu unutqanlıq bir neçə gün davam etsə, gərək unutduğu günlərin qəzasını etsin; əlbəttə, namazlar hər halda batildir.

**Məsələ 846:** Cənabətli qalmağın orucu batil etdiyinə dair şəkk edib cənabətli halda oruc tutan şəxsin orucu, vacib ehtiyata əsasən, batildir və onun qəzasını etməlidir.[1] Lakin cənabətli qalmağın orucu

---

[1] Oruc vacib ehtiyata əsasən batil olarsa, insan orucunu tutmalı, sonradan qəzasını da yerinə yetirməlidir.

batil etmədiyinə əmin olsa və bu səbəbdən oruc tutsa, orucu düzgündür; hərçənd, ehtiyata görə orucun qəzasını etsə, yaxşıdır.

**Məsələ 847:** Ramazan ayının gecəsində vəzifəsi qüsl vermək olan şəxs vaxtın azlığına, suyun zərərli olduğuna və ya digər bu kimi səbəbə görə qüsl verə bilməsə, gərək fəcrin doğuşundan öncə qüsl əvəzinə təyəmmüm etsin.

**Məsələ 848:** Ramazan ayının gecəsində qüsl və təyəmmümə vaxtı olmayan şəxs özünü cənabətli etsə, orucu batildir, qəza və qəsdən orucu pozma kəffarəsi də vacibdir. Lakin yalnız təyəmmümə vaxtı olsa, özünü cənabətli etsə və fəcrin doğuşundan qabaq təyəmmüm eləsə, orucu düzgündür.

**Məsələ 849:** Vəzifəsi təyəmmüm olan şəxs mübarək ramazan ayının gecələrində özünü cənabətli edə bilər, bu şərtlə ki, cənabətli olandan sonra təyəmmüm üçün yetərincə vaxt qalsın.

**Məsələ 850:** Qadın heyz və ya nifas qanından paklansa, gərək fəcrin doğuşundan qabaq qüsl etsin; əgər qəsdən qüsl verməsə, orucu batildir.

**Məsələ 851:** Qadın oruc halında aylıq adətə başlasa və ya doğsa, orucu batil olar.

**Məsələ 852:** Qadın sübh azanından sonra aylıq adətindən və ya nifasdan paklansa, həmin gün oruc tuta bilməz.

**Məsələ 853:** Qadın heyz və ya nifas qüslünü unutsa və sonradan yadına düşsə, həmin müddətdə

tutduğu oruclar düzgündür; istər ramazan ayının orucu olsun, istər başqa bir oruc.

### 5. İmalə etmək

**Məsələ 854:** Maye ilə imalə etmək çarəsizlikdən və müalicə üçün olsa belə, orucu batil edir. Lakin bərk şamdan istifadə etməyin eybi yoxdur və orucu batil etmir.

### 6. Qusmaq

**Məsələ 855:** Oructutan qəsdən qussa, orucu batil olar. Xəstəlikdən və ya başqa səbəbdən buna məcbur olsa da, hökm belədir. Lakin səhvən və ya qeyri-ixtiyari olaraq qussa, oruc batil olmaz.

**Məsələ 856:** İnsan gəyirdiyi zaman ağzından bir şey çıxsa, gərək onu bayıra atsın. Lakin ixtiyarsız olaraq udsa, orucu düzgündür.

### 7. Allahın, peyğəmbərlərin (ə) və ya məsumların (ə) adından yalan danışmaq

**Məsələ 857:** Allahın, peyğəmbərlərin və ya məsumların adından yalan danışmaq, vacib ehtiyata əsasən, orucu batil edir; hərçənd, sonradan tövbə etsə və dediyinin yalan olduğunu söyləsə də.

**Məsələ 858:** Kitablarda qeyd olunmuş və insanın yalan olduğunu bilmədiyi hədisləri söyləməyin eybi yoxdur, hərçənd, müstəhəb ehtiyata əsasən, onları həmin kitaba istinadla nəql etməlidir.

**Məsələ 859:** İnsan bir sözün doğru olduğunu düşünərək onu Allah-taalanın, Peyğəmbərin və ya məsumların adından nəql etsə, sonradan yalan olduğunu bilsə, orucu batil olmaz.

**Məsələ 860:** Oructutan Allah-taalanın və əziz Peyğəmbərin (s) adından yalan danışmağın orucu batil etdiyini bildiyi halda, yalan olduğunu bildiyi bir sözü onlara aid etsə və sonradan doğru olduğu üzə çıxsa, ehtiyata əsasən, orucunu tamamlamalı, sonradan qəzasını da etməlidir.

**Məsələ 861:** Oructutandan "Peyğəmbər (s) belə bir söz buyurmuşdurmu?" deyə soruşsalar və o, qəsdən həqiqətin əksinə cavab versə, ehtiyata əsasən, orucu batildir.

**8. Qatı tozun boğaza getməsi**

**Məsələ 862:** Vacib ehtiyata əsasən, oructutan qatı tozu, məsələn, torpaq yeri süpürərkən qalxan tozu, habelə siqaretin və digər tütün məhsullarının tüstüsünü udmamalıdır. Bunu etsə, ehtiyata əsasən, orucu batildir.

**Məsələ 863:** Nəfəs darlığını aradan qaldıran dərman spreyinin oruca eybi yoxdur və onu batil eləmir.

**Məsələ 864:** Tüstü və tozun ağız və buruna girməsi, amma boğaza çatmaması orucu batil eləmir.

**Məsələ 865:** Külək qatı toz qaldırsa, insan da oruc olduğunu bilə-bilə diqqət etməsə və toz boğazına getsə, vacib ehtiyata əsasən, orucu batildir.

**Məsələ 866:** İnsan oruc olduğunu unutsa və boğazına toz getsə, orucu batil olmaz. Həmçinin, ixtiyarsız olaraq toz getsə, orucu düzgündür.

**9. Başı suya batırmaq**

**Məsələ 867:** Oructutan qəsdən bütün başını suya salsa, vacib ehtiyata əsasən, orucu batil olar və həmin günün qəzasını etməlidir.

**Məsələ 868:** Öncəki məsələyə əsasən, başı suya batırarkən bədənin də suda olub-olmamasının fərqi yoxdur.

**Məsələ 869:** İnsan başının yarısını suya salıb-çıxarsa, sonra o biri yarısını salsa, orucu batil olmaz.

**Məsələ 870:** İnsan qəsdən bütün başını suya salsa, amma saçın bir hissəsi bayırda qalsa, vacib ehtiyata əsasən, orucu batil olar.

**Məsələ 871:** İnsan bütün başının suya batıb-batmadığına dair şəkk eləsə, orucu düzgündür.

**Məsələ 872:** Oructutan ixtiyarsız olaraq suya yıxılsa və bütün başı suya batsa, yaxud onun başını zorla suya batırsalar, orucu batil olmaz, amma gərək tez başını sudan çıxarsın. Həmçinin, oruc olduğunu unudub başını suya batırsa, orucu batil olmaz, amma yadına düşən kimi cəld bayıra çıxarmalıdır.

**Məsələ 873:** Başa su tökmək və ya duşun altında dayanmaq orucu batil eləmir.

## Orucu batil edən səbəblərin bəzi hökmləri

**Məsələ 874:** Qeyd olunan işlərlə (yemək, içmək və s.) oruc o zaman batil olur ki, insan qəsdən və ixtiyari şəkildə bunları etsin. Əgər qəsdən olmasa, məsələn, ayağı sürüşüb suya düşsə, yadından çıxarıb xörək yesə və ya zorla onun boğazına bir şey töksələr, orucu batil olmaz.

**Məsələ 875:** Oructutan səhvən orucu batil edən işlərdən birini görsə, sonra orucunun batil olduğunu düşünüb növbəti dəfə qəsdən belə bir iş görsə, orucu batil olar.

**Məsələ 876:** Oructutanı orucu batil edən işlərdən birini görməyə məcbur etsələr, məsələn, ona desələr ki, xörək yeməsən, sənin canına və ya malına ziyan vuracağıq, o da zərərin qarşısını almaq üçün xörək yesə, orucu batil olar.

**Məsələ 877:** İnsan orucu batil edən bir iş görüb-görmədiyinə dair şəkk eləsə, məsələn, ağzına doldurduğu suyu udub-udmadığına dair şəkk eləsə, orucu düzgündür.

# Oructutana məkruh olan əməllər

**Məsələ 878:** Orucun bəzi məkruh əməlləri aşağıdakılardan ibarətdir:

1. Zəifliyə səbəb olan hər hansı bir iş görmək (məsələn, qan vermək, hamama getmək);

2. Ətirli bitki qoxulamaq (ətir vurmaq məkruh deyil);

3. Əynindəki paltarı islatmaq;

4. Yaş çubuqla dişləri sürtmək;

5. Diş çəkdirmək və ağızdan qan gəlməsinə səbəb olan hər hansı iş görmək;

6. Xörəyin və bu kimi şeylərin dadına baxmaq;

7. Boğaza getmədən buruna dərman tökmək;

8. İyi və ya dadı boğaza getmədən gözə dərman tökmək və sürmə çəkmək;

9. Qadının suda oturması;

10. Həyat yoldaşına toxunmaq, onunla zarafat etmək və ehtirasın təhrik olmasına səbəb olan hər hansı bir iş görmək;

11. Çoxlu qarqara etmək.

# Qəzanın və qəsd kəffarəsinin vacib olduğu yerlər

**Məsələ 879:** İnsan mübarək ramazan ayında orucu batil edən işləri[1] qəsdən, ixtiyari şəkildə və şəri üzr olmadan görsə, orucun batil və qəzasının vacib olmasından əlavə, insana qəsd kəffarəsi də vacib olur; istər boynuna kəffarə gələcəyini bilsin, istər bilməsin.

**Məsələ 880:** İnsan şəri hökmdən xəbərsiz olduğuna görə orucu batil edən bir iş görsə, məsələn, dərman içməyin də digər içməlilər kimi orucu batil etdiyini bilməsə və ramazan ayında oruc ikən dərman içsə, orucu batil olar; gərək qəzasını etsin, amma kəffarə vacib deyil.

**Məsələ 881:** İnsan haram olduğunu bildiyi, amma orucu batil etdiyini bilmədiyi bir işi görsə, qəzadan əlavə, vacib ehtiyata əsasən, kəffarə də vacib olar.

**Məsələ 882:** Oructutanın daxilindən ağzına bir şey qayıtsa, onu udmamalıdır; əgər qəsdən udsa, qəza və kəffarə vacib olar.

**Məsələ 883:** İnsan müəyyən bir gündə oruc tutacağını nəzir etsə, əgər həmin gün qəsdən oruc

---

[1] Cənabətli insanın qüsl vermədən yatması bundan istisnadır. Onun məsələləri bəyan olundu.

tutmasa, ya da orucunu batil etsə, gərək kəffarəsini[1] yerinə yetirsin.

**Məsələ 884:** İnsan ramazan ayında etimadsız bir adamın şam olduğunu söylədiyinə görə iftar eləsə, sonra şam olmadığını bilsə, qəza və kəffarə vacib olar.

**Məsələ 885:** Qəsdən orucunu batil etmiş şəxs həmin gün səfərə getsə, kəffarə boynundan götürülməz.

**Məsələ 886:** Cinsi yaxınlıq zamanı hər iki adamın orucu batildir, hər ikisinə həm qəza, həm də kəffarə vacibdir.

### Qəsdən orucu açmağın kəffarəsi

**Məsələ 887:** Müqəddəs İslam şəriətində mübarək ramazan ayının orucunu qəsdən açmağın kəffarəsi aşağıdakı üç məsələdən biridir:

1. Bir qul azad etmək;
2. İki ay oruc tutmaq;
3. Altmış yoxsula yemək vermək.

Bu dövrdə azad etmək üçün qul olmadığına görə insan digər iki işdən birini görməlidir.

**Məsələ 888:** Ramazan orucunun iki ay kəffarəsini tutmaq istəyən şəxs tam bir ayı və ikinci aydan ən azı

---

[1] Nəzir kəffarəsi on yoxsulu doyurmaqdan, yaxud geyindirməkdən, imkan olmadıqda isə üç gün oruc tutmaqdan ibarətdir.

bir günü fasiləsiz tutmalıdır. İkinci ayın qalan günləri fasilə ilə tutulsa da, eybi yoxdur.

**Məsələ 889:** Fasiləsiz oruc tutmalı olan şəxs üzrsüz bir səbəbdən orucunun bir gününü tutmasa, yaxud elə vaxtda başlasa ki, ortasında qurban bayramı kimi oruc tutmağın haram olduğu, yaxud başqa bir orucun vacib olduğu bir günə çatsa, məsələn, oruc tutmağı nəzir etdiyi günə çatsa, oruc tutduğu günlər kəffarədən sayılmaz; kəffarə orucunu əvvəldən tutmalıdır.

**Məsələ 890:** Altmış gün oruc tutmaq istəyən şəxs onun ortasında müəyyən bir üzrdən, məsələn, xəstəlikdən və ya heyzdən oruc tuta bilməsə, üzrü aradan qalxandan sonra qalanını tuta bilər, əvvəldən başlaması lazım deyil.

**Məsələ 891:** Altmış yoxsula yemək verməyi iki formada həyata keçirmək olar:

1. Hazır yeməklə onları doyurmaq;
2. Hər birinə 750 qram (bir müdd) buğda, un, çörək, düyü və ya digər qida məhsulu vermək.

**Məsələ 892:** Yoxsul özünün və ailəsinin illik xərcini çatdıra bilməyən, əldə edə bilməyən şəxsdir.

**Məsələ 893:** İnsan qəsd kəffarəsi üçün ixtiyarlı olduğu üç işdən heç birini yerinə yetirə bilməsə, gərək imkanı çatan qədər yoxsula yemək versin və ehtiyat odur ki, bağışlanmaq da istəsin. Əgər heç bir yoxsula yemək verməyə imkanı çatmasa, bağışlanmaq istəməsi, yəni ürəkdən və dillə

"əstəğfirullah" (Allahdan bağışlanmaq istəyirəm) deməsi kifayətdir.

**Məsələ 894:** Oruc tutmağa və yoxsula yemək verməyə imkanı çatmadığına görə vəzifəsi bağışlanmaq istəmək olan şəxs sonralar oruc tuta, yaxud yoxsullara yemək verə bilsə, müstəhəb ehtiyata əsasən, bunu etməlidir.

**Məsələ 895:** Qəsd kəffarəsindən ötrü altmış yoxsula yemək vermək istəyən şəxs altmış yoxsul tapa bilməsə, iki və ya daha çox yoxsulun payını bir nəfərə verə bilməz, altmış nəfərin hərəsinə bir pay yemək verməsi lazımdır. Əlbəttə, yoxsulun ailə üzvlərinin payını, onlara çatdırsın deyə, həmin yoxsula verə bilər. Yoxsul məsələsində də uşaqla böyük, qadınla kişi arasında fərq yoxdur.

**Məsələ 896:** Oructutan bir gündə bir dəfədən artıq orucu batil edən iş görmüşsə, ona yalnız bir kəffarə vacibdir. Əlbəttə, orucu cinsi yaxınlıqla və ya istimna ilə batil etmişsə, vacib ehtiyata əsasən, bunların sayı qədər kəffarə verməlidir.

**Məsələ 897:** İnsan ramazan ayında orucunu haram cinsi əlaqə, yaxud haram yemək və içməklə batil eləsə, üç kəffarədən biri kifayətdir, hərçənd, müstəhəb ehtiyata əsasən, hər üç kəffarəni verməlidir (qul azad etməli, altmış gün oruc tutmalı, altmış yoxsula yemək verməlidir).

**Məsələ 898:** Boynunda vacib kəffarə olan şəxsin onu dərhal yerinə yetirməsi vacib deyil, amma onu

vacib əməldə səhlənkarlıq sayılacaq qədər təxirə salmamalıdır.

**Məsələ 899:** Bir neçə il ötsə və insan vacib kəffarəsini verməsə, ona heç bir şey əlavə olmur.

**Məsələ 900:** Orucun qəza və kəffarəsini yerinə yetirməkdə ardıcıllıq yoxdur, hansını istəsə, önə keçirə bilər.

**Yalnız qəzanın vacib olduğu yerlər**

**Məsələ 901:** Ramazan ayında oruc niyyəti etməyən, yaxud riya üzündən oruc tutan və ya oruc tutmayacağını niyyət edən şəxs günboyu orucu batil edən işlərdən heç birini görməsə, ona həmin günün qəzası vacibdir, kəffarəsi vacib deyil.

**Məsələ 902:** İnsan ramazan ayında gecə cənabətli olsa, sübh azanına qədər ikinci yuxudan oyanmasa, ona yalnız orucun qəzası vacibdir. Əlbəttə, şama qədər orucu batil edən işlərdən çəkinməlidir.

**Məsələ 903:** Ramazan ayında cənabət qüslünü yaddan çıxaran və cənabətli halda bir neçə gün oruc tutan şəxs yalnız həmin günlərin qəzasını tutmalıdır.

**Məsələ 904:** Ramazan ayında gecənin sonlarında fəcrin doğuşuna əmin olmayınca orucu batil edən işləri görmək olar.

**Məsələ 905:** İnsan ramazan ayında gecənin sonlarında sübhün olub-olmadığını araşdırmadan orucu batil edən bir iş görsə, sonra həmin vaxt sübhün olduğu üzə çıxsa, həmin günün qəzasını

tutmalıdır. Lakin araşdıraraq sübh olmadığını bilib batil edən bir iş görsə və sonradan sübh olduğu məlum olsa, həmin günün qəzası vacib deyil.

**Məsələ 906:** Oructutan ramazan ayında şamın olduğuna əmin olmayınca iftar edə bilməz.

**Məsələ 907:** Ramazan ayında axşamüstü havanın qaranlığına görə şam olduğuna əmin olsa, sözləri şəriət baxımından mötəbər sayılan insanlar şam olduğunu söyləsələr və insan iftar eləsə, sonra isə vaxtın olmadığı üzə çıxsa, həmin günün qəzasını yerinə yetirməlidir.

**Məsələ 908:** Hava buludlu olduğuna görə insan şam olduğunu güman edib orucunu açsa, sonradan şam olmadığı bilinsə, həmin günün qəzası vacib deyil.

**Məsələ 909:** Orucu batil eləmək müəyyən səbəbdən icazəli və ya vacib olsa, məsələn, insanı orucu batil edən bir iş görməyə məcbur etsələr, yaxud boğulanı xilas etmək üçün suya girsə, bu zaman kəffarə vacib deyil, amma həmin günün qəzasını tutmalıdır.

**Məsələ 910:** Oructutan dəstəmaz alarkən suyun boğazına getməyəcəyinə əminliklə (dəstəmazda müstəhəb əməl olaraq) qarqara etsə və su qeyri-ixtiyari şəkildə boğazına getsə, bu iş vacib namazın dəstəmazı üçün olsa, orucu düzgündür, ancaq vacib namaz dəstəmazı üçün olmasa, yaxud dəstəmazdan başqa bir məqsədlə, məsələn, sərinləşmək üçün olsa

və suyu ixtiyarsız halda udsa, ehtiyata əsasən, həmin günün qəzasını tutmalıdır.

**Məsələ 911:** Oructutan qarqara zamanı suyu ixtiyarsız olaraq və ya unutqanlıqdan udacağını bilsə, qarqara etməməlidir.

**Qəza orucunun hökmləri**

**Məsələ 912:** Bir və ya bir neçə gün huşsuz vəziyyətdə olub vacib oruclarını tuta bilməmiş şəxsə həmin günlərin qəzasını tutmaq lazım deyil.

**Məsələ 913:** Məst olduğuna görə oruc tuta bilməmiş, məsələn, oruc niyyəti etməmiş şəxsin, bütün günü orucu batil edən işlərdən çəkinmiş olsa da, orucu düzgün deyil və qəzası vacibdir.

**Məsələ 914:** Oruc niyyəti edən, sonra məst olan, günün hamısını və ya bir hissəsini məst halda keçirən şəxs, vacib ehtiyata əsasən, həmin günün orucunu qəza etməlidir; xüsusən də ağlı sıradan çıxaran güclü məstlik zamanı.

**Məsələ 915:** Öncəki iki məsələdə məstedici maddəni içməyin insana haram olmasıyla xəstəlikdən və ya maddənin məstedici olduğunu bilməzlikdən haram olmaması arasında fərqi yoxdur.

**Məsələ 916:** Qadın aylıq adət və ya doğuş səbəbindən tuta bilmədiyi günlərin orucunu ramazan ayından sonra qəza etməlidir.

**Məsələ 917:** İnsan xəstəlikdən, yaxud aylıq adətdən və ya doğuş qanaxmasından (nifasdan)

ramazan ayının orucunu tutmasa və ramazan ayı bitməzdən qabaq dünyadan köçsə, tutmadığı orucları onun əvəzinə qəza etdirmək lazım deyil.

**Məsələ 918:** Ramazan ayının bir neçə günündə üzrlü səbəbdən oruc tutmamış və onların sayını itirmiş şəxs əgər üzrün başladığı vaxtı bilmirsə - məsələn, bilmir ki, ramazan ayının 25-də səfərə çıxıb və tutmadığı orucların sayı altıdır, yoxsa 26-da səfərə çıxıb və beş gün oruc tutmayıb –şəkkinin az tərəfini qəza edə bilər. Lakin üzrün başladığı zamanı bilirsə - məsələn, ayın 5-də səfərə getdiyini bilir, amma onuncu, yoxsa on birinci gecə qayıtdığını, nəticədə beş, yoxsa altı gün oruc tutmadığını bilmirsə - bu zaman, vacib ehtiyata əsasən, qəzanın çox olduğu variantı qəbul etməlidir.

**Məsələ 919:** Bir neçə ilin ramazan aylarından qəza orucları olan şəxs hansını birinci tutsa, düzgündür. Lakin axırıncı ramazan ayının qəza vaxtı dar olsa, məsələn, sonuncu ramazandan beş gün qəzası varsa və beş gündən sonra da növbəti ramazan ayı girirsə, bu zaman, vacib ehtiyata əsasən, sonuncu ramazanın qəzasını tutmalıdır.

**Məsələ 920:** Ramazan ayının qəza orucunu tutan şəxsin qəza vaxtı dar olmasa, günortadan qabaq orucunu batil edə bilər; əgər vaxtı dar olsa, yəni növbəti ramazan ayına qəza günlərinin sayı qədər gün qalmışdırsa, ehtiyata əsasən, orucu günortadan öncə də batil etməməlidir.

**Məsələ 921:** Ramazan ayının qəza orucunu tutmuş şəxs günortadan sonra qəsdən orucunu batil etsə, gərək on yoxsula yemək versin; əgər bacarmasa, üç gün oruc tutsun.

**Məsələ 922:** İnsana bir neçə ramazan ayının qəzası vacib olsa və o, niyyətdə hansını tutduğunu müəyyən etməsə, birinci ilin qəzası sayılar.

**Məsələ 923:** İnsan (xəstəlik və ya səfər kimi) bir üzrə görə oruc tutmayıbsa, növbəti ilin ramazan ayından qabaq üzrü aradan qalxsa, qəzasını etməlidir.

**Məsələ 924:** Xəstəliyə görə ramazan ayının orucunu tutmamış şəxsin xəstəliyi növbəti ramazan ayına qədər davam etsə, orucların qəzası vacib olmaz və hər gün üçün yoxsula bir müdd yemək verməlidir.

**Məsələ 925:** İnsan xəstəlik səbəbindən ramazan ayının orucunu tutmasa və ramazan ayından sonra xəstəliyi sağalsa, ancaq dərhal başqa bir üzr yaransa və növbəti ramazan ayına qədər orucunun qəzasını tuta bilməsə, sonrakı illərdə həmin günlərin qəzasını tutmalıdır. Həmçinin, ramazan ayında xəstəlikdən başqa bir üzrü olsa və ramazan ayından sonra aradan qalxsa, amma növbəti ramazan ayına qədər xəstəlik səbəbindən orucunu tuta bilməsə, həmin günlərin qəzasını tutmalıdır.

**Məsələ 926:** Səfərdə olduğuna görə ramazan ayının orucunu tutmamış şəxs növbəti ilin ramazan

ayına qədər səfər halında olsa, orucun qəzası boynundan götürülməz; sonradan onu yerinə yetirməli, müstəhəb ehtiyata əsasən, təxir kəffarəsi də verməlidir.

**Məsələ 927:** İnsan fiziki zəifliyinə görə ramazan ayında oruc tutmağa qadir olmasa, habelə növbəti ilin ramazanına qədər qəzasını tutmağa qadir olmasa, qəza boynundan götürülməz; nə vaxt bacarsa, qəzasını tutmalıdır. Həmçinin, bir neçə il oruc tutmamış adam tövbə edib boynunda olanları yerinə yetirmək qərarına gəlsə, tutmadığı bütün orucların qəzası ona vacibdir. Əgər bacarmasa da, orucların qəzası boynundan götürülməz və üzərində qalar.

**Təxir kəffarəsi**[1]

**Məsələ 928:** İnsan ramazan ayında müəyyən üzrə görə oruc tutmasa və ramazandan sonra üzrü aradan qalxsa, buna baxmayaraq, növbəti ramazan ayına qədər orucunun qəzasını tutmasa, qəzadan əlavə, hər gün üçün yoxsula bir müdd yemək vermək də ona vacibdir.

**Məsələ 929:** Qəsdən ramazan ayının orucunu tutmamış şəxs üzrsüz olaraq növbəti ramazana qədər qəzasını tutmasa, qəzadan və qəsd

---

[1] Ramazan ayının qəza orucunu tutmağı növbəti ramazan ayına qədər gecikdirməyə görə vacib olan kəffarə

kəffarəsindən əlavə, hər gün üçün yoxsula bir təxir kəffarəsi də verməlidir.

**Məsələ 930:** Təxir kəffarəsi bir müdd yeməkdir; yəni yoxsula 750 qram buğda, un, çörək, düyü və ya başqa bir qida məhsulu verilməlidir.

**Məsələ 931:** İnsan ramazan orucunun qəzasını bir neçə il təxirə salsa, qəzadan əlavə, həmin bir müdd yeməyi də verməlidir və sonrakı illərə görə bir şey vacib deyil.

**Məsələ 932:** Hər günə bir müdd yemək verməli olan şəxs bir neçə günün kəffarəsini bir yoxsula verə bilər.

**Məsələ 933:** Qəzanı növbəti ramazan ayına qədər tutmağın vacib olduğunu bilməyən şəxsin boynundan təxir kəffarəsi götürülməz.

## Ata və ananın qəza orucunun hökmləri

**Məsələ 934:** Əgər ata və vacib ehtiyata əsasən, ana səfərdən başqa bir üzrə görə oruclarını tuta bilməmişlərsə, qəza edə bildikləri halda da etməmişlərsə, onlar vəfat edəndən sonra böyük oğula vacibdir ki, ya özü onları yerinə yetirsin, ya da bundan ötrü muzdla adam tutsun. Lakin səfər səbəbindən tutulmamış orucları, qəza imkanları olmamışsa belə, böyük oğula vacibdir.

**Məsələ 935:** Ata və ya ananın qəsdən tutmadığı oruclar, vacib ehtiyata əsasən, böyük oğula vacibdir.

## Müsafir orucunun hökmləri

**Məsələ 936:** Ramazan ayında səfərə çıxmaq, orucdan qaçmaq üçün olsa belə, icazəlidir. Əlbəttə, yaxşı olar ki, insan səfərə getməsin; səfər yaxşı və xeyirli işdən ötrü olduqda isə, heç.

**Məsələ 937:** Mübarək ramazan ayında səfərdə olan şəxs oruc tuta bilməz, oruc tutmaq üçün də bir yerdə on gün qalmaq niyyəti etməsi vacib deyil.

**Məsələ 938:** Ramazan ayında səfərdə olan şəxsin namazı qəsrdirsə, oruc tuta bilməz. Lakin səfərdə namazını dördrükətli qılırsa (məsələn, bir yerdə on gün qalmağı niyyət etmişsə və ya peşəsi səfərdirsə), oruc tutmaq vacibdir.

**Məsələ 939:** Oructutan günortadan sonra səfərə getsə, orucuna davam etməlidir; əgər günortadan qabaq səfərə çıxsa, gecədən səfər niyyəti etmişdirsə, orucu batildir. Lakin gündüz səfər niyyəti etmiş olsa, vacib ehtiyata əsasən, gərək orucunu tutsun, ramazan ayından sonra da qəzasını etsin.

**Məsələ 940:** Gecədən səfər niyyəti etmiş şəxs günortadan qabaq səfərə getsə, tərəxxüs həddinə çatmazdan qabaq orucunu aça bilməz. Əgər ondan qabaq orucunu açsa, ehtiyata əsasən, ona ramazan ayının orucunun qəsdən açmaq kəffarəsi də vacib

olar. Əlbəttə, əgər məsələnin hökmündən xəbərsiz olmuşsa, kəffarəsi yoxdur.

**Məsələ 941:** Müsafir vətəninə və ya on gün qalmağı planlaşdırdığı yerə günortadan qabaq çatsa, orucu batil edən bir iş görməmişdirsə, gərək oruc tutsun; əgər batil edən bir iş görmüşdürsə, sonradan qəza etməlidir. Lakin günortadan sonra çatsa, oruc tuta bilməz.

**Məsələ 942:** İnsan müəyyən bir gündə, məsələn, rəcəb ayının birində, hətta səfərdə olsa belə, oruc tutacağını nəzir etsə, həmin gün səfərdə olsa da, orucu tutmalıdır və on gün qalmaq niyyəti etməsi vacib deyil.

**Məsələ 943:** İnsan müəyyən bir gündə müstəhəb oruc tutacağını nəzir etsə, amma nəzrində hətta səfərdə olsa da tutacağını qeyd etməsə, bu zaman səfərdə ikən o orucu tuta bilməz, on gün qalmaq niyyəti etməsi də lazım deyil, amma sonradan qəzasını tutmalıdır.

**Məsələ 944:** Dörd yerdə (Məkkə, Mədinə, Hüseyn məzarının yanı və Kufə məscidi) ixtiyar hökmü oruca aid deyil. Səfərdə olan şəxs bu yerlərdə namazı tam və ya qəsr qıla bilər, amma mübarək ramazan ayının orucunu tuta bilməz.

**Məsələ 945:** Səfərdə müstəhəb oruc tutmaq olmaz.

**Məsələ 946:** Səfərdə olan şəxs müqəddəs Mədinə şəhərində on gün qalmaq niyyəti etmədən diləyinin qəbul olması üçün üç gün müstəhəb oruc tuta bilər.

**Məsələ 947:** Günah səfərində namaz tam və oruc düzgündür; istər ramazan ayının orucu kimi vacib oruc olsun, istərsə də müstəhəb.

**Məsələ 948:** Müsafir günah səfərində günortadan qabaq günah niyyətindən dönsə və səfəri halal iş məqsədi ilə davam etdirsə, səfərin qalanı təlfiqi şəkildə olsa belə, şəri məsafə qədərinə çatsa, namazı qəsrdir və oruc tutmamalıdır.

**Məsələ 949:** İnsan günah səfərində günortadan sonra günah niyyətindən dönsə, orucu düzgündür; baxmayaraq ki, müstəhəb ehtiyata əsasən, orucu tutmalı, sonradan qəzasını da etməlidir.

**Vəzifəsinin əksinə olaraq oruc tutmuş müsafir**

**Məsələ 950:** Səfərdə olan şəxs oruc tutmamalı olduğu halda bilə-bilə və qəsdən oruc tutsa, orucu batildir; əgər ramazan ayı olsa, qəzası vacibdir. Lakin hökmün özünü bilmədiyinə görə[1] oruc tutmuş olsa, orucu düzgündür.

**Məsələ 951:** Öncəki məsələyə əsasən, insan hökmün xüsusiyyətlərini bilmədiyinə görə oruc tutsa, orucu batildir; misal üçün, səfərdə oruc tutmamalı olduğunu bilir, amma on gün qalmağı planlaşdıran şəxsin bir dördrükətli namaz qılmadan niyyətindən döndüyü təqdirdə on gün qalmaq

---

[1] Yəni orucun səfərdə batil olduğunu bilmirsə.

hökmünün də qüvvədən düşdüyünü və oruc tutmamalı olduğunu bilmir.

**Məsələ 952:** Səfərdə olan şəxs hökmün şamil olduğu vəziyyəti bilmədiyinə görə oruc tutsa, məsələn, əslində, şəri məsafə qədər olan bir yerə getsə, amma məsafənin miqdarını bilmədiyinə görə oruc tutsa, orucu batildir.

**Məsələ 953:** İnsan səfərdə olduğunu və ya səfərdə orucun batil olduğunu unudub oruc tutsa, orucu batildir.

## Orucun vacib olmadığı şəxslər

**Məsələ 954:** Doğuşu yaxınlaşan hamilə qadın orucun uşağa və ya özünə zərərli olmasından qorxsa, ona oruc vacib deyil. Birinci halda (uşağa zərərli olsa) hər gün üçün (fidyə olaraq) yoxsula bir müdd yemək – buğda, arpa və ya başqa bir şey verməli, ramazan ayından sonra da orucunun qəzasını tutmalıdır. İkinci halda, yəni özünə zərərli olduqda isə tutmadığı orucların qəzasını tutmalı və ehtiyata əsasən, fidyə də verməlidir. Doğuşu yaxın olmayan qadının fidyə verməsi də vacib ehtiyata əsaslanır.

**Məsələ 955:** Südverən qadın (istər uşağın anası olsun, istər dayəsi; istər muzdla süd versin, istər muzdsuz) südün azalacağından və ya kəsiləcəyindən qorxduğuna görə orucun uşağa zərərli olmasından qorxsa, ona oruc vacib deyil; hər gün üçün fidyə

verməli, sonradan qəzasını da tutmalıdır. Lakin oruc qadının özünə zərərli olsa, fidyə, ehtiyata əsasən, vacibdir.

**Məsələ 956:** Yuxarıdakı iki məsələyə əsasən, növbəti ilin ramazan ayına qədər orucunu tutmasa, əgər səhlənkarlıq etmiş olsa, qəzadan əlavə, təxir kəffarəsi də vacibdir. Lakin üzrlü səbəbdən qəzanı tutmamış olsa, təxir kəffarəsi yoxdur. Əgər bu üzr övladına zərər qorxusu olsa, orucların qəzasını nə vaxt bacarsa, onda tutmalıdır, özünə zərər qorxusu olsa, qəza boynundan götürülür və hər günə bir fidyə verməlidir.

**Məsələ 957:** Qadının fidyə və kəffarəsi öz boynunadır, ərinə vacib deyil; hərçənd, hamiləliyə və ya südverməyə görə oruc tutmasa belə. Həmçinin, övladın kəffarəsi və ya fidyəsi atanın boynuna deyil. Əlbəttə, insanın öz həyat yoldaşının və ya övladının tərəfindən fidyə və kəffarə verməsi icazəlidir.

**Məsələ 958:** Oruc tutmaq məşəqqətli olduğu təqdirdə qoca kişi və qadınlara vacib deyil, onlar hər gün üçün yoxsula bir müdd yemək (buğda, arpa, düyü və s) verməlidirlər. Əgər əsla oruc tutmaq gücləri olmasa da, ehtiyata əsasən, gərək fidyə versinlər və hər iki halda ramazan ayından sonra oruc tuta bilsələr, müstəhəb ehtiyata əsasən, oruclarının qəzasını tutsunlar.

**Məsələ 959:** İnsanın dözülməz həddə susadan və ya susuzluğa dözməyin məşəqqətli olduğu bir

xəstəliyi olsa, ona oruc tutmaq vacib deyil. Əlbəttə, ikinci halda (məşəqqətli olduqda) gərək hər gün üçün yoxsula bir müdd yemək versin və vacib ehtiyata əsasən, birinci halda da fidyəni versin. Ramazan ayından sonra oruc tuta bildikdə isə, müstəhəb ehtiyata əsasən, oruclarının qəzasını tutsun.

**Məsələ 960:** Fidyənin miqdarı təxir kəffarəsi qədərdir; yəni yoxsula 750 qram buğda, un, çörək, düyü və ya başqa bir qida məhsulu verilməlidir.

## Ayın əvvəlini sübut etməyin yolu

**Məsələ 961:** Ayın əvvəli beş yolla sübut olunur:

1. İnsanın özü ayı gördükdə;
2. İki ədalətli şəxs şəhadət verdikdə; bu şərtlə ki, çoxlu adam ayın görünməsini inkar etməsin və həmin iki ədalətli şəxsin səhv etdiyinə ehtimal güclənməsin;
3. Əminliyə və ya xatircəmliyə səbəb olan məşhurluq;
4. Öncəki ayın əvvəlindən otuz günün ötməsi;
5. Şəriət hakiminin hökmü.

**Məsələ 962:** Axşamüstü ayın görünməsi yeni qəməri ayının girdiyini isbat edir, ay görünəndən sonrakı ilk gecə ayın birinci gecəsi sayılır.

**Məsələ 963:** Ayı görmək məsələsində adi görmə ilə cihazla görmə arasında fərq yoxdur, adi gözlə

görünəndə ayın birinə hökm olunduğu kimi, eynəklə, durbinlə və ya teleskopla görünəndə də ayın əvvəli sübut olunur. Lakin ayın, şəklinin kompüterdə əks olunmasıyla görünməsində, "görmə" sözünün buna aid olması məlum olmadığına görə ayın girişinin bu şəkildə isbatı da şübhəlidir (məhəlli-işkaldır).

**Məsələ 964:** Ayın kiçik və aşağıda olması, böyük və yuxarıda olması, enli və ya nazik olması və digər bu kimi məsələlər birinci və ya ikinci axşamın olmasına şəri dəlil deyil. Lakin bununla insanda xatircəmlik yaransa, ona uyğun əməl etməlidir.

**Məsələ 965:** Ayın əvvəli təqvimlərlə, astronomik hesablamalarla sübuta yetmir. Onların sözlərindən əminlik yarandıqda isə sübuta yetir.

**Məsələ 966:** Bir şəhərdə ayın girdiyi sübut olunsa, onunla bir üfüqdə yerləşən digər şəhərlər üçün də kifayət edir. Üfüq birliyi dedikdə məqsəd ayın görünmə və görünməmə ehtimalı baxımından bir olduğu yerlərdir.

**Məsələ 967:** Ayın (şəri) hakim üçün sübut olunması, buna dair hökm verməyincə, digərlərinin tabe olmasına kifayət etmir; ayın görüldüyünə xatircəmlik yarandıqda isə, kifayətdir.

**Məsələ 968:** Hakim sabah ayın biri olduğunu hökm etsə, bu hökm bütün ölkəyə şamil edilsə, onun hökmü şəriət baxımından o ölkənin bütün şəhərləri üçün keçərlidir.

**Məsələ 969:** Qeyri-İslami, zalım və ya fasiq hökumət tərəfindən ayın görüldüyü elan olunarsa, insanda əminlik və ya xatircəmlik yarandığı təqdirdə kifayət edər.

**Məsələ 970:** Bir şəhərdə ay görülməsə, amma radio və televiziya ayın çıxdığını xəbər versə, onların xəbəri əminlik və ya xatircəmlik yaratsa, kifayət edər və araşdırmağa ehtiyac yoxdur.

**Məsələ 971:** Ramazan ayının gəlişi sübut olunmasa, oruc vacib deyil, amma sonradan ayın birinin olduğu sübut olunsa, gərək həmin günün qəzası tutulsun.

**Məsələ 972:** Şəvval ayının gəlişi ayın, eyni üfüqdən olan qonşu şəhərlərdə olsa belə, görülməsi, iki ədalətli şəxsin şəhadəti və ya hakimin hökmü yolu ilə sübuta yetməsə, həmin gün oruc tutulmalıdır.

**Məsələ 973:** İnsan ramazanın sonuncu, yoxsa şəvvalın birinci günü olduğuna dair şəkk etsə, oruc tutmalıdır. Lakin gün əsnasında şəvvalın biri olduğu sübuta yetsə, gərək şama az qalsa belə, orucunu açsın.

# Orucun qisimləri

**Məsələ 974:** Oruc dörd qisimdir: vacib, haram, müstəhəb və məkruh.

**Məsələ 975:** Vacib oruclar aşağıdakılardan ibarətdir:

1. Mübarək ramazan ayının orucu;
2. Qəza orucu;
3. Kəffarə orucu;
4. Etikafın üçüncü gününün orucu;
5. Təməttö həccində qurbanlığı əvəz edən oruc;[1]
6. Nəzir, əhd və ya and vasitəsilə vacib olan oruc;[2]
7. Atanın və vacib ehtiyata əsasən, ananın böyük oğula vacib olan qəza orucu.

**Məsələ 976:** Haram orucların bəzisi aşağıdakılardan ibarətdir:

1. Fitr bayramı günü oruc tutmaq;
2. Qurban bayramı günü oruc tutmaq;
3. Şəbanın axırı, yoxsa ramazanın əvvəli olduğunu bilmədən ramazan niyyəti ilə oruc tutmaq;
4. Qadının ərinin hüququnun pozulmasına səbəb olan müstəhəb orucu;

---

[1] Hacının həcdə qurban kəsməyə imkanı olmasa və borc ala bilməsə, onun yerinə on gün oruc tutmalıdır. Onun üç günü həcc səfərində, yeddi günü vətənində tutulur.

[2] Əslində, müstəhəb oruc vacib oruca çevrilmir, vacib olan nəzrə və digər bu kimi şeylərə əməl etməkdir.

5. Zərərli olduğu halda oruc tutmaq;

6. İstisnaları çıxmaq şərtilə səfərdə olan şəxsin orucu.

**Məsələ 977:** (Haram və məkruh günləri çıxmaqla) ilin bütün günlərində oruc tutmaq müstəhəbdir. Lakin oruc tutmaq bəzi günlərdə təkidli müstəhəbdir. O cümlədən:

1. Hər ayın ilk və son cümə axşamı və ikinci ongünlüyünün birinci çərşənbəsi;

2. Hər ayın 13, 14 və 15-i;

3. Rəcəb və şəban ayları (bu ayların hamısı və ya bəzi günləri, hətta bir günü olsa da);

4. Allah rəsulunun (s) doğum günü (17 rəbiüləvvəl);

5. Məbəs bayramı (27 rəcəb);

6. Qədir-Xum bayramı (18 zilhiccə);

7. Dəhvül-ərz günü (25 zilqədə).

Məsələ 978: Məkruh oruclar aşağıdakılardan ibarətdir:

1. Ev sahibinin icazəsi olmadan və ya bundan çəkindirdiyi halda qonağın müstəhəb oruc tutması;

2. Ərəfə günü Ərəfə əməllərini yerinə yetirməyə mane olacaq zəifliyə səbəb olan oruc.

# Orucun və mübarək ramazan ayının müstəhəb əməlləri

**Məsələ 979:** Müstəhəb oruc tutan şəxsə orucu sona çatdırmaq vacib deyil; nə vaxt istəsə, orucunu aça bilər; hətta bir mömin onu yeməyə dəvət etsə, dəvətini qəbul edib orucunu açması şəri baxımdan bəyənilləndir.

**Məsələ 980:** Müstəhəbdir ki, oructutan şam namazını iftardan qabaq qılsın. Lakin kimsə onu gözləyirsə və ya özü namazı diqqət və təzimlə qılmayacaq qədər acdırsa, yaxşı olar ki, əvvəlcə iftar eləsin. Lakin imkan daxilində namazı fəzilətli vaxtında qılsın.

**Məsələ 981:** Mübarək ramazan ayına hörmət əlaməti olaraq, aşağıdakı şəxslərin, oruc olmasalar belə, orucu batil edən işlərdən çəkinmələri müstəhəbdir:

1. Səfərdə orucunu batil etmiş, vətəninə, yaxud on gün qalacağı yerə günortadan qabaq çatmış müsafir;

2. Vətəninə və ya on gün qalmağı planlaşdırdığı yerə günortadan sonra çatmış müsafir;

3. Orucunu açmış və günortadan qabaq sağalmış xəstə;

4. Günortadan sonra sağalmış xəstə;

5. Gün əsnasında aylıq adətdən və ya doğuş qanaxmasından paklanmış qadın;

6. Ramazan ayında gündüz müsəlman olmuş kafir;

7. Ramazan ayında gündüz həddi-büluğa çatmış uşaq.

# Etikaf

Gündəlik həyat və maddi məşğuliyyətlərin çoxluğu bəzən insana özünü və Allahı unutdurur. Bu zaman insana özünü tapmaq və nəfsini sorğuya çəkmək imkanı yaradan amillər çox dəyərlidir. Bu amillərdən biri də etikafdır, insanın bir neçə ardıcıl gündə ibadət və dua ilə məşğul olmasına, özüylə xəlvət etməsinə, dünyəvi bağlardan qurtulub ruhunu cilalamasına, canını paklamasına səbəb olur.

**Məsələ 982:** Etikaf odur ki, insan Allah-taalaya ibadət və bəndəlik niyyəti ilə məsciddə qalsın, oradan çıxmasın.

**Məsələ 983:** Etikaf öz-özlüyündə müstəhəbdir, ancaq bəzən nəzir, əhd, and və ya icarə səbəbindən vacib olur.[1]

**Məsələ 984:** Hansı hallarda oruc tutmaq düzgündürsə, etikaf da düzgündür, amma ən yaxşı etikaf vaxtı ramazan ayı, xüsusən də son on günüdür.

---

[1] Əslində, müstəhəb etikaf vacibə çevrilmir, vacib olan nəzrə, əhdə, anda və ya icarəyə əməl etməkdir.

**Etikafın şərtləri**

**Məsələ 985:** Etikafın düzgünlüyünün yeddi şərti var:

1. Ağıl;
2. Niyyət;
3. Oruc;
4. Bir məsciddə qalmaq;
5. Ən azı üç ardıcıl gün qalmaq;
6. Məsciddə davamlı qalmaq;
7. Etikaf icazəsinin olması.

**Məsələ 986:** Həddi-büluğa çatmaq etikafın düzgünlüyünün şərti deyil. Bu baxımdan, yaxşı-pisi ayırd edən uşaq da etikaf edə bilər.

**1. Ağıl**

**Məsələ 987:** Etikaf edən şəxs ağıllı olmalıdır, ruhi xəstənin, məst və digər bu kimi insanların etikafı düzgün deyil.

**2. Niyyət**

**Məsələ 988:** Bütün ibadətlər kimi etikaf da qürbət qəsdi ilə baş tutmalıdır; yəni insanın məsciddə qalması yalnız Allah-taalaya yaxınlaşmaq məqsədi güdməli, hər bir riyadan, özünü göstərmək hissindən uzaq olmalıdır.

**Məsələ 989:** Etikaf birinci gün fəcr doğandan başladığına görə, niyyət də o andan gec olmamalıdır. Lakin etikafa birinci axşamdan və ya gecə boyu

başlamaq, o zamandan niyyət etmək və üçüncü günün şamına qədər davam etdirmək icazəlidir.

**Məsələ 990:** Etikaf edən belə niyyət edə bilər ki, etikaf əsnasında üzrlü səbəb yaransa, üçüncü gündə olsa belə, pozub məsciddən çıxacaq.

**3. Oruc**

**Məsələ 991:** Orucsuz etikaf düzgün deyil. Lakin orucun etikaf üçün olması lazım deyil, hər hansı (vacib və ya müstəhəb, özü üçün və ya digəri üçün) oruc tutsa, kifayətdir.

**Məsələ 992:** Xəstə və müsafir kimi oruc tuta bilməyən adamın etikafı düzgün deyil.

**Məsələ 993:** Müsafir on gün qalmaq niyyəti və ya səfərdə oruc tutmağı nəzir eləsə, etikaf edə bilər. Lakin on gün qalmaq niyyəti və ya səfərdə oruc nəzri eləməsə, səfərdə orucu düzgün deyil və oruc düzgün olmadığına görə etikaf da düzgün deyil.

**4. Bir məsciddə qalmaq**

**Məsələ 994:** Dörd məsciddən (Məscidül-həram, Peyğəmbər (s) məscidi (s), Kufə məscidi və Bəsrə məscidi) birində etikaf etmək daha fəzilətlidir. Lakin bütün came məscidlərində etikaf etmək olar. Camaat namazı qılınan və ədalətli imamı olan başqa məscidlərdə isə savaba ümid niyyəti ilə etikaf düzgündür.

**5. Ən azı üç ardıcıl gün qalmaq**

**Məsələ 995:** Etikaf üç ardıcıl gündən az olmamalıdır. Onu ikinci gün bitməzdən qabaq tərk eləmək olar, lakin iki gün qalsa, üçüncü gün qalmaq vacib olur. Üç gündən (bir gün və ya bir gecə) artıq qalmağın eybi yoxdur. Onu uzatmağın müəyyən həddi də yoxdur, amma hər iki gündən sonra üçüncü günün etikafı vacib olur.

**Məsələ 996:** Etikaf birinci gün fəcrin doğuşundan üçüncü gün şama qədər hesablanır. Bu baxımdan, ikinci və üçüncü gecə də etikafdandır və məsciddən çıxmaq olmaz. Lakin birinci və dördüncü gecə etikafdan deyil.

**6. Məsciddə davamlı qalmaq**

**Məsələ 997:** İnsan (zərurət hallarını çıxmaqla) qəsdən və ixtiyari şəkildə məsciddən çıxsa, məsələnin hökmünü bilmədiyinə görə olsa da, etikafı batil olar.

**Məsələ 998:** İnsan unutqanlıqdan, məcburiyyətdən və ya hansısa əqli, ürfi və ya şəri bir zəruri işdən ötrü məsciddən çıxsa, vacib və ya müstəhəb, dünyaya və ya axirətə aid olmasından asılı olmayaraq, etikafı batil olmaz.

**Məsələ 999:** İnsan zəruri bir iş üçün məsciddən çıxmağa məcbur olsa, yersiz təxirdən, məsələn, ağac altında oturmaqdan, istirahət etməkdən və bu kimi

işlərdən çəkinməli və məsciddən bayırda zərurət qədərindən artıq qalmamalıdır.

**Məsələ 1000:** İnsanın zəruri hallarda məsciddən bayırda olması etikafın formasını pozacaq həddə uzun olsa, etikaf batil olar.

**7. Etikaf icazəsinin olması**

**Məsələ 1001:** Övladın etikafı ata-ananın əziyyət çəkməsinə səbəb olsa, onlardan icazə almalıdır; hətta onların əziyyətinə səbəb olmasa da, müstəhəb ehtiyata əsasən, etikaf üçün icazə almalıdır.

**Məsələ 1002:** Qadının etikafı ərinin hüququnun pozulmasına səbəb olsa, vacib ehtiyata əsasən, ərindən icazə almalıdır.

**Etikafın qəzası, kəffarəsi və etikafda haram olan işlər**

**Məsələ 1003:** Etikaf edən şəxsə aşağıdakı işlər haramdır:

1. Ətirli maddələri və bitkiləri ləzzət məqsədi ilə qoxulamaq;
2. Cinsi yaxınlıq; ehtiyata əsasən, insanın həyat yoldaşına ehtirasla toxunması və onu öpməsi, haram olmasından əlavə, etikafı da batil edər;
3. Vacib ehtiyata əsasən, istimna;
4. Alış-veriş və vacib ehtiyata əsasən, icarə kimi hər hansı mübadilə;

5. Dini və dünyəvi işlərdə mübahisə və qarşıdurma (əgər qarşı tərəfə qalib gəlmək, öz elmini və üstünlüyünü göstərmək üçün olsa); lakin haqqı aşkara çıxarmaq və qarşı tərəfi səhvindən döndərmək üçün mübahisə etsə, eybi yoxdur.

**Məsələ 1004:** Etikafda haram olan işlər yalnız gündüzə aid deyil, gecə də onlardan çəkinmək vacibdir.

**Məsələ 1005:** Etikafda olan şəxs yemək və içmək üçün alış-veriş etməyə məcbur olsa, öz yerinə kimisə göndərə və ya lazım olanları alış-verişsiz əldə edə bilməsə, alış-verişin eybi yoxdur.

**Məsələ 1006:** Vacib etikaf batil olsa, əgər müəyyən vacib olsa, gərək qəzasını yerinə yetirsin; əgər qeyri-müəyyən vacib olsa, onu yenidən yerinə yetirsin.

**Məsələ 1007:** Müstəhəb etikafını ikinci gündən sonra batil edən şəxs onun qəzasını etməlidir. Lakin birinci və ya ikinci gün batil etsə, qəzası vacib deyil.

**Məsələ 1008:** Etikafı qəza etmək və ya ikinci dəfə yerinə yetirmək o zaman vacibdir ki, etikafa başlayarkən üzr yarandıqda onu pozmaq şərtini niyyət etməmiş olsun.

**Məsələ 1009:** Etikafın batil olmasının kəffarəsi ramazan ayında qəsdən orucu yeməyin kəffarəsi kimidir, yəni bir qul azad etmək,[1] yaxud otuz bir

---

[1] Hazırkı dövrdə belə bir imkan yoxdur.

günü ardıcıl olmaqla iki ay oruc tutmaq, ya da altmış yoxsula yemək vermək.

# Mündəricat

NAMAZ ....... 3
Vacib namazlar ....... 4
Gündəlik namazlar ....... 4
Sübh namazının vaxtı ....... 5
Zöhr və əsr namazlarının vaxtı ....... 5
Şam və işa namazlarının vaxtı ....... 7
Namaz vaxtlarının hökmləri ....... 8
Namazlar arasında ardıcıllıq ....... 10
Müstəhəb namazlar ....... 12
Qiblə ....... 14
Namazda örtünmə ....... 16
Namazqılanın bədəninin və ya paltarının pak olması gərəkməyən yerlər ....... 19
Namazqılanın paltarının müstəhəb və məkruh halları ....... 27
Namaz qılınan yerin şərtləri ....... 27
Namaz qılınması müstəhəb olan yerlər ....... 31
Məscid hökmləri ....... 31
Azan və iqamə ....... 34
Namazın vacib əməlləri ....... 36
Üzərinə səcdə ediləsi şeylər ....... 60
Quranın vacib səcdəsi ....... 64
Namazdan sonrakı əməllər ....... 70
Namazın tərcüməsi ....... 72
Namazı batil edənlər ....... 76
Namazda şəkkin hökmləri ....... 80
Ehtiyat namazı ....... 87
Əhəmiyyətsiz şəklər ....... 88
Səhv səcdəsi ....... 92
Səhv səcdəsinin hökmləri ....... 95
Müsafir namazı ....... 96
Birinci şərt: Şəri məsafə ....... 97
İkinci şərt: Şəri məsafə niyyəti ....... 102
Üçüncü şərt: Şəri məsafə niyyətinin davamlılığı ....... 105
Dördüncü şərt: Vətəndən keçməmək və ya on gün qalmaq qərarına gəlməmək ....... 107
Beşinci şərt: Səfərin icazəli olması ....... 107
Altıncı şərt: Yaşayış yerinin olması ....... 112

Yeddinci şərt: Səfər peşə olmasın....................................113
Səkkizinci şərt: Tərəxxüs həddinə çatmaq............................119
Şəri səfəri kəsən yerlər....................................................124
Qəsrin vacib olduğu zaman tam qılmağın hökmü.................141
Tam qılmağın vacib olduğu zaman qəsr qılmağın hökmü .....143
Müxtəlif məsələlər ..........................................................145
Qəza namazı....................................................................146
İcarə namazı....................................................................149
Ata və ananın qəza namazı ..............................................151
Ayat namazı.....................................................................152
Fitr və qurban bayramı namazı .........................................157
Camaat namazı................................................................159
İqtida edənin tabelik baxımından vəzifələri..........................165
Cümə namazı ..................................................................173
Cümə namazına aid müxtəlif məsələlər...............................178
Oruc ...................................................................................180
Orucun vacib olmasının və düzgünlüyünün şərtləri..............182
Orucun vacib əməlləri.......................................................185
Orucu batil edən səbəblərin bəzi hökmləri ...........................199
Oructutana məkruh olan əməllər..........................................200
Qəzanın və qəsd kəffarəsinin vacib olduğu yerlər ................201
Ata və ananın qəza orucunun hökmləri................................211
Müsafir orucunun hökmləri ................................................212
Orucun vacib olmadığı şəxslər............................................215
Ayın əvvəlini sübut etməyin yolu........................................217
Orucun qisimləri ..............................................................220
Orucun və mübarək ramazan ayının müstəhəb əməlləri ........222
Etikaf ................................................................................224